Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 241 (7968) CÜMƏ, 26 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

VI BAKU INTERNATIONAL HUMANITARIAN FORUM
October 25–26, 2018

VI BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMU
Oktyabr 25–26, 2018

VI БАКИНСКИЙ МЕЖДУНАРОДНЫЙ ГУМАНИТАРНЫЙ ФОРУМ
Октябрь 25–26, 2018



# İLHAM ƏLİYEV Azərbaycan modelini dünyaya xilas formulu kimi təqdim etdi:

## İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə, heç bir ölkədə problem olmayacaq

- həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, islam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsi və bu foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var.
- Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur.
- Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.
- Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir.
- Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur.
- Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır.
- müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır.
- dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.
- Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk.
- Ölkəmizdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb, 6 beynəlxalq hava limanı, Azərbaycanı bütün qonşu ölkələrlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları, son 15 ildə salınmış 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200-dən çox gəmisi olan ən böyük ticarət donanması. Yəni, bütün bunlar böyük vəsait tələb edən layihələrdir və onlar həll olunub. Nəhayət, Xəzər dənizinin önəmli, yeni ticarət limanının bu il istifadəyə verilməsi bu işləri tamamlayıb. Bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəaliyyəti daha da genişlənib.

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlət başçısı nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün VI Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram, xaricdən gələn qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edir. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, dünyada foruma çox böyük maraq var. Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir. Əminəm ki, forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar forumun işinə çox böyük töhfə verəcəklər.

Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. "Bakı Prosesi" beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək. Qeyd etdiyim kimi, "Bakı Prosesi" artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirilir. Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın. Eyni zamanda, Azərbaycanda keçirilmiş mötəbər idman yarışları da idman yarışları olsalar da, eyni zamanda, humanitar əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Mən xüsusilə I Avropa Oyunlarını və İslam Həmrəylik Oyunlarını qeyd etmək istərdim. Hesab edirəm, o da çox rəmzi məna daşıyır ki, ilk Avropa Oyunları bizim təşəbbüsümüzlə Azərbaycanda keçirilmişdir. Hesab edirəm, bu, çox əlamətdar hadisə, əlamətdar qərardır ki, ilk Avropanın Oyunları müsəlman ölkəsində keçirilmişdir. Ondan iki il sonra - 2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Yenə də qeyd etmək istəyirəm, bunlar idman yarışlarıdır və bu iki oyunda on minə yaxın idmançı iştirak edib. Amma, eyni zamanda, biz bu oyunlara humanitar əməkdaşlıq prizmasından yanaşırıq, baxırıq və doğrudan da oyunlar zamanı Bakıda və digər bölgələrdə yaşanan gözəl ab-hava, gözəl həmrəylik iqlimi hesab edirəm ki, ümumi işimizə növbəti töhfə olmuşdur. Biz bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Xüsusilə indiki şəraitdə ki, yenə də qeyd etmək istəyirəm, həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, İslam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsi və bu foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var.

Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.

Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim sərəncamımla 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir.

Ardı 2-ci səh.

# D.Trampdan İlham Əliyevə növbəti dəstək

## İlham Əliyevlə daha sıx işbirliyi məramını bir daha bəyan edən ABŞ Azərbaycanla münasibətlərin strateji əhəmiyyətini yüksək dəyərləndirir

Son 15 ildə Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan, demək olar ki, bütün ölkələrlə, güc mərkəzləri ilə çox səmərəli, işgüzar, bərabərhüquqlu münasibətlər qura bilib.



Əlbəttə ki, bu münasibətlər qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulub. Yaranan əlaqələr isə ölkəmizi dünya birliyinə daha da yaxından tanıdır, mövqelərimizi möhkəmləndirir.

Son illərdə Azərbaycan-ABŞ münasibətlərinin yüksələn xətt üzrə inkişafı bu baxımdan diqqəti daha çox cəlb edir. Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri arasında ABŞ-la münasibətlərin yaxşılaşdırılması daim mühüm yer tutub. Bu münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif sferalarını əhatə etməklə hər iki dövlətin milli maraqlarına cavab verməkdədir.

Dünyanın superdövləti olaraq ABŞ-la münasibətlərin yüksək səviyyəyə qaldırılması işində, əlbəttə ki, ölkəmizin demokratik dünyaya inteqrasiyası istiqamətində atdığı davamlı addımlar mühüm rol oynayıb. Digər tərəfdən, ölkəmizin Avropanın enerji təchizatı sahəsində əhəmiyyətli rolu da Azərbaycanla ABŞ arasındakı münasibətləri dərinləşdirən faktorlardandır.

Azərbaycan-ABŞ münasibətləri strateji əhəmiyyət kəsb edir. Təkcə bu ilin aprel-may aylarında ABŞ Prezidenti Donald Trampın dövlət başçısı İlham Əliyevə 3 məktub göndərməsi əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bir daha təsdiqləyir.

Ardı 9-cu səh.

# Fransa təmsilçilərinin hərəkətlərinə görə məsuliyyət daşımalıdır

Heç kimə sirr deyil ki, Fransanın erməni xalqı və Ermənistanla qarşılıqlı münasibətləri "xüsusi" xarakter daşıyır. İki tərəf arasında belə münasibətlərin tarixi qədimdir. Xüsusilə Birinci Dünya müharibəsi ərəfəsində və müharibənin gedişində fransız-erməni əməkdaşlığı özünü qabarıq şəkildə göstərmişdir.

Fransa və onun müttəfiqləri müharibədə üz-üzə gəldikləri Osmanlı imperiyasını içəridən dağıtmaq məqsədilə Şərqi Anadoluda yaşayan erməni azlığından istifadə edirdilər.

Onların silahlandırdıqları erməni quldur dəstələri yerli dinc türk və kürd əhalisinə qarşı olmazın cinayətlər törətdi. Osmanlı hökumətinin daxili sabitliyi bərpa etmək naminə quldur dəstələrini tərksilah etmək üçün qəti tədbirlər görməkdən və erməni əhalisini imperiyanın başqa ərazilərinə köçürməkdən başqa yolu qalmamışdı. Sonralar bu hadisələr "erməni soyqırımı" kimi təqdim edilərək Türkiyə Respublikasına qarşı əkstəbliğat və təzyiq vasitəsinə çevrildi.

Fransanın ötən əsrin əvvəllərində Osmanlı imperiyasının ərazisində silahlı qiyam qaldırmağa təhrik etdiyi və silahla təchiz etdiyi ermənilərin nəvə-nəticələri bu gün dədə-babalarının uğursuz mübarizəsini davam etdirirlər.

Ardı 9-cu səh.

# VI Bakı Beynəlxalq Humanitar Forumu

# İLHAM ƏLİYEV Azərbaycan modelini

## İslam həmrəyliyi və multikulturalizm anlayışları

*Əvvəli 1-ci səh.*

Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır. Biz çalışdıq ki, 2016-cı ildə diqqəti bu önəmli məsələyə cəlb edək. Xüsusilə nəzərə alsaq ki, bu gün, bir daha qeyd etmək istəyirəm, multikulturalizmlə bağlı müxtəlif fikirlər səsləndirilir. Hesab edirəm ki, forumda bu məsələ çox geniş müzakirə olunacaqdır.

2017-ci ili isə biz "İslam Həmrəyliyi ili" elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər islam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıqla, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik.

Qeyd etdiyim kimi, biz humanitar əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu məsələlər dost ölkələrlə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində daim gündəlikdədir. Ancaq biz özümüz böyük humanitar fəlakətlə üzləşmişik. Bir həftə bundan əvvəl - oktyabrın 18-də biz Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etmişik. Cəmi 27 ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqilliyimizin ilk günləri, ilk illəri çox ağır və faciəvi idi. Həm siyasi böhran, daxili çəkişmələr, vətəndaş müharibəsi, iqtisadi tənəzzül, kütləvi itaətsizlik, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük fəlakətə, bəlalara gətirib çıxardı. Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, xalqımıza qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər, o cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələrin qəbul olunmasından 25 il keçir. Ermənistan bu qətnamələri icra etmir və əfsuslar olsun, hələ də beynəlxalq mexanizm işlənilməyib ki, təcavüzkarı beynəlxalq aparıcı qurum tərəfindən qəbul edilmiş qətnamələrin icrasına məcbur etsin. BMT-nin Baş Assambleyası oxşar qətnamə qəbul edib, digər beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur. Münaqişənin həlli üçün yeganə yol məhz budur, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmalıdır, - necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərilir, - və Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtmalıdırlar.

Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir. Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində.

Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Makroiqtisadi sabitlik Azərbaycanda çox yüksək səviyyədədir. Deməliyəm ki, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Bununla belə, bizim maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, istədiyimiz halda biz xarici borcumuzu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilərik. Ona görə iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. Əgər biz sosial sahənin önəmli istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşübdür. İşsizlik bir sosial problem kimi demək olar ki, aradan götürülür, işsizlik 5 faiz səviyyəsindədir. Nəzərə almalıyıq ki, bu illər ərzində ölkə əhalisi də artır və əhali hər il ən azı 100 min nəfər artır. Ona görə bizim iqtisadi inkişafımız və o cümlədən sosial infrastrukturun yaradılması daimi proses olmalıdır. Biz bu sahədə də çox böyük işlər görmüşük.

Forumda müzakirə olunacaq məsələlərdən biri də təhsillə bağlıdır. Deyə bilərəm ki, təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsi prioritet məsələlərdən biridir. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıbdır. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr vardır.




Ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılıbdır. Son 15 il ərzində 650-dən çox tibb müəssisəsi yenidən qurulub, əsaslı təmir edilib və tikilib. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçir. Yəni, bunlar humanitar sahənin çox önəmli hissələridir və bundan sonra da bu istiqamətlər üzrə ardıcıl siyasət aparılacaq.

Mən idman yarışlarını qeyd etdim. Amma onu da bildirməliyəm ki, idman sahəsində də böyük uğurlar əldə edilib. İdmanın maddi-texniki bazası qurulub. Təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində 45 müasir Olimpiya İdman Mərkəzi yaradılıb. Son Olimpiya Oyunlarında - Rio-de-Janeyroda keçirilmiş Olimpiadada medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülüb.

Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk.

"ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür. Əgər qonaqlarda imkan olarsa, onlar Bakı şəhərində fəaliyyət göstərən beş mərkəzdən birinə baş çəkə bilərlər. Görə bilərlər ki, doğrudan da Azərbaycan texnologiyaları əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan "ASAN xidmət" necə fəaliyyət göstərir. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların "ASAN xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, - çünki qonaqların bir hissəsi ilk dəfədir ki, ölkəmizə gəlib, - sadəcə olaraq, çıxışımın yekununda bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu məsələ həm humanitar əməkdaşlığı dərinləşdirir, həm də qarşılıqlı maraqları təmin edir. Hesab edirəm ki, humanitar əməkdaşlıq deyəndə biz mütləq bunun gözəl nəticələrini görməliyik və bilməliyik ki, bu, nəyə gətirib çıxaracaqdır.

Sonuncu mövzu nəqliyyat siyasətimizlə bağlıdır. Azərbaycanın coğrafi vəziyyəti əlverişlidir, ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyətin heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Ona görə bizim bütün nəqliyyat, enerji, kommunikasiya xətlərimiz başqa ölkələrin ərazisindən keçməlidir. Əlbəttə, qeyd etdiyim kimi, buna nail olmaq üçün mütləq, ilk növbədə, qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri olmalıdır və bunlar da var. Biz bir neçə il bundan əvvəl nəqliyyat sahəsində qarşıya vəzifə qoymuşduq ki, Azərbaycan nəinki bu bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilsin. Bu məqsədə doğru ardıcıl olaraq getməyə başlanmışdır və bu gün tam əminliklə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Ölkəmizdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb, 6 beynəlxalq hava limanı, Azərbaycanı bütün qonşu ölkələrlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları, son 15 ildə salınmış 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200-dən çox gəmisi olan ən böyük ticarət donanması. Yəni, bütün bunlar böyük vəsait tələb edən layihələrdir və onlar həll olunub. Nəhayət, Xəzər dənizinin önəmli, yeni ticarət limanının bu il istifadəyə verilməsi bu işləri tamamlayıb. Bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə bu il bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıbdır. Bu, hələ başlanğıcdır. Bu gün bu önəmli iki istiqamətə digər istiqamətlərdən qoşulma halları müşahidə olunur. Biz bu gün artıq "Cənub-Qərb nəqliyyat dəhlizi"ni təmin edirik və "Şərq-Qərb nəqliyyat dəhlizi" də Azərbaycan ərazisindən keçir. Bütün bu nəqliyyat, infrastruktur layihələrində iştirak edən yeganə ölkə Azərbaycandır. Bu nəqliyyat bağlılığı, eyni zamanda, mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə, bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır. Ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək üçün xüsusilə qonşu ölkələrlə, ənənəvi dost ölkələrlə münasibətlərdə mütləq humanitar sahəyə böyük önəm verilməlidir. Bu olmasa, bütün başqa sahələrdə də problemlər yaşana bilər.

Ona görə, mən bir daha qeyd etmək istəyirəm ki, biz humanitar əməkdaşlığa çox böyük diqqət göstəririk, bir çox təşəbbüslər irəli sürmüşük. Onlardan biri Bakı Beynəlxalq Humanitar Forumudur ki, bu gün öz işinə başlayır. Əminəm ki, aparılacaq diskussiyalar, müzakirələr bizim ümumi işimizə gözəl töhfə verəcəkdir.

Forumun iştirakçılarını bir daha salamlayır və foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

Rusiya Federasiyası Baş nazirinin müavini xanım **Olqa QOLODETS** Prezident Vladimir Putinin forum iştirakçılarına təbrik məktubunu oxudu və çıxış etdi:

- Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım.

İcazə verin, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin foruma təbrik məktubunu oxuyum.

"VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına və qonaqlarına

Hörmətli xanımlar və cənablar.

Bakı Beynəlxalq Humanitar Forumunun açılışı münasibətilə sizi səmimi qəlbdən salamlayıram. Artıq altıncı dəfədir ki, Azərbaycan paytaxtı onlarla ölkədən dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, parlamentarilərin və alimlərin, mədəniyyət xadimlərinin, jurnalistlərin və publisistlərin iştirak etdiyi bu nüfuzlu forumu qəbul edir.

Bu il sizin görüşünüz müasir cəmiyyət üçün çox əhəmiyyətli olan "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusuna həsr edilib. Mövcud təhsil və maarif sistemlərinin təkmilləşdirilməsinə, mədəniyyətin və incəsənətin dəstəklənməsinə, informasiya təhlükəsizliyinin təminatına, intellektual mülkiyyətin müdafiəsinə və digər aktual məsələlərə dair ətraflı diskussiyalar nəzərdə tutulub. Əminəm ki, siz qiymətli peşəkar təcrübənizi və mütərəqqi praktiki yeniliklərinizi mübadilə edəcək, həmçinin qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın yeni perspektivli forma və istiqamətlərini müəyyənləşdirə biləcəksiniz. Forumun iştirakçılarına səmimi qəlbdən uğurlar diləyir və ən xoş arzularımı çatdırıram.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin".

* * *

Çıxışına davam edən **O.Qolodets** dedi:

- Hörmətli qonaqlar, mən öz adımdan da bir neçə söz demək istəyirəm. Mən Bakı Beynəlxalq Humanitar Forumunda ilk dəfə deyil ki, iştirak edirəm və bu gün humanitar forumun necə sürətlə inkişaf etməsi məni heyrətləndirir. Bir neçə il bundan əvvəl bu forumun belə sanballı olacağını güman etmək olmazdı. Bu gün forumda 90-dan çox ölkənin nümayəndələrinin toplaşması və onun sivilizasiya, mədəniyyətlərarası, millətlərarası və dinlərarası münasibətlərin inkişafına dair dünya miqyasında dialoqun tərəqqisi üçün ən əhəmiyyətli məkanlardan birinə çevrilməsi, əlbəttə, ölkə rəhbərliyinin xidmətidir. Forumu dəstəkləmək, onu bu səviyyədə inkişaf etdirmək üçün gündəlik iş aparmaq və cənab Prezidentin indicə dediyi dəyərlərə sadiq olmaq lazımdır.

Biz Azərbaycanla sıx əməkdaşlıq edirik və prezidentlərimiz humanitar inkişaf məqsədlərinə ürəkdən sadiqdirlər. Bu, çox böyük zəhmət deməkdir. Bir sadə misal çəkim. Keçən dəfə buraya gələndə mən adi bir ümumtəhsil məktəbində oldum. Sizə deməliyəm ki, uşaqlara üç dildə dərs keçilən məktəblər dünyada azdır. Uşaqlar və onun valideynləri təhsil dilini seçmək üçün tam imkana malikdirlər və bu halda uşaqlar başqa mədəniyyətlərlə, başqa dillərlə tanış olur, onların bu və ya digər milliyyətə bağlılığı çox güclü inkişaf amilinə çevrilir. Müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin qonşu olmasını güclü quruculuq prosesinə çevirmək çox böyük səy tələb edən ciddi prosesdir. Bu, dünya birliyinin bütün mütərəqqi qüvvələrinin birləşməsini tələb edir. Biz ümid edirik ki, məhz bu forum humanitar əməkdaşlığımızı irəli aparacaq.

Rusiyada müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı fəaliyyəti məsələsi bir nömrəli mövzudur. Bizdə də uşaqlar məktəbə gedəndə Rusiyada yaşayan xalqların 119 dilində dərsliklər yaradılır. Xalqların qarşılıqlı fəaliyyətini quruculuğa çevirmək də çox böyük səy və çox böyük zəhmət tələb edir. Yəqin ki, Bakının faktiki olaraq dünyada humanitar dialoqun həyata keçirildiyi paytaxta çevrilməsi təsadüfi deyil. Biz bu şəhərin hər bir cizgisində ənənələrə böyük hörmət nişanələri görürük. Biz burada muzeylər, tarixi mərkəz və eyni zamanda, bütün yeniliklərə və kreativliklərə açıqlıq görürük. Bu gün bu qədər çoxsaylı müasir memarlıq şedevrləri olan yerlər azdır. Bu, ölkə rəhbərliyinin böyük xidmətidir və eyni zamanda, burada yaşayan və hər gün humanitar inkişaf istiqamətində irəliləyən bütün xalqın xidmətidir.

Humanitar forumun təşkilinə görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu forumun bütün iştirakçılarına uğurlar diləmək və həqiqətən dünya səviyyəli bu əlamətdar hadisə münasibətilə cənab Prezidenti və Mehriban xanımı şəxsən təbrik etmək istəyirəm.

Sağ olun.

* * *

BMT Baş katibinin müavini **Rəşid XALİKOV** çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Xanımlar və cənablar.

İcazə verin, çıxışıma BMT-ni bu tədbirə dəvət etdiyinə görə Azərbaycan Respublikasının Hökumətinə təşəkkürümü bildirməklə başlayım. Mən, həmçinin bu gün burada təmsil etdiyim Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Antonio Quterreşin səmimi salamlarını çatdırmaq istərdim. Cənab Quterreş çox təəssüflənir ki, proqramında olan digər görüşlər səbəbindən bu mühüm forumda iştirak edə bilmir.

Ötən ilin iyul ayında BMT-nin Baş katibinin söylədiyi fikirləri sitat gətirmək istəyirəm: "Fikrimcə, etiraf etmək vacibdir ki, paradoksal vəziyyət yaranıb. Çünki problemlər get-gedə daha qlobal xarakter alır, çağırışlar get-gedə daha qlobal xarakter alır və onların hər hansı ölkə tərəfindən təkbaşına həll edilməsi mümkün deyil. Beləliklə, biz qlobal cavablar axtarırıq. Bizə çoxtərəfli idarəçilik formaları lazımdır. Biz etimadın çatışmazlığı kimi məsələlərin öhdəsindən gəlməyi bacarmalıyıq". BMT-nin Baş katibi, əslində, bu sözləri söyləyərkən çağırışların vacibliyini qeyd edib və bildirib ki, heç kəs diqqətdən kənarda qalmalı deyil.

Biz VI Beynəlxalq Bakı Humanitar Forumuna olduqca mühüm məsələləri müzakirə etmək üçün toplaşmışıq. Hesab edirəm ki, BMT-nin Baş katibi bu missiyanı öz üzərinə götürərək bunun tam yekun nəticəyə qədər aparılmasının təmin edilməsinə çalışacaq. Mən, həmçinin həmin məsələlərin əksər hissəsini əhatə edən bu mühüm forumu təşkil etdiyinə görə Azərbaycan Respublikasının səylərini alqışlamaq istərdim. Humanitar yardım vacib olaraq qalsa da, bizə zəif məqamların, qalan yoxsulluğun və böyük sayda işsizliyin aradan qaldırılmasında daha dayanıqlı, güclü və orta perspektivli yanaşma lazımdır. Şadam ki, həmin məsələlərdən bəziləri bu humanitar forumda müzakirə olunacaq.

Zati-aliləri, xanımlar və cənablar, hörmətli həmkarlar, icazə verin, qısaca olaraq hazırkı humanitar vəziyyətə toxunum. 2018-ci ildə 134 milyon insan qlobal səviyyədə humanitar yardıma ehtiyac duyur. BMT-nin və onun tərəfdaşları böhrana məruz qalmış insanların təxirəsalınmaz həyati tələblərini dəstəkləmək üçün 25,3 milyard ABŞ dolları ayrılmasını xahiş ediblər. Münaqişə humanitar ehtiyacların ən böyük səbəbi olaraq qalır. Əlavə olaraq, qaçqınların sayı artır və onlar daha uzun müddətdə öz doğma ölkələrindən uzaqda qalırlar. Livan, Türkiyə və İordaniya öz əhalisinin sayına nisbətdə böyük sayda qaçqınları qəbul ediblər. Kamerun, Çad, Sudan və Uqanda kimi ən az inkişaf etmiş ölkələrdə 4,9 milyon qaçqın var. Yəni, bu, qlobal qaçqın sayının 28 faizini təşkil edir.

Əfqanıstan, Cənubi Sudan, Somali və başqa ölkələrə gəldikdə, uşaqlar öz həyatları boyu münaqişədən başqa bir şey görməyib. Hər insanın təhlükəsizliyə və müdafiəyə haqqı var. Biz bu hüququn təmin edilməsi üçün əlimizdən gələni etməliyik. BMT-nin Baş katibi hamını beynəlxalq humanitar hüquqa, insan hüquqlarına, mülki əhalinin qorunmasına səsləyir. Həmçinin humanitar yardım işçiləri üçün təhlükəsizlik şəraitlərinin yaradılması da vacibdir. Eyni zamanda, baş katib beynəlxalq ictimaiyyəti məcburi köçkünlüyün qarşısının alınmasına, qaçqın həyatı yaşayan hər kəs üçün dayanıqlı həll variantlarını təmin edərək həm öz ölkəsində, həm də kənarda zorakılıq səbəbindən öz yerlərini tərk etmiş insanların hüquqlarının təmin olunmasına çağırır. Münaqişə ilə üzləşmiş milyonlarla insana, qida, su və təhlükəsiz sığınacaq üçün çarpışan insanlara, qayıtmaq ümidi olmayan, öz evlərini tərk etməyə məcbur olan, məktəbləri bombalanmış insanlara, həyatları xilas etmək üçün tibbi yardım göstərən insanlara diqqətlə yanaşmalıyıq. Biz bütün bunlara göz yuma bilmərik.

Azərbaycanda məcburi köçkünlər üçün dayanıqlı həll yolunun tapılmasında, o cümlədən onların öz evlərinə, doğma yurdlarına qayıtmasında üzləşdiyimiz əsas maneələrdən biri Dağlıq Qarabağ bölgəsində və ətrafında həll olunmamış silahlı münaqişənin siyasi həllinin olmamasıdır. BMT-nin Baş katibi bu yaxınlarda ATƏT-in Minsk qrupunun həmsədrlərinin göstərdiyi mühüm vasitəçi səylərinə tam dəstəyini bir daha vurğuladı və tərəfləri etimadı artırmaq üçün addım atmağa, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün lazımi siyasi iradəni gücləndirməyə səslədi.

Nəinki münaqişələr, eləcə də təbii fəlakətlər insan əziyyətlərini artırır. Bir neçə həftə əvvəl İndoneziya növbəti zəlzələ və sunami ilə üz-üzə qaldı. Nəticədə 2 milyondan çox insan əziyyət çəkdi və onlardan 60 mindən çoxu məcburi köçkünə çevrildi. Əfqanıstanda hazırkı münaqişədən əlavə bu il quraqlıq baş verib və ölkənin üçdə iki hissəsində yaşayan 2 milyon insan qidalanma problemi ilə üzləşir. Haitidə yüzlərlə insan zəlzələnin fəsadları ilə üz-üzə qalıb.

# VI Bakı Beynəlxalq Humanitar Forumu

# dünyaya xilas formulu kimi təqdim etdi: vəhdət təşkil edərsə, heç bir ölkədə problem olmayacaq

Zati-aliləri, xanımlar və cənablar, bu regionda təbii fəlakətlər də baş verir və o, buna həssasdır. Ona görə də vacibdir ki, hazırlıq səviyyəsini təşviq etmək üçün informasiya və təcrübə mübadiləsi aparılsın. Biz BMT olaraq bu regionun ölkələri arasında informasiya mübadiləsinə və imkanların genişləndirilməsinə yardım etməyə hazırıq.

Yekun olaraq, Azərbaycan Respublikasının qlobal səviyyədə humanitar yardım göstərən nəzakətli addımlarını alqışlayıram. Azərbaycan BMT-nin müxtəlif qurumları vasitəsilə qlobal səviyyədə humanitar yardımı milyonlarla dollar səviyyəsində artırıb.

Bununla, mən sözümü bitirirəm, sizin hamınıza uğurlar arzulayıram.

* * *

ISESCO-nun baş direktoru **Əbdüləziz bin Osman əl-TUVEYCRİ** çıxış edərək dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Zati-aliləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

Belə bir mötəbər forumda çıxış etməkdən olduqca məmnunam. Bu tədbirdə bizə dost olan bir çox insanların əyləşdiyini görürəm. Mən Azərbaycan Respublikasının Prezidentinə təşəkkürümü bildirirəm. O, ölkəyə uzaqgörənliklə, müdrikliklə rəhbərlik edir, sülh və təhlükəsizliyi bütün dünyada təşviq edir.

Forumun uğurlu olması onu göstərir ki, bu ölkə problemlərə, ərazi bütövlüyü ilə bağlı çətinliklərə baxmayaraq - mən Dağlıq Qarabağ məsələsini nəzərdə tuturam - irəliyə doğru gedir, inkişaf edir və bütün dünyaya örnək göstərir.

Dünya ədalətli, düzgün olmalıdır ki, bu məsələlərin aradan qaldırılmasına nail olunsun. Bu, həlledici məsələdir, bu məsələlərə səmimi yanaşılmalıdır. Ümumiyyətlə, bir insan digər insanın ərazisini işğal etdiyi halda, siz dünyada sülhə, təhlükəsizliyə nail ola bilməzsiniz. Bu, beynəlxalq hüquqa ziddir, bu, ümumiyyətlə, dinlərə qarşı olan bir addımdır, bütün etikadan və mənəviyyatdan uzaq olan bir addımdır. Bu problemlərin həlli bizdən nəyi tələb edir? Biz beynəlxalq hüququn ruhuna, prinsiplərinə riayət etməliyik. Çünki bu gün dünyada bir çox problemlər və çağırışlar var. Fələstin, Dağlıq Qarabağ, Cəmmu və Kəşmir, Myanma və dünyanın bir çox yerlərində insanlar əzab-əziyyətlə üz-üzədir. Onlar yoxsulluqdan əziyyət çəkirlər, çətinliklərdən keçirlər. Biz bunun şahidiyik və görürük ki, sadəcə, gözəl sözlər söyləmək kifayət deyil, biz dünyanı təhlükəsiz etmək üçün təbii ki, ədaləti təmin etməsək, bu, mümkün deyil. Bu, bizim üçün mühüm bir şərtdir. Bunu etiraf etməliyik və bu istiqamətdə işləməliyik. Forum bu nailiyyətin əldə olunması istiqamətində irəliyə doğru atılan bir addımdır. Düşünürəm ki, məhz iştirakçıların ayırdığı diqqət və onların verəcəyi töhfə əsasında forumun uğuruna nail ola biləcəyik. Müəyyən işlər görə bilərik ki, dünyanın diqqətini bu məsələlərə yönəldək. Çünki insanlıq olmadan gələcək ola bilməz, sülh ola bilməz, ədalət zəfər çala bilməz və əməkdaşlıq baş tuta bilməz. Bu problemlər həll olunmasa, qarşımızda dayanan məqsədlərə çatmaq mümkün olmaz. Buna görə dünyaya üz tutaraq deməliyik ki, biz qardaş və bacılarıq. Mövcud olan problemləri məhz bu yolla həll etməliyik. Çünki milyonlarla insan əziyyət çəkir. Biz buna dözümlülük göstərməli deyilik. Dünya öz səylərini birləşdirməlidir, bu məqsəd üçün hamı səfərbər olunmalıdır ki, dünya daha təhlükəsiz şəkildə inkişaf etsin, ədalət zəfər çalsın və bərabərlilik təmin edilsin. Bütün bu prinsiplər humanitar bir ruhda tətbiq edilməlidir. Sadəcə, bunları söyləmək kifayət deyil, buna görə də biz iş görməliyik.

Biz ISESCO olaraq, öz tərəfdaşlarımızla sıx işləyirik, Avropa Şurası ilə birgə çalışırıq. Bir sıra digər beynəlxalq təsisatlarla iş aparırıq, o cümlədən islam və ərəb dünyasının təşkilatları ilə birgə işləyirik. Biz çox diqqətliyik və fikirlərimizin nədən ibarət olduğunu səmimi şəkildə bildiririk. Biz bəşəriyyətə xidmət edən idealları təşviq edirik. Bizim hamımız dinə etiqad edən insanlarıq. Biz bütöv bir ailə olmalıyıq. BMT-nin Nizamnaməsində də, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də bildirilir ki, insanlar bərabərdir. Quranda da, İncildə də, Tövratda da bildirilir ki, insanlar bərabərdir. Yəni, bizim hamımız bu səma altında eyni və bərabərik. Bizim insan hüquqlarımız da vahiddir. Yəni, biz burada müxtəlif ölçülərdən istifadə edə bilmərik: bu dünya belə olmalıdır, burada ədalət olmalıdır, başqa yerdə isə yox. Ədalət bir olur və bu, bütün hallara tətbiq edilməlidir. Mən burada çıxış etmək üçün mətn hazırlamışdım. Lakin onu oxumuram, sizə səmimi qəlbdən gələn sözlərimi söyləyirəm. Mən bunları öz təcrübəm əsasında deyirəm.

Mən çox yerlərdə olmuşam, çox yerləri gəzmişəm, Afrikada, Asiyada, Latın Amerikasında, həmçinin Avropada milyonlarla insanı səfalət içində görmüşəm. Dünya özü də tam kamil deyil, onun da öz problemləri var. Bizi birləşdirən ruh qardaşlıq ruhu olmalıdır, hamımızın ürəyində insani hisslər var. Biz öz ölkələrimizin gələcəyi üçün çalışmalıyıq. Müəyyən bir yerdə insanların əzab-əziyyət çəkməsinə və öz gələcəklərindən məhrum olmalarına göz yummalı deyilik. Təbii ki, yerlərdə davamlı iş aparılmadan, problemləri həll etmədən sülhü təmin edə bilmərik. Şimalda, Qərbdə, Cənubda milyonlarla insan - müsəlmanlar, xristianlar, bütpərəstlər əzab-əziyyətlə üzləşirlər. Bu forum bilirsiniz ki, dini forum deyil. Baxmayaraq ki, islam sivilizasiyası, Avropa sivilizasiyası, hindu sivilizasiyası var, burada söhbət beynəlxalq sivilizasiyadan gedir və forumun məqsədi bizim hamımızı bir araya gətirməkdən ibarətdir.

Cənab Prezident, mən buna görə Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm ki, bütün dünyaya aydın şəkildə nümunə göstərirsiniz. Bununla bağlı öz biliklərinizi bütün dünya ilə paylaşırsınız. Ziyalıları, media təmsilçilərini, hökumət rəsmilərini, dünyanın 90 ölkəsindən olan nümayəndələri burada bir araya gətirirsiniz. Bakı mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoqun mərkəzinə çevrilib.

Zati-aliləri, diqqətinizə görə çox sağ olun.

* * *

UNESCO-nun baş direktorunun müavini **Çu SİN** çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev!

Zati-aliləri, Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets!

ISESCO-nun baş direktoru cənab Əbdüləziz bin Osman əl-Tuveycri!

BMT Baş katibinin Yaxın Şərq və Mərkəzi Asiya ilə humanitar tərəfdaşlıq üzrə müavini cənab Rəşid Xalikov!

Zati-aliləri, xanımlar və cənablar!

Əvvəla, icazənizlə UNESCO-nun baş direktoru xanım Odre Azulenin adından və öz adımdan VI Bakı Beynəlxalq Humanitar Forumun keçirilməsi münasibətilə sizə ən xoş təbriklərimi çatdırım.

Hamımızın çox minnətdar olduğu zati-aliləri Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan "Bakı Prosesi"nin 10 illik yubileyini qeyd etmək üçün burada olmaq məndə məmnunluq hissi oyadır. Bu proses dünyada olan çağırışlarla üzləşən mədəniyyətlərarası dialoqu dərinləşdirib, o cümlədən daha güclü iqtisadiyyatların və ya daha mütəhərrik təhsil sistemlərinin necə yaradılması və informasiyanın yayılmasını özündə necə birləşdirilməsini ehtiva edən məsələlərə ünvanlanıb. Bu çağırışların hamısı "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" adlandırılan bu forumun mövzusunda əhatə olunub.

Yaradıcılıq həqiqi bəşəriyyətlə təkrar əlaqə yaratmağımız üçün güclü vasitədir. Rəssamlar müştərək paylaşdığımız bəşəriyyətin müxtəlif görüntülərini təqdim edir, insanların seçimlərini genişləndirir və onların təxəyyülündə alternativ gələcəklə bağlı qığılcım yaradır. Yaradıcılıq, eyni zamanda, əsas iqtisadi qüvvədir. Bu gün mədəni və yaradıcı sənayelər böyük iqtisadi faydalar gətirir, 30 milyon insanı işlə təmin edir və bəzi ölkələrdə ÜDM-in 10 faizini təşkil edir. UNESCO mədəni ifadələrin müxtəlifliyini, incəsənət azadlığını və rəssamların sərbəst hərəkətini təbliğ etmək üçün hökumətlərə dəstək göstərir. Qlobal populyasiya daha çox qloballaşdığına görə şəhərlər yaradıcılığın əsas hablarına çevrilir. Məhz buna görə UNESCO-nun yaradıcı şəhərlər şəbəkəsi yaradıcılığı və mədəni sənayeləri yerli səviyyədə inkişaf planlarının mərkəzində yerləşdirir. Hazırda dünyanın 180 şəhəri innovasiya, dizayn, film, qastronomiya, ədəbiyyat, musiqi və media incəsənətini irəli aparır. Azərbaycanın şimal-qərbində yerləşən Şəki şəhəri sənət işləri və incəsənət üzrə UNESCO-nun yaradıcı şəhərinin parlaq nümunəsidir. Bu şəhər gözəl memarlıq, ipəkçilik və ənənəvi sənət işlərinə görə məşhurdur. O, bir vaxtlar Asiya İpək yolunun bir hissəsi idi. Bu gün həmin şəhər çoxlu etnik mənsubiyyəti və yaradıcılığın özəyi kimi mədəniyyətlərarası dialoq ənənəsini davam etdirir.

Mədəniyyət və yaradıcılığın gücü özünü rəqəmsal sahədə də büruzə verir. Hazırda bizi yeni informasiya və mədəni ifadələrdən yalnız bir neçə il ayırır. İnternet özündə qlobal dili təcəssüm etdirən rəqs, teatr, ədəbiyyat, musiqi, filmlər və sairə ilə yeni müzakirələrə yol aça bilər və UNESCO da rəqəmsal dövrdə mədəni müxtəliflik üzrə işlərə rəhbərlik etməklə insanlar arasında maneələri aradan qaldırır. Lakin yaradıcılığın yalnız mədəniyyət sahəsi ilə məhdudlaşdığını düşünmək səhv olardı. Yaradıcı düşüncə və innovasiya bütün insan fəaliyyətlərinin başlanğıcını qoyur. Bir çox böyük çağırışların öhdəsindən gəlmək üçün bizə elm, texnologiya, mühəndislik və riyaziyyat da lazımdır. SUN layihəsinin direktorunun da qeyd etdiyi kimi, elm və incəsənət bir-birinin əksi deyil, hər ikisi bəşəriyyətin kreativliyinin ən yüksək nöqtələrini təmsil edir. İqlim dəyişikliyi dövrümüzün əsas dəyişikliklərinə səbəb olur. Süni intellektin kəşfi dünyanı dəyişdirir və bir sıra işlərə ehtiyacı aradan qaldırır, lakin yeni imkanlar, o cümlədən iqtisadi imkanlar yaradır. Biz yeni dünyaya, sadəcə, adaptasiya olmamalı, həm də fəal şəkildə iştirak etmək üçün bütün imkanlarımızı səfərbər etməliyik. Bu səbəbdən də XXI əsrin kadr inkişafı istiqamətində tələblərinə hələ də tam cavab verməyən təhsil sistemlərimizdə ciddi dəyişikliklər etməliyik. Mövcud tədris prosesindəki problemləri təcili olaraq həll etməliyik. Dünyada 670 milyon uşaq və gənc qiraət və riyaziyyat üzrə minimal bacarıq tələblərinə cavab vermir. Qadınların və qızların, xüsusilə elm sahəsində bərabər imkanlara malik olmasını təmin etməliyik. Tənqidi düşünmə, problem həlli, komandada işləmə bacarıqlarını inkişaf etdirməliyik.

Təhsil, eyni zamanda, qlobal vətəndaşlığın öndə olan dəyərlərindən biridir. Davamlı inkişaf, insan hüquqları və qarşılıqlı anlaşma, mürəkkəb dünyanı anlamaq, dünyanın kompleks informasiya və kommunikasiya sahəsində hərəkət etmək üçün vacib komponentlərdir. Böyük bir təhlükə var - internet tolerant olmayan gənclər arasında yanlış informasiyanın yayılması üçün bir vasitə ola bilər. Digər təhlükə isə həddən çox tədbirlərdən istifadə edərək cəmiyyətlərin effektiv fəaliyyəti üçün vacib olan azadlığın və imkanların məhdudlaşdırılmasıdır. Bunun əvəzinə, ötən il UNESCO-nun nəzarəti altında işçi qrupun hazırladığı hesabata uyğun olaraq, diqqəti rəqəmsal savadlılıq və vətəndaşlığın təbliğ edilməsinə yönəltməliyik. Media və informasiya savadlılığı vətəndaşların informasiyanın nə olması və kim tərəfindən yayılmasına daha tənqidi yanaşmasını təmin etmək üçün çox əhəmiyyətlidir. UNESCO bu məsələ üzrə aparıcı təşkilatlardan biridir və təhsil kurrikulumunu işə salıb, üzv ölkələr bu istiqamətdə dərslər hazırlayıb, onlayn kurslar, layihələr və araşdırmalar təşkil edirlər. UNESCO və BMT-nin sivilizasiyalar ittifaqı illik qlobal media və informasiya savadlılığı həftəsi oktyabrın 24-də başladı. Proqram çərçivəsində dünya üzrə bir sıra tədbirlər təşkil olunacaq.

Xanımlar və cənablar, İkinci Dünya müharibəsindən sonra Eynşteyn bir çıxışında belə demişdi: "Düşünmə modelindən başqa hər şeyi dəyişdik". Bu gün düşünmə modelimizi daha kreativ, insan inkişafına daha yönümlü bir istiqamətdə dəyişmək üçün real imkanımız var. Bütün üzv ölkələrin üzərində işlədiyi BMT-nin davamlı inkişaf proqramı daha dərin, daha geniş mədəniyyətlərarası dialoqa əsaslanan kollektiv həllər tapmağa istiqamətlənib. UNESCO da üzv ölkələri mədəniyyət, təhsil, elm və kommunikasiya sahəsində dəstəkləməkdə davam edir. Bu nəslin daha təhlükəsiz, daha sülh dolu, daha firavan və daha davamlı yeni bir dünya yaratmaq imkanı var. Ümid edirəm ki, "Bakı Prosesi"nin yeni ilində müzakirələr bu mövzu ətrafında da olacaq.

Sağ olun.

* * *

Parlamentlərarası İttifaqın prezidenti xanım **Qabriela BARON** çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident İlham Əliyev!

Hörmətli tədbir iştirakçıları, milli parlamentlərin ümumdünya təşkilatı olan Parlamentlərarası İttifaqın sədri və meksikalı parlamentari kimi VI Bakı Beynəlxalq Humanitar Forumunda çıxış etməkdən çox şadam. Biz bu gün buraya beynəlxalq aləmin, eləcə də bəşəriyyətin bir sıra qlobal çağırışlarla üzləşdiyi vaxtda toplaşmışıq. Oslo Sülh Tədqiqatları Mərkəzinin rəyinə görə, 2017-ci il soyuq müharibə bitdikdən sonra ən zorakı illərdən biri olub. Həmin ildə dövlətlər arasında 49 həll olunmamış münaqişə və 82 fəal mərhələdə olan qeyri-dövlət münaqişəsi qeydə alınıb. Həmin münaqişələrin, o cümlədən bütün dünyada artan ekoloji böhranın nəticəsi olaraq dünya miqyasında məcburi köçkünlərin sayı 2017-ci ilin sonuna 68,5 milyon insana çatıb. Bununla yanaşı, qlobal iqtisadiyyatın mövcud vəziyyəti qlobal istehsal və istehsal proseslər ilə birgə artıq dözülməz vəziyyət yaradıb və hazırda il ərzində istifadə olunan təbii resursların həcminə cavab vermək üçün artıq bizə indikindən 1,7 dəfə böyük Yer kürəsi lazımdır.

Bundan əlavə, texnogen fəaliyyətin ətraf mühitə təsiri planetimiz üçün ağır təbii fəsadlar törədir və hazırda BMT gələcək illərdə qlobal istiləşmənin 1,5 selsi dərəcəsində saxlanılması üçün beynəlxalq öhdəliklərin olmasına çalışır. Biz həmçinin texnoloji tərəqqinin daim dəyişən mahiyyətinin yaratdığı çağırışlarla üzləşirik və nəticədə avtomatlaşdırılmanın artması iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına üzv ölkələrində iş yerlərinin ən azı 14 faizini sual altında qoyur. Bu cür dəyişkən zamanda bəşəriyyət yol ayrıcında qalır və əgər biz planetimizin getdiyi istiqaməti dəyişmək istəyiriksə, orada innovasiya, əməkdaşlıq, yaradıcı yanaşma və çoxtərəflilik fundamental əhəmiyyət daşımalıdır. Məhz həmin mürəkkəb çağırışlar səbəbindən mən Azərbaycanın və bu tədbir təşkilatçılarının göstərdiyi səyləri alqışlayıram. Beynəlxalq humanitar forumun müzakirələri yaradıcı yanaşma və insan inkişafına əsaslanan yeni dünyanın formalaşdırılması mövzusuna həsr olunub. Aydındır ki, əgər biz dünyamızın tələb etdiyi təcili dəyişikliklərə nail olmaq istəyiriksə, bu elementlər olduqca dəyərlidir. Hamımızın bildiyi kimi, geniş ilhamverici və olduqca zəruri olan Dayanıqlı İnkişaf Məqsədlərinə və 2030-cu ilədək olan gündəliyə nail olmaq üçün dünyanın cəmi 12 ili qalır. Parlament üzvü və təşkilat sədri kimi, biz milli reallıqlar arasında körpü salmağa çalışırıq və bir çox hallarda bu addım uzaq məsafəli çoxtərəflilik kimi qələmə verilir. Bununla belə, qeyd etməliyəm ki, hazırda dünya heç vaxt görünmədiyi qədər güclü, çoxtərəfli əməkdaşlığa və tərəfdaşlığa ehtiyac duyur. Bizim üzləşdiyimiz çağırışlara gəlincə, həll variantlarını tapmaq üçün qarşılıqlı əlaqələri və fəaliyyəti müəyyənləşdirməliyik.

Məmnunluqla qeyd edirəm ki, forumdakı müzakirələr zamanı çoxtərəfli müttəfiqlik və tərəfdaşlığa zərurət artıq etiraf edilir. Bir çox hallarda qeyd olunur ki, 2030-cu il üçün gündəliyin ən mürəkkəb məsələlərindən biri 17-ci Dayanıqlı İnkişaf Məqsədinə nail olmaqdır. Çoxtərəfli əməkdaşlığa gəldikdə spektiv yanaşmanı açıq şəkildə sərgiləyən bir sıra ölkələrin proteksionizmə və populist ritorikaya sığındığı zaman bu tərəfdaşlığın qurulması, əslində, çətin proses olar. Bununla belə, beynəlxalq təşəbbüslərə tərəddüd və tənqidlə yanaşıldığı dövrdə biz çoxtərəfliliyi müdafiə etməli və dəstəkləməliyik, çünki birgə fəaliyyət dünyamızın problemlərinin həllinə aparan yeganə yoldur. Olduqca vacibdir ki, tərəfdaşlıq nəinki parlament çərçivəsində, o cümlədən milli hökumətlər arasında olmalıdır və biz bu prosesə özəl sektoru və vətəndaş cəmiyyətini də qoşmalıyıq. Buna nail olmaq üçün üçtərəfli əməkdaşlıq fundamentaldır və bütün təbəqələr arasında etimadın qurulmasında xüsusi əhəmiyyət kəsb edir. Biz hamımız bu məqsədi qarşımıza qoyub bərabərliyə, düzgünlüyə, əməkdaşlığa nail olmalıyıq. Gələcək illərdə bizim qarşımızda duran məqsəd, mən Dayanıqlı İnkişaf Məqsədlərini də nəzərdə tuturam, öz resurslarımızı yerli səviyyədə səfərbər edərək imkanlarımızı genişləndirməkdir. Bunun nəticəsində əldə olunacaq 5-7 trilyon dollar Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına sərf edilməlidir. Bu baxımdan milli parlamentlərin və bizim Parlamentlərarası İttifaqın oynadığı rol çox mühümdür. Bizim bununla bağlı qarşımızda qoyduğumuz məram müvafiq dövlət siyasətinin formalaşdırılmasına yönəldilməli, 2030-cu ilə nəzərdə tutulan gündəlik həyata keçirilməlidir. Biz parlament olaraq bu məsuliyyəti öz üzərimizə götürürük və effektiv olaraq milli resursların cəmlənməsinə çalışmalıyıq.

Təbii ki, dünyada mədəniyyətlərarası dialoqun da inkişaf etdirilməsi çox vacibdir. Çünki Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün trilyonlarla dollar lazım gəlir və bu, maliyyə boşluğunun aradan qaldırılması bütün ölkələrə, cəmiyyətin bütün təbəqələrinə aiddir və bu, hamımızı narahat etməlidir. Buna görə də biz çoxtərəfliliyi qorumalıyıq.

Hörmətli həmkarlar, bu gün bəşəriyyətin çox çətin zamanda üzləşdiyi çağırışlar mürəkkəbdir və bizim dünya həm iqtisadi və sosial baxımdan diqqətlə davranmalıdır, əməkdaşlığımız güclü və geniş olmalıdır. Biz bir-birimizlə rəqabət aparmalı deyilik. Hər hansı bir həll variantının olmaması, yaradıcı yanaşmanın tətbiq edilməməsi heç nəyə gətirib çıxara bilməz. Hesab edirəm ki, məhz yaradıcı yanaşma və innovasiya bizə nəinki bu mərhələni keçməyə, həmçinin əlimizdə olan enerjini daha da artırmağa imkan yaradacaq. Çoxtərəflilik bu gün informasiyanın çatışmazlığı səbəbindən əziyyət çəkir. Populizmin və milli maraqların xüsusi olaraq nümayiş etdirildiyi bir vaxtda ümidvaram ki, bu forumun bütün iştirakçıları açıq şəkildə yeni imkanları müzakirə edəcəklər, çoxtərəfliliyi yenidən canlandıracaqlar, innovativ həll yollarını irəli sürəcəklər, tərəfdaşlıq quracaqlar. Təbii ki, biz bütün bunları beynəlxalq hüququn prinsiplərinə uyğun etməliyik. Çoxtərəflilik, əslində, dünyamızın dəyişilməsi üçün özündə bir çox davranışı və fəaliyyəti ehtiva edir. Biz yeni yollar araşdırmalıyıq ki, bunun vasitəsilə çoxtərəfliliyin təsirini ölçə bilək, onu anlayaq və bunu milli və yerli səviyyədə həyata keçirək. Əgər biz bu təsirin ölçülməsinə nail olarıqsa, əminəm ki, dünyamızı dəyişə biləcəyik. Dünyamızın dəyişilməsi üçün biz öz icmamızdan başlamalıyıq və bu, yeganə yoldur.

Mən hamınıza müraciət edərək demək istəyirəm ki, forumun əsas məqsədlərindən biri məhz çoxtərəfliliyə nail olmaqdır. Biz humanist prinsiplərə əsaslanan icmanı qurmalıyıq, o, insan həyatlarını xilas edə bilər, insanların əzab-əziyyətlərini aradan qaldıra bilər, insan ləyaqətini saxlaya bilər və dəyişən dünyanın insana təsirini azalda bilər. Biz belə dəyişkən bir vaxtda bəşəriyyəti daha da təkmilləşdirmək üçün nə etməliyik? İnanıram ki, forum bu və bir çox digər suallara yeni cavablar tapacaq. Sağ olun.

* * *

Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatdı.

Açılış çıxışlarından sonra forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.













# VI Bakı Beynəlxalq Humanitar Forumu

## Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlıq həyata keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də BMT baş katibinin müavini Rəşid Xalikovu qəbul edib.



AZƏRTAC xəbər verir ki, BMT-nin baş katibi Antonio Quterreşin salamlarını və xoş arzularını dövlət başçısı İlham Əliyevə çatdıran Rəşid Xalikov Bakı Humanitar Forumunun əhəmiyyətindən bəhs etdi, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfələrindən danışdı.

Prezident İlham Əliyev BMT baş katibinin müavini Rəşid Xalikovun forumda iştirakına və çıxışına görə minnətdarlığını bildirdi. Dövlət başçısı İlham Əliyev Rəşid Xalikovun forumda iştirakının və çıxışının BMT-nin bu tədbirə böyük önəm verməsinin göstəricisi olduğunu vurğuladı. Azərbaycan Prezidenti baş katib Antonio Quterreş ilə ötən il BMT Baş Assambleyası çərçivəsində görüşünü məmnunluqla xatırladı.

Dövlət başçısı BMT baş katibinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Antonio Quterreşə çatdırılmasını xahiş etdi.

Görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Bakı Forumu dünyada humanitar əlaqələrin inkişafına xidmət edir

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə VI Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfə verdiyi qeyd edildi.

Prezident İlham Əliyev Anatoli Torkunovun forumda iştirakından məmnunluğunu bildirdi.

Rektor Anatoli Torkunov forumun dünyada humanitar əlaqələrin inkişafına töhfəsini vurğulayaraq ölkəmizə xoş duyğularla gəldiyini və bu mötəbər tədbirdə iştirak etdiyini dedi.

## *Çu SİN:* "Azərbaycan mədəniyyətlərarası dialoqla bağlı tədbirlərin keçirilməsi üçün nümunəvi məkandır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də UNESCO-nun baş direktorunun müavini Çu Sini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı UNESCO-nun baş direktorunun müavini Çu Sinin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və bunu Azərbaycan - UNESCO əməkdaşlığının yaxşı nümunəsi kimi dəyərləndirdi. Azərbaycan ilə UNESCO əlaqələrinin güclü tərəfdaşlığa və zəngin tarixə malik olduğunu qeyd edən dövlət başçısı uğurlu əməkdaşlığımızın davam etməsindən məmnunluğunu bildirdi. Azərbaycanın UNESCO-nun etibarlı tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan tərəfi ötən illər ərzində ölkəmizin tarixi, mədəni abidələrinin, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan tarixi yerlərin ümumbəşəri dəyərlərə çevrilməsi işində UNESCO-nun fəaliyyətini yüksək qiymətləndirir. Dövlət başçısı bildirdi ki, bütün bunlar ölkəmizin bu təşkilatla uğurlu əməkdaşlığının bariz nümunəsidir. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın tarixi və mədəniyyəti barədə məlumatların dünyaya yayılması ilə bağlı UNESCO tərəfindən görülən işlərə görə minnətdarlığını bildirdi.

Çu Sin, ilk növbədə, UNESCO-nun baş direktoru xanım Odri Azulenin salamlarını dövlətimizin başçısına çatdırdı. O, VI Bakı Beynəlxalq Humanitar Forumunun böyük əhəmiyyət daşıdığını qeyd etdi və bildirdi ki, Azərbaycan mədəniyyətlərarası dialoqla bağlı bu cür tədbirlərin keçirilməsi üçün nümunəvi bir məkandır. Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində mühüm nöqtədə yerləşdiyini vurğulayan Çu Sin bu tədbirin Bakıda keçirilməsini önəmli bir hadisə kimi dəyərləndirdi. Qonaq bildirdi ki, UNESCO Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirir və Azərbaycan dinamik fəaliyyəti ilə bu təşkilatın işinə böyük töhfə verir. Çu Sini, eyni zamanda, gələn il Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin konfransının da keçiriləcəyini qeyd edərək bu tədbirin də önəm daşıdığını bildirdi.

Prezident İlham Əliyev UNESCO-nun baş direktorunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını xanım Odri Azuleyə çatdırmağı xahiş etdi.

## *Olqa QOLODETS:* "Azərbaycan və Rusiya tolerantlıq mühitinə görə dünyaya nümunədir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Rusiya Prezidenti Vladimir Putinin VI Bakı Beynəlxalq Humanitar Forumuna göndərdiyi təbrik məktubuna görə minnətdarlığını bildirdi və orada qeyd olunan fikirlərin önəmini vurğuladı. Prezident İlham Əliyev Rusiyanın bu tədbirdə belə geniş tərkibdə təmsil olunmasından məmnunluğunu ifadə etdi.

Dövlət başçısı bildirdi ki, Rusiya Prezidenti ilə son görüşləri zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən bu forumla bağlı məsələlər də müzakirə olundu və əməkdaşlığımızın bütün istiqamətlərdə, eləcə də humanitar sahədə inkişafından məmnunluq ifadə edildi. Dövlət başçısı qeyd etdi ki, qonşu və dost ölkələr olan Azərbaycan ilə Rusiyanın bu sahədə əlaqələri nümunəvi xarakter daşıyır və humanitar əməkdaşlıq məsələsi demək olar ki, dövlət başçıları arasında keçirilən bütün görüşlərin gündəliyində durur. Prezident İlham Əliyev bildirdi ki, siyasi sahədə əlaqələr də uğurla inkişaf edir. Bu baxımdan dövlət başçısı bir aydan az bir müddətdə özünün Rusiyaya rəsmi səfəri və Vladimir Putinin də Azərbaycana səfərinin həyata keçirilməsinin əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd etdi.

Forumun bir daha ölkələrimiz arasında yaxın əlaqələrin mövcud olduğunu nümayiş etdirdiyini deyən Prezident İlham Əliyev bu tədbirdə demək olar ki, dünya birliyinin yarısının təmsil olunmasını foruma olan böyük diqqətin təzahürü kimi qiymətləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets ölkəmizin, şəxsən Prezident İlham Əliyevin humanitar foruma göstərdiyi bu cür diqqətə görə minnətdarlığını bildirdi. Bu tədbirin iki ölkənin dövlət başçıları tərəfindən irəli sürülmüş təşəbbüs olduğunu vurğulayan qonaq forumdan-foruma iştirakçıların sayının artdığını və gündəliyin daha da genişləndiyini vurğuladı. O qeyd etdi ki, bu forumda müzakirə olunan məsələlərin gündəlik həyatda reallaşması böyük önəm daşıyır.

Daha sonra xanım Olqa Qolodets vurğuladı ki, həm Azərbaycan, həm də Rusiya davamlı olaraq tolerantlıq siyasətinin həyata keçirilməsi və milli mədəniyyətlərin vəhdət şəklində inkişaf etdirilməsi baxımından dünyaya bir nümunədirlər. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək forumun humanitar sahədə əməkdaşlıq işinə böyük töhfə verdiyini bildirdi.

## *Əbdüləziz bin Osman əl-TUVEYCRİ:* "Bakı Humanitar Forumu çox gözəl və səmərəli nəticələri olan platformadır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ISESCO-nun baş direktoruna forumda iştirakına və məzmunlu çıxışına görə təşəkkür etdi.

Əbdüləziz bin Osman əl-Tuveycri Bakı Humanitar Forumunun beynəlxalq əhəmiyyətindən bəhs edərək bildirdi ki, bu forum çox gözəl və səmərəli nəticələri olan platformadır.

Görüşdə Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlığın qurulduğu qeyd edildi, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Prezident İlham Əliyev ISESCO-nun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə davamlı dəstəyinə görə minnətdarlığını bildirdi. Əbdüləziz bin Osman əl-Tuveycri Azərbaycanın ISESCO-nun baş konfransına rəhbərlik etdiyi 3 ilə dair baş direktorun hesabatı barədə dövlətimizin başçısına məlumat verdi. Bildirdi ki, ölkəmizin qurumun baş konfransına rəhbərlik etdiyi dövrdə həyata keçirilən uğurlu işlər bu hesabatda əksini tapıb.

## Parlamentlərarası İttifaq Azərbaycanın təşəbbüslərini yüksək qiymətləndirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronu qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xanım Qabriela Barona VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına və orada çıxışına görə minnətdarlığını bildirdi.

Xanım Qabriela Baron bu tədbirə dəvət olunduğuna görə təşəkkür edərək Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O qeyd etdi ki, bu tədbirdə Meksika parlamentinin deputatı olması ilə yanaşı, Parlamentlərarası İttifaqın prezidenti qismində də iştirak etməsi onun üçün böyük önəm daşıyır. Belə ki, bu təşkilat bu ilin dekabrında Azərbaycanda Gənc Parlamentarilərin V Qlobal Konfransının keçirilməsini planlaşdırır. Xanım Qabriela Baron Azərbaycanın bu mühüm tədbirə də evsahibliyi etməsinə görə minnətdarlığını bildirdi və bunu çox yaxşı təşəbbüs kimi dəyərləndirdi. Söhbət zamanı Bakıda keçirilən forumun ölkələr və xalqlar arasında əlaqələrin, eləcə də parlamentlərarası əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı.

# VI Bakı Beynəlxalq Humanitar Forumu

## Azərbaycan ilə Sloveniya arasında əlaqələr uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanı qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkaya VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və onun səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Sloveniya Milli Şurasının sədri Aloyz Kovşka ölkələrimiz arasında hələ keçmişdən çox yaxşı əlaqələrin mövcud olduğunu dedi və bildirdi ki, bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün imkanlar var. O, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq doğuran sahələrin müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldığını və gələcəkdə bu istiqamətdə işlərin görüləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlət başçısı, öz növbəsində, Azərbaycan ilə Sloveniya arasında əlaqələrin uğurla inkişaf etdiyini dedi, əlaqələrimizin inkişafında prezidentlər səviyyəsində qarşılıqlı rəsmi səfərlərin önəmini qeyd etdi və özünün Sloveniyaya rəsmi səfərini məmnunluqla xatırladı. İkitərəfli əlaqələrimizin daha da genişləndirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq sahələrinin müəyyənləşdirilməsinin əhəmiyyətinə toxundu və bu baxımdan qarşılıqlı ticarətin səviyyəsinin artırılmasının vacibliyini dedi. Dövlət başçısı qeyd etdi ki, hər iki ölkədən olan şirkətlər Azərbaycan ilə Sloveniya arasındakı mövcud yaxşı siyasi mühitdən faydalanaraq öz fəaliyyətlərini daha da genişləndirə bilərlər.

Sloveniyada səfərdə olarkən orada Mehdi Hüseynzadənin memorialını ziyarət etdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında humanitar əməkdaşlığın və eləcə də çox mühüm əhəmiyyət daşıyan turizmin inkişaf etdirilməsi üçün də yaxşı perspektivlərin olduğunu bildirdi.

## Uruqvayın forumda yüksək səviyyədə təmsil olunması qarşılıqlı əməkdaşlığın təzahürüdür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandinini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməsindən məmnunluğunu ifadə etdi və bildirdi ki, onun bu tədbirdə iştirakı Uruqvayın həm foruma verdiyi dəstəyin əlamətidir, həm də ikitərəfli münasibətlərimizin inkişafına olan marağının göstəricisidir. Prezident İlham Əliyev Uruqvayın forumda yüksək səviyyədə təmsil olunmasını əməkdaşlığımızın gözəl təzahürü kimi qiymətləndirdi. Dövlət başçısı bildirdi ki, ölkələrimizi bir-birinə dostluq əlaqələri bağlayır, yüksək səviyyəli qarşılıqlı səfərlər bu əlaqələri daha da gücləndirir. Azərbaycan xarici işlər nazirinin Uruqvaya səfər etdiyini qeyd edən Prezident İlham Əliyev bu səfərlərin əməkdaşlığın gələcəyi ilə bağlı fikir mübadiləsi aparmaq üçün böyük əhəmiyyət daşıdığını dedi. Qarşılıqlı səfərlərin əməkdaşlığımızın gələcəyinin müəyyənləşdirilməsi baxımından böyük önəm daşıdığını vurğulayan dövlət başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin ölkəmizə bu səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş fikir mübadiləsinin aparılacağına əminliyini bildirdi.

Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini VI Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə dövlət başçısına minnətdarlıq etdi. O, forumun uzun illərdir ki, mütəmadi olaraq yüksək səviyyədə keçirildiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Öz növbəsində, qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Xorxe Qandini bu cür səfərlərin əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparmaq üçün geniş imkanlar yaratdığını vurğuladı.

## Avstriya Respublikasının Federal Prezidenti zati-aliləri cənab Aleksander Van der Bellenə

Hörmətli cənab Federal Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2018-ci il*

## "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası"nın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. 2016-cı il 3 iyul tarixində Sen-Deni şəhərində imzalanmış "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası" Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

2. "İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyasına qoşulmaq barədə" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 732-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 616) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər müsbət qiymətləndirilib

Oktyabrın 25-də Dayanıqlı İnkişafa dair Bakı Forumu çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT baş katibinin müavini Rəşid Xalikov və BMT-nin İnkişaf Proqramının Avropa və MDB regional bürosunun direktor müavini Rastislav Vrbenski ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşlərdə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər müsbət qiymətləndirilib, bu sahədə gələcək əməkdaşlığa və həyata keçiriləcək tədbirlərə dair fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini Əli Əhmədovun Sudan Federal Hökumət Palatasının naziri Hamid Muhammed Elnar Ahmed ilə görüşündə isə hökumətlərarası əlaqələrin genişləndirilməsi, Dayanıqlı İnkişaf Məqsədləri üzrə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığa dair müzakirələr aparılıb.



## Münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkanlar var

Oktyabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov paytaxtımızda təşkil edilən "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda foruma qatılan Xorxe Qandininin bu tədbirdə iştirakının ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Bakı forumunun artıq ənənəyə çevrildiyini vurğulayan Baş nazir ölkəmizin bir çox yüksək səviyyəli beynəlxalq tədbirlərə evsahibliyi etdiyini söylədi.

Azərbaycan ilə Uruqvay arasında müxtəlif sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu deyən Novruz Məmmədov hər iki ölkənin iqtisadi, siyasi və mədəni sahələrdə əlaqələrinin daha da genişləndirilməsi imkanları barədə danışdı.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verən Baş nazir problemin ancaq beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinin mümkün olduğunu nəzərə çatdırdı.

Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini Bakıda keçirilən forumda iştirak etmək üçün dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirdi. Qonaq regionun inkişaf edən ölkələrindən olan Azərbaycanda, qədimliklə müasirliyin vəhdətini özündə birləşdirən paytaxtımızda olmasından məmnunluğunu ifadə etdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## *Baş nazirin müavini Riçard RAŞE:*

## "Slovakiya Azərbaycanla əməkdaşlıqda maraqlıdır"

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Baş nazirinin investisiya və informasiyalaşdırma üzrə müavini Riçard Raşenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasındakı mövcud iqtisadi əlaqələr və əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan-Slovakiya əlaqələrinin inkişaf etdiyini qeyd edən Baş nazirin müavini Əli Əhmədov hazırda ölkələrimizin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji, ticarət, investisiya qoyuluşu sahələrində əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində böyük potensialın olduğunu qeyd edib.

Slovakiya Baş nazirinin müavini Riçard Raşe foruma aldığı dəvətə görə təşəkkürünü bildirib. O, Azərbaycanda sürətli inkişafın şahidi olduğunu diqqətə çatdıraraq ikitərəfli əlaqələrin daha da genişlənməsi üçün ölkələrimizin potensialını vurğulayıb. Qonaq ölkəsinin xüsusilə turizm, informasiyalaşdırma və investisiya qoyuluşu sahələrində Azərbaycanla əməkdaşlığa maraq göstərdiyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın beynəlxalq münasibətlər sistemində gücü və rolu artır

Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forumda iştirak etmək üçün Azərbaycana səfər edən Uruqvay Şərq Respublikası Baş Assambleyasının Nümayəndələr Palatasının sərdi Xorxe Qandini dünən Milli Məclisdə olub.





Parlamentin Sədri Oqtay Əsədovla keçirilən görüşdə Azərbaycan və Uruqvay arasındakı münasibətlər və mövcud əlaqələrin daha da dərinləşdirilməsi müzakirə mövzusu olub. Oqtay Əsədov bildirib ki, ölkələrimiz arasında əlaqələr son illərdə inkişaf etməkdədir. Bunu Uruqvayın 3 parlament sədrinin Azərbaycana səfər etməsi də təsdiqləyir. Bu səfərin hər iki ölkənin parlamentlərarası əlaqələrinə mühüm töhfə verəcəyini söyləyən spiker qeyd edib ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən ölkəmizi dəstəkləyənlərdən biri də Uruqvay olub.

Sədr həmçinin ticari münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb. Qeyd edib ki, son 8 ayda iki ölkə arasında ticarət dövriyyəsi 81 milyon dollara yüksəlib. Bu da təsdiq edir ki, əvvəlki illərə nisbətən ticari əlaqələr inkişaf etməkdədir. Ancaq bu əlaqələr daha da genişləndirilə bilər: "Bütün bunların həyata keçirilməsi üçün Azərbaycanda Uruqvayın nümayəndəliyinin açılması lazımdır. Azərbaycan 2014-cü ildə özünün nümyəndəliyini açıb. Bu nümayəndəlik açılarsa, əsasən də kənd təsərrüfatı məhsulları istiqamətində ticari münasibətlər daha da inkişaf edə bilər. Azərbaycan Şərqlə Qərb arasında körpüdür. Uruqvay nəinki Azərbaycanla, hətta bizim vasitəmizlə Rusiya və Orta Asiya ölkələri ilə ticari münasibətlərini inkişaf etdirə bilər".

Oqtay Əsədovun sözlərinə görə, Uruqvay kənd təsərrüfatı məhsulları içərisində ən çox istehsal etdiyi düyünü İran İslam Respublikasına ixrac edir. Azərbaycan isə Uruqvay düyüsünü İrandan alır. Əgər iqtisadi əlaqələr daha da inkişaf etdirilərsə, bu, iki ölkə arasında idxal-ixrac münasibətlərinə də müsbət təsir edər.

Özünü Azərbaycanın dostu hesab edən Xorxe Qandini isə bildirib ki, hər zaman ölkəsi Azərbaycanla münasibətlərinin inkişafında maraqlı olub. Bu səfərdə məqsəd həm forumda iştirak etmək, həm də iki ölkə arasında mövcud əlaqələrin daha da dərinləşməsi, genişləndirilməsi ilə bağlı müzakirələr aparmaqdır.

Onun fikrincə, Uruqvay Azərbaycanı bölgə üçün giriş qapısı hesab edir və bütün sahələrdə əlaqələrin inkişafında maraqlıdır. Bununla yanaşı, son illərdə Azərbaycanın regionda həyata keçirdiyi transmilli layihələr, eləcə də iştirakçısı olduğu layihələr ölkənin beynəlxalq münasibətlər sistemindəki rolunu və çəkisini artırır. Onun bu səfəri isə münasibətlərin daha da möhkəmlənməsinə və ticari əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək.

* * *

Dünən Milli Məclisin Sədri Oqtay Əsədov VI Beynəlxalq Humanitar Forumda iştirak edən Rusiya Federasiyası Dövlət Duması sədrinin müavini Sergey Neverovla da görüşüb.

Son illərdə Azərbaycan-Rusiya münasibətlərinin bütün sahələrdə inkişaf etdiyini söyləyən sədr vurğulayıb ki, bunun ən başlıca səbəblərindən biri hər iki ölkənin dövlət başçıları arasında olan səmimi dostluq əlaqələridir. Qonşu və dost ölkələr olan Azərbaycanla Rusiyanın siyasi-iqtisadi əlaqələri nümunəvi xarakter daşıyır və humanitar əməkdaşlıq məsələsi, demək olar ki, dövlət başçıları arasında keçirilən bütün görüşlərin gündəliyində durur.

Spiker qeyd edib ki, 2010-cu ildən təşkil olunan Beynəlxalq Humanitar Forumun da təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Bu dəfə isə "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" mövzusunda keçirilən VI Beynəlxalq Humanitar Foruma 86 ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndə qatılıb. Forumun bir daha iki ölkə arasında yaxın əlaqələrin mövcud olduğunu nümayiş etdirdiyini deyən Oqtay Əsədov tədbirdə dünya birliyinin yarısının təmsil olunmasını foruma olan böyük diqqətin təzahürü kimi qiymətləndirib.

Dövlət Duması sədrinin müavini Sergey Neverov isə bildirib ki, son illərdə hər iki ölkənin dövlət başçıları arasında tez-tez keçirilən görüşlər əlaqələrin hərtərəfli inkişafına mühüm töhfə verir. Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır və iqtisadi əlaqələr getdikcə daha da genişlənir.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

VI Bakı Beynəlxalq Humanitar Forumu

# VI Bakı Beynəlxalq Humanitar Forumu işini plenar və işçi sessiyalarla davam etdirib

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda VI Bakı Beynəlxalq Humanitar Forumu açılış mərasimindən sonra işini plenar və işçi sessiyalarla davam etdirib.






AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin iştirak etdiyi "Təhsil və elm insan kapitalının inkişafı kontekstində" mövzusunda birinci plenar sessiyada ən yaxşı təhsil sistemlərinin müxtəlif zamanlar üçün hazırlandığı nəzərə alınmaqla pedaqogikada müasir dövr üçün zəruri olan dəyişiklikləri sürətləndirmək, əmək bazarında iş tapmaq məqsədilə daha hazırlıqlı olmağa kömək edə biləcək işləri necə proqnozlaşdırmaq, təhsili sülh naminə necə səfərbər etmək, müstəqil öyrənmənin və ömür boyu öyrənmənin nə üçün hələ də az müraciət olunan fəaliyyət hesab olunması və digər məsələlər müzakirə edilib.

Plenar sessiyaya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik **Urxan Ələkbərov** və Rusiya Elmlər Akademiyasının akademiki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru **Anatoli Torkunov** moderatorluq ediblər.

Sessiyanın mövzusunun aktuallığından danışan moderatorlar qeyd ediblər ki, müasir dünyada insan fəaliyyətinin bütün istiqamətlərdə çox sürətlə inkişaf etməsi bir çox peşələrə gələcəkdə nə dərəcədə ehtiyac olub-olmaması məsələsini aktuallaşdırır. Bu çağırış müasir təhsil sisteminin insanlara fayda verməsini, onun işlə təminolunma istiqamətində qurulmasını tələb edir. Odur ki, panel sessiyanın mövzusu müvafiq problemlərin həllinə dair fikir mübadiləsi aparmağa kömək edir və gələcək əməkdaşlıq əlaqələrinin qurulması üçün önəm daşıyır.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik **Akif Əlizadə** Bakı beynəlxalq humanitar forumlarının qlobal xarakterli elmi-humanitar məsələlərin geniş müzakirə edildiyi, mühüm qərarların qəbul olunduğu mötəbər tədbirə çevrildiyini deyib. Vurğulayıb ki, hələ 15 il əvvəl Prezident İlham Əliyev ölkənin əsas siyasi kursunun ifadəsi kimi "Neft kapitalını insan kapitalına çevirməliyik" strategiyasını irəli sürüb. Müasir şəraitdə intellektual insan potensialının inkişafı Azərbaycan üçün təkcə elmi aspektdən deyil, bütövlükdə ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Təhsil və elm qarşısında duran vəzifələrdən danışan akademik vurğulayıb ki, elm hər zaman bəşəriyyətin qarşısında yeni tədqiqat istiqamətləri açır. Əgər XX əsr fizika əsri adlandırılırdısa, alimlər yekdilliklə güman edirlər ki, XXI əsr biologiya əsri olacaq. Belə ki, dünyada biologiya istiqamətində elmi kəşflərin nəticələri möhtəşəmdir. Bununla yanaşı, energetika, kimya istiqamətləri də inkişaf edir. Eyni zamanda, cəmiyyətin humanitar tədqiqatlardan gözləntisi çoxdur. Hər yerdə, xüsusən, inkişaf etmiş ölkələrdə, humanitar elmlərə az diqqət ayrıldığını təəssüflə qeyd edən akademik müasir dünyanı anlamaq üçün mədəniyyət istiqamətinə xüsusi fikir verilməsinin vacibliyini bildirib. Bu baxımdan çox yüksək inkişaf etmiş dərin və hərtərəfli biliklərə əsaslanan mədəniyyətin önəmini vurğulayıb.

BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) sədri xanım **İnqa Ronda Kinq** hazırda dünyanın böhranla, təbii fəlakətlərlə üzləşdiyini, bir çox ölkələrdə insanların humanitar yardıma ehtiyacı olduğunu deyib. Vurğulayıb ki, Bakıda keçirilən forumun mövzusu 2030-cu ilə qədər Dayanıqlı İnkişafın Məqsədləri ilə səsləşir. Təhsil insanın əsas hüququdur və inkişafa səsləyir. Dünyada 260 milyon uşaq təəssüf ki, hələ də ibtidai məktəbə getmir. Bunun qarşısı alınmasa, 2030-cu ilədək bu göstərici 800 milyona çata bilər. Ayrı-ayrı ölkələrdə uşaqların təhsil almamasının səbəbləri, o cümlədən münaqişələr, yoxsulluq və digər xoşagəlməz hallar aradan qaldırılmalıdır. Habelə təhsildə keyfiyyət təmin edilməli və keyfiyyətli təhsil hamını, o cümlədən cəmiyyətin həssas təbəqələrini əhatə etməlidir. Bu, gələcəkdə yoxsulluğun azaldılmasına da kömək edəcək.

Təhsil naziri **Ceyhun Bayramov** ölkə rəhbərliyinin təhsilin və elmin inkişafına xüsusi diqqət yetirməsindən, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsindən danışıb. Təhsil sahəsində aparılan islahatlardan söz açan nazir beynəlxalq araşdırmalarda 2011-ci illə müqayisədə savadlılıq səviyyəsinin yüksəldiyini bildirib. O, islahatlar zamanı ali təhsilə, peşə təhsilinə, təhsil infrastrukturu ilə bazar infrastrukturunun əlaqələndirilməsinə diqqət yetirildiyini, istedadlı uşaqların dəstəkləndiyini, ölkədə hər kəs üçün eyni dərəcədə təhsil imkanları yaradıldığını vurğulayıb.

Böyük Britaniyanın Oksford Universitetinin nəzdində fəaliyyət göstərən İslam Araşdırmaları Mərkəzinin direktoru **Fərhan Nizami** çıxışında təhsilə sərf edilən xərclərin düzgün istiqamətlərdə olmasının önəmini vurğulayıb, bunun ümumi inkişafa kömək edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, təhsil siyasəti yerli iqtisadiyyatı əhatə etməlidir, eləcə də yerli səviyyədə savadı olan insanlar diqqətdən kənarda qalmamalıdır. İstedadların inkişafına diqqət yetirilməsə, insanlarda özünüqiymətləndirmə azalar və bu, tədric olunmuş cəmiyyətin formalaşmasına səbəb ola bilər. Hər hansı inkişafdan söz düşərkən, onun əsasında təhsil meyarının dayandığı aşkar olur. Odur ki, təhsil sistemində ölkənin, cəmiyyətin inkişafı mütləq nəzərə alınmalıdır.

Küveyt Əmirinin Divanında müşavir, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri və BMT Baş katibinin xüsusi müşaviri **Abdullah Alma'tuk** rəhbəri olduğu qurumun çoxşaxəli fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat verib. Vurğulayıb ki, təhsil sahəsində xeyriyyəçiliyin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Həmçinin elm və təhsil istiqamətlərində gənclərin könüllü proqramlarda iştirakını genişləndirməyə şərait yaratmaq lazımdır. Könüllü fəaliyyət sayəsində cəmiyyət inkişaf edir. Abdullah Alma'tuk, həmçinin Küveytdə keçirilən xeyriyyəçilik tədbirləri barədə danışıb.

Rusiya Dövlət Dumasının Sədr müavini **Sergey Neverov** dünyada inkişafın əsas müəllifinin insan olduğunu qeyd edərək, bu baxımdan təhsilə xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib. Diqqətə çatdırıb ki, müasir texnologiyalar şəraitində bu təhsili daha səmərəli etmək olar. Təhsil siyasəti əvvəlcədən ölçülüb-biçilmiş məqamları əhatə etməlidir. Bu gün qlobal problemlər bütün ölkələrə bu və ya digər dərəcədə təsir göstərir. Dövlətin müasir həyatla ayaqlaşa bilən təhsil sistemi yaratmasının vacibliyini deyən Sergey Neverov bununla bağlı Rusiyanın müsbət təcrübəsini bölüşüb.

MDB İcraiyyə Komitəsinin sədr müavini **Aqybay Smaqulov** insan kapitalının istənilən ölkə üçün mühüm sərvət olduğunu deyib. Yaradıldığı vaxtdan bəri MDB-nin təhsilə xüsusi fikir verdiyini deyən Aqybay Smaqulov bu sahədə tələbə mübadiləsini, imzalanmış sənədləri, qarşılıqlı diplomun tanınmasını diqqətə çatdırıb, inklüziv tədris sistemi təcrübəsini qeyd edib.

Çıxışlarda VI Bakı Beynəlxalq Humanitar Forumunun müasir cəmiyyətin aktual mövzularını müzakirə etmək baxımından çox gözəl məkan olduğu, tədbirin yüksək səviyyədə təşkil edildiyi vurğulanıb və bununla bağlı Azərbaycan hökumətinə dərin təşəkkür ifadə edilib.

* * *

Forumun ikinci plenar sessiyası "İnnovasiyalar yaradıcı iqtisadiyyatın yeni mənbəyi kimi" mövzusuna həsr edilib.

Plenar sessiyanın moderatoru Rusiyanın Dünya İqtisadiyyatı və Beynəlxalq Əlaqələr İnstitutunun prezidenti **Aleksandr Dınkin** Bakının artıq altıncı dəfədir ki, Beynəlxalq Humanitar Foruma uğurla evsahibliyi etdiyini deyib. Forumun əhəmiyyətindən danışan natiq qeyd edib ki, bura müxtəlif mötəbər qurum və təşkilatların nümayəndələrinin toplaşdığı və qarşılıqlı fikir mübadiləsi apardığı əlverişli platformadır.

O deyib ki, innovasiya cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən həm yaradıcı iqtisadiyyat, həm də yaradıcı sənayelər üçün həlledici amildir. Yaradıcı iqtisadiyyat universal və çoxşaxəli, eləcə də çevik və asan tənzimlənə biləndir: "Düşünürəm ki, bugünkü müzakirəmiz bütün bu sadalananlar üzrə dünyada qazanılan uğurları özündə ehtiva edəcək".

Foruma moderatorluq edən iqtisadiyyat nazirinin müavini **Rüfət Məmmədov** deyib ki, ötən əsrdə texnoloji innovasiyanın əsas qayəsi transformasiyaya məruz qalmışdı. Hazırda dünyanın ən böyük kapitallı şirkətləri rəqəmsal şirkətlərdir. Bu gün innovasiya əlaqələnmə, ötürülmə və hərəkət deməkdir. İnnovasiyalar nəqliyyat, energetika, təbabət və kommunikasiyalar sahəsində hərtərəfli inkişafa gətirib çıxarıb. Qarşıdakı illərdə isə bütün bu qazanılan nailiyyətlərin, əldə edilən nəticələrin bölüşdürülməsi və istifadəsini əhatə edəcək.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini **Elmir Vəlizadə** bildirib ki, Azərbaycanda innovasiyaların inkişafına dövlət dəstəyi göstərilir. Bu məqsədlə İnformasiya Kommunikasiya Texnologiyaları Fondu, Yüksək Texnologiyalar Parkı yaradılıb. Azərbaycanda innovasiyaların iqtisadiyyatın bütün sektorlarına tətbiqi, startapların təşviqi və qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir.

"Azərbaycan kosmosu fəth edən ölkələr sırasındadır. Son 5 ildə Azərbaycan orbitə 3 peyk buraxıb. Bunlardan ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidə peykidir. Ölkə əhalisinin 80 faizi internet istifadəçisidir. Bundan başqa, strartaplar, developerlər, dizaynerlərin iştirakı ilə kreativ sənayenin inkişafı təmin edilir" - deyə nazir müavini əlavə edib.

BMT-nin İnkişaf Proqramı Avropa və MDB üzrə Regional Bürosunun direktor müavini **Rastislav Vrbenski** deyib ki, texniki inqilab hazırda hər birimizin həyat tərzinə çevrilib: "Biz innovasiya və innovativ inkişafı diqqət mərkəzində saxlayırıq. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində də bu sahəyə xüsusi yer ayrılıb. Biz ötən illər Monteneqroda İnnovasiya Həftəsi keçirmişik. Gələn ay isə İstanbulda İnnovasiya Günlərini təşkil edəcəyik. Burada əsas məqsəd informasiya-kommunikasiya texnologiyaları üzrə şirkətləri, mütəxəssisləri və ekspertləri bir araya toplamaq, yeni innovativ həllərdə birgə əməkdaşlığı təşviq etməkdir. Biz innovasiya laboratoriyasının qurulmasına dəstək olmuşuq, müxtəlif ölkələrdə innovativ layihələrin həyata keçirilməsində iştirak etmişik. Azərbaycanda da bu sahədə mühüm işlər görülür. Azərbaycanın öz brendi kimi təqdim etdiyi "ASAN xidmət" xüsusi əhəmiyyət kəsb edir".

Dünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) nümayəndəsi **Yevgeni Sesitski** təmsil etdiyi qurumun fəaliyyəti, həyata keçirdiyi layihələr, müxtəlif ölkələrdə innovativ inkişafa dəstəyi barədə danışıb. Bildirib ki, bu sahədə ən vacib məsələ bütün innovativ layihə və proqramların mülkiyyət hüquqlarının qorunmasıdır. Ona görə də Dünya Əqli Mülkiyyət Təşkilatı bu sahədə reallaşdırılan layihələrin hüquqlarının qorunmasına xüsusi diqqət ayırır: "Əlbəttə ki, süni zəka layihələrinin də inkişafına diqqət artır. Bu layihələr hazırda bütün inkişaf etmiş ölkələrin maraq dairəsindədir".

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparat rəhbəri **Azad Cəfərli** rəqəmsal layihələrin həyata keçirilməsi sahəsində atılan addımlardan danışıb, hazırda elektron xidmətlərin inteqrasiyası və qiymətləndirilməsi sahəsində işlərin davam etdiyini deyib.

Azərbaycanın "ASAN xidmət" modelinin üstünlüklərindən və fəaliyyət mexanizmindən danışan A.Cəfərli bildirib ki, qurumun fəaliyyəti Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə üst-üstə düşür və 16 məqsəd üzrə həmahəngdir. Bildirib ki, "ASAN xidmət" mərkəzlərində də 10 dövlət qurumunun 300-dək xidməti göstərilir. İndiyədək 25 milyon ərizə qəbul edilib və vətəndaş məmnunluğu 95 faizdir. Həmçinin sertifikatların verilməsi və elektron lisenziyalar üzrə portal da fəaliyyət göstərir. "Elektron hökumət" portalında 91 qurum 446 xidmət təklif edir. Bu vaxtadək portala 85 milyon ərizə qəbul olunub.

O deyib ki, "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti tərəfindən, həmçinin Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Bir çox ölkələr Azərbaycanın "ASAN xidmət" modelini tətbiq etməkdə maraqlıdır.

Gürcüstan Blokçeyn Assosiasiyasının fəxri üzvü, A-Star Investment Fondunun təsisçisi **Aleks Sudadze** bildirib ki, Bakı Beynəlxalq Humanitar Forumunda qlobal iqtisadiyyatın yeni tendensiyaları və rəqəmsal yeniliklərlə bağlı müzakirələrin aparılması xüsusi əhəmiyyət kəsb edir. O deyib ki, hazırda dünyada yeni trend - blokçeyn texnologiyaları inkişaf etdirilir. Qarşıdakı illərdə bütün inkişaf etmiş ölkələrdə blokçeyn texnologiyalarına maraq artacaq. Blokçeyn etibarlı və şəffaf prinsiplərə əsaslanır. Gələcəkdə bir çox ölkələr dövlət xidmətlərini blokçeynlər vasitəsilə həyata keçirməyə maraq göstərir. Bundan başqa, kriptovalyutalar da hazırda innovativ yenilik sayılır.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar Parkının (YTP) direktoru vəzifəsini icra edən **Tural Kərimli** isə YTP-nin fəaliyyəti barədə məlumat verərək gələcək planlardan danışıb. O, öz layihələrini inkişaf etdirmək istəyən startapçılar üçün müxtəlif proqramların təşkil edildiyini deyib.

Mədəniyyət və yaradıcılıq sənayeləri üzrə ekspert **Teri Sandel** deyib ki, Azərbaycanda müasir memarlıq nümunələrinə xüsusi diqqət yetirilir. Muzeylər, kinematoqrafiya və qeyri-mədəni maddi irsin qorunmasına, muğama xüsusi önəm verilir.

"Bu gün mədəniyyət yaradıcı iqtisadiyyatın əsas qollarından birinə çevrilir, dayanıqlı inkişafda aparıcı rol oynayır. Müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, Azərbaycanda mədəniyyət və yaradıcı iqtisadiyyata xüsusi diqqət ayrılır. Dövlət bu sahəyə yeni münasibətin formalaşmasında əsas rol oynayır" - deyə Böyük Britaniyadan olan ekspert əlavə edib.

"Hybrid communications" şirkətinin direktoru **Aşley Qudal** və "Clarivate Analytics" şirkətinin marketinq üzrə baş direktoru xanım **Culia Mair** isə bildiriblər ki, innovasiyanın gəlirlərin əldə edilməsi və sərmayələrin cəlb edilməsi məqsədilə iqtisadi cəhətdən əsaslandırılması günün tələbidir. İnnovasiyalar gözlənilmədən meydana çıxır, dəyişir, transformasiyaya məruz qalır.

* * *

VI Bakı Beynəlxalq Humanitar Forumunun "Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi" mövzusunda keçirilən işçi sessiyasına Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri **Etibar Nəcəfov** moderatorluq edib.

İşçi sessiyada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik **Kamal Abdulla** çıxış edərək deyib ki, bu gün Azərbaycanın multikulturalizm modeli dünyada qəbul edilir və öyrənilir. Bu gün Azərbaycan multikulturalizmi dünyanın bir sıra aparıcı universitetlərində tədris olunur. Xarici universitetlərdə Azərbaycan multikulturalizmini öyrənən tələbələrin ildə iki dəfə ölkəmizə səfərləri təşkil edilir.

Qeyd edilib ki, Azərbaycanda keçirilən tədbirlər multikulturalizmin nikbin qütbündə duran insanları öz sırasında birləşdirir. Biz multikulturalizmin bu gününə və sabahına inanırıq. Azərbaycan Prezidentinin imzaladığı sərəncamlar multikulturalizmin dönməz yolunu müəyyən edib. Azərbaycan xalqının canında-qanında olan başqa xalqlara xoş münasibət həmişə özünü göstərib. Əsrlərdən bəri ölkəmizdə müxtəlif xalqların nümayəndələri qardaş kimi yaşayıblar. Azərbaycan bu gün çoxkonfessiyalı ölkə kimi dünyada özünü təsdiq edib. Biz bu gün fəxrlə Azərbaycan modelini bütün dünyada təbliğ edirik.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, **Şeyxülislam Allahşükür Paşazadə** deyib ki, Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam və inkişaf etdirir. Dünyanın siyasi, iqtisadi və dini zəmində narahat gündəm yaşadığı bir dövrdə tarixən çoxmillətli və çoxkonfessiyalı ölkə, milli, dini tolerantlıq və multikultural ənənələr diyarı olan Azərbaycanda sülh məramı, qarşılıqlı ehtiram məfkurəsi, humanist dəyərlərin bəşəriyyətə bəyan edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.

Vurğulanıb ki, Azərbaycan torpaqlarında müsəlmanlarla yanaşı, pravoslavlar, katoliklər, yəhudilər və digər etiqad sahibləri əsrlər boyu bir ailə kimi yaşayır, ibadət və mərasimlərini sərbəst şəkildə icra edirlər. Azərbaycanda daxili sabitlik mövcuddur. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır. Dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi"nin müəllifi, islam mədəniyyətinin ümumbəşəri əhəmiyyətinə, dinimizin sülhsevər mahiyyətinə yüksək dəyər verən Prezident İlham Əliyev 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili isə "İslam həmrəyliyi ili" elan etməklə olduqca müdrik qərarlar verib. Prezident İlham Əliyev Azərbaycanı bu ideyaların mərkəzində duran bir ölkə kimi gündəmə gətirməklə, ölkəmizi qlobal miqyasda ümumbəşəri ideyaların carçısına çevirməklə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük bir siyasi-mənəvi nailiyyətə imza atmış oldu. Humanitar forumların mütəmadi şəkildə Bakıda keçirilməsi bu təşəbbüslərin sırasında xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın dünyaya multikulturalizm, islam həmrəyliyi ideyalarını təqdim etməklə qüdrətli ölkəyə çevrildiyini söyləyən Allahşükür Paşazadə deyib: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında mədəni sahədə fəaliyyəti, milli-mənəvi irsimizi ən yüksək səviyyədə təbliğ etməklə yanaşı, ümumbəşəri dəyərlərə diqqət və himayəsi ölkəmizi bu istiqamətdə böyük nüfuz sahibi edib".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** vurğulayıb ki, Azərbaycanda tarixən ayrı-ayrı mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailənin üzvü kimi yaşayıblar. Müxtəlif mədəniyyətlərə və dinlərə məxsus etnosların tarix boyu bu torpaqlarda əmin-amanlıq şəraitində yaşamasında xalqımıza xas olan humanizm və xoşniyyətlilik kimi ali dəyərlər, eyni zamanda, islam dəyərləri müstəsna rola malikdir. Ölkəmizin coğrafi mövqeyi, əhalisinin etnik tərkibi qədim dövrdən burada fərqli dinlərin mövcudluğuna şərait yaradıb. Sovetlər birliyi dağılan dövrdə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2200-dən çoxdur. Hazırda ölkə ərazisində 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Vətəndaşların böyük əksəriyyəti müsəlman olan ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Ölkəmizdə dövlət qeydiyyatından keçmiş 861 dini icma fəaliyyətdədir. Bunlardan 830-u islam, 31-i qeyri-islam təmayüllüdür.

Ölkədə fəaliyyət göstərən bütün dini icmalara öz dini ayinlərini həyata keçirmək üçün lazımi şəraitin yaradıldığını söyləyən komitə sədri deyib: "Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dövlət tərəfindən islam dini icmaları ilə yanaşı, digər dini icmalara da mütəmadi olaraq maliyyə yardımı ayrılır".

Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının müdiri professor **Kamilə Əliyeva** diqqətə çatdırıb ki, bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində danışır, öz dini inanclarına uyğun ibadət edir, adət-ənənələrini yaşadır, heç bir ayrı-seçkiliklə üzləşmədən müxtəlif sahələrdə fəaliyyət göstərərək ümumi inkişaf prosesinə öz töhfələrini verirlər. Azərbaycanda dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir: "Tarixi Azərbaycan torpaqlarının 20 faizinin monokultural siyasət yürüdən Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından qovulmasına, minlərlə soydaşımızın terrora məruz qalmasına baxmayaraq, ölkəmizdə multikultural dəyərlərə xüsusi önəm verilir. Təkcə bu faktın özü Azərbaycan dövlətinin və xalqının yüksək tolerant və multikultural mənəviyyatının bariz sübutudur. Azərbaycanda bütün konfessiyalar arasında mehribanlıq, qarşılıqlı anlayış və sıx əməkdaşlıq ölkəmizdəki tolerantlıq mühitinin bundan sonra da qorunub saxlanılmasının qarantıdır".

Sessiyada Hindistanın "Art of Living" Fondunun mənəvi rəhbəri **Sri-Sri Ravi Şankar**, Monteneqronun mədəniyyət naziri **Aleksandr Boqdanoviç**, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu **Aleksandr Işein**, UNESCO-nun xoşməramlı səfiri, Fransanın mədəniyyət diplomatiyasının xüsusi nümayəndəsi **Hedva Ser** və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ nümayəndəliyinin rəhbəri, Vaşinqton Hüquq Assosiasiyasında məsləhətçisi **Janna Skot** ölkəmizdə multikulturalizmə verilən önəmi yüksək qiymətləndiriblər. Bildirilib ki, multikulturalizm insanların birgəyaşayışı və firavanlığı üçün xüsusi əhəmiyyət kəsb edir.

Moskva Dövlət Linqvistik Universitetinin rektoru **İrina Krayevanın** moderatorluğu ilə keçirilən sessiyanın ikinci hissəsində Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri **Milix Yevdayev**, İtaliyanın Link Kampus Universitetinin professoru **Alesandro Fiqus**, Pakistan-Amerika Məsələləri Şurasının nümayəndəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ABŞ nümayəndəliyinin müşaviri **Adnan Xan**, ABŞ Prezidentinin təyin etdiyi Milli və Yerli Könüllü Cəmiyyətlər Xidmətinin səlahiyyətli nümayəndəsi, BBMM-in ABŞ nümayəndəliyinin müşaviri **Hyepin İm**, BBMM-in İsrail nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert **Arye Qut**, mərkəzin Drezden nümayəndəliyinin rəhbəri **Birgit Vaysgerber** və Rusiyanın siyasi analitiki **Oleq Kuznetsov** mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

Plenar və işçi sessiyalarda mövzularla bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

# VI Bakı Beynəlxalq Humanitar Forumu

## Dayanıqlı İnkişafa dair Bakı Forumu

Oktyabrın 25-də VI Beynəlxalq Humanitar Forum çərçivəsində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Dayanıqlı İnkişafa dair Bakı Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan forumda əvvəlcə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülən işlərə və qazanılan nailiyyətlərə dair videoçarx nümayiş etdirilib.

Forumun moderatoru, "TRT World"un xəbər müxbiri xanım **Maria Ramos** Dayanıqlı İnkişaf Məqsədlərinə həsr olunmuş ilk forumun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. O, forumda dünyanın müxtəlif regionlarını təmsil edən 30-dan çox ölkədən nümayəndələrin iştirak etdiklərini diqqətə çatdırıb. M.Ramos forumun əlamətdar günə - BMT-nin yaradılmasının 73-cü ildönümünə təsadüf etdiyini xüsusi vurğulayıb, bu münasibətlə təbriklərini çatdırıb. O, bu forumda regionda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Bakı prinsiplərinin müəyyən edildiyini vurğulayıb.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri **Əli Əhmədov** VI Beynəlxalq Humanitar Forumun işə başlamasını, hazırda isə Dayanıqlı İnkişaf Məqsədlərinə dair Bakı Forumunun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib.

Baş nazirin müavini vurğulayıb ki, bu gün bəşəriyyətin üzərində ciddi çalışdığı ən mühüm məsələlər arasında DİM ilə bağlı gündəliyin həyata keçirilməsi mühüm yer tutur. Dayanıqlı İnkişaf Məqsədlərinin dünyada aclıq, yoxsulluq, qaçqın və məcburi köçkün, ədalətsizlik kimi mühüm problemlərin aradan qaldırılması baxımından önəmli sənəd olduğunu vurğulayan Əli Əhmədov bütün bunların bəşəriyyəti düşündürən və həlli vacib məsələlər olduğunu bildirib. Qeyd edib ki, qarşıdakı 12 ildə dünyada yoxsulluğun, aclığın, münaqişələrin olmadığı, insanların xəstəliklərdən əziyyət çəkmədiyi cəmiyyət qurmağa çalışmalıyıq. Bu vəzifələrin böyüklüyü həmin məqsədlərə nail olunması üçün daha ciddi çalışmağı zəruri edir.

Bu baxımdan Azərbaycanın təcrübəsini diqqətə çatdıran Baş nazirin müavini ölkəmizin bugünkü inkişaf səviyyəsinə 12-14 il ərzində nail olduğunu bildirib. Əli Əhmədov qeyd edib ki, DİM üzrə götürdüyü öhdəliklərin həyata keçirilməsi Azərbaycanın dövlət siyasətinin ən əhəmiyyətli tərkib hissələrindən biridir. Son 15 ildə ölkəmizdə 1 milyondan çox yeni iş yerinin yaradıldığını diqqətə çatdıran Əli Əhmədov Bakının və regionların sürətlə inkişaf etdiyini deyib. Bu baxımdan Azərbaycanın dünyaya örnək təqdim etdiyini vurğulayan Baş nazirin müavini ölkəmizin 30 ilə yaxın müddətdə 1 milyondan çox qaçqın və məcburi köçkün probleminə baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın qısa müddətdə qazandığı nailiyyət üzərimizə düşən bu böyük missiyanın da öhdəsindən uğurla gələcəyimizi, dünyanı köklü surətdə dəyişdirməyin mümkün olduğunu deməyə əsas yaradır. Bunun üçün dünya liderləri öz iradələrini ortaya qoymalı, qaçqın və məcburi köçkün problemləri həll edilməli, münaqişələr və müharibələr aradan qaldırılmalıdır. Bunlarsız 2030-cu ilədək DİM-ə nail olmaq mümkün deyil.

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında regional əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edən Əli Əhmədov bildirib ki, yalnız bu yolla sosial problemləri həll edə, digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparmaq imkanı qazana bilərik.

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının uğurlu fəaliyyətindən danışan Əli Əhmədov Bakı forumunun bu işə böyük töhfə verəcəyinə əminliyini bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi **Qulam İsakzai** 73 il əvvəl qəbul olunan BMT Nizamnaməsinin və BMT-nin İnsan Hüquqları Bəyannaməsinin Minilliyin İnkişaf Məqsədlərinin əsasını təşkil etdiyini bildirib. Qeyd edib ki, DİM-ə nail olmaq üçün sözdən əmələ keçməli, 2030-cu ilədək yol xəritələri, büdcə ilə uyğunlaşdırılmış milli planlar müəyyən edilməlidir. Bundan başqa, QHT-lərin səyləri birləşdirilməli, innovasiyalardan geniş istifadə edilməlidir. Bu isə bütün bəşəriyyətin kütləvi şəkildə səmərəli fəaliyyət göstərməsini şərtləndirir.

DİM gündəliyinin tələblərinə uyğun olaraq, bütün məlumat bazalarının uyğunlaşdırılmasının önəmini vurğulayan Q.İsakzai bildirib ki, bu baxımdan Azərbaycanda ciddi addımlar atılıb. BMT-nin ölkə nümayəndəliyi ilə sıx əməkdaşlıq edən Azərbaycan 2017-ci ildə ilk milli icmalı hazırlayıb təqdim edib. Azərbaycan buna görə BMT-dən müvafiq qiymətləndirməni də alıb. Növbəti 2018-ci il üçün də icmal hazırlanmalıdır. Azərbaycan ilk ölkələrdəndir ki, Dayanıqlı İnkişaf Məqsədlərinin Bakı prinsipləri adlandırılan ümumi siyahısını tərtib edib. Biz sabah bu siyahını təsdiqləyəcəyik.

Azərbaycan hökuməti ilə əməkdaşlıqdan məmnunluq duyduğunu vurğulayan BMT nümayəndəsi Bakı forumunun 2030-cu ildə DİM-ə nail olunmasına mühüm töhfə verəcək müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğulayıb.





BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOS) sədri xanım **İnqa Ronda Kinq** forumda iştirakından məmnunluğunu bildirib və tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, DİM ilə bağlı qəbul olunan gündəlikdə bir sıra öhdəliklər - yoxsulluğun azaldılması, cəmiyyətin bütün təbəqələrinin hüquqlarının təmin olunması və s. mühüm hədəflər müəyyənləşdirilib. DİM-in həyata keçirilməsi məsələsində ölkələr arasında müəyyən fərqlərin olduğunu vurğulayan İnqa Ronda Kinq bildirib ki, son məqsədə çatmaq üçün indiyədək əldə olunan irəliləyiş kifayət deyil. Həssas qruplarla bağlı daha çox səy göstərilməsinə ehtiyac var. Bu baxımdan DİM-ə nail olmaq üçün siyasi vasitələrdən istifadə edilməli, ölkələrarası əməkdaşlıq genişləndirilməlidir. Çünki heç bir ölkə bu məqsədləri təkbaşına həyata keçirə bilməz. Bu prosesə dövlətlə yanaşı, özəl sektor və vətəndaş cəmiyyəti institutları da fəal qoşulmalıdır. O, görülən işlərə dair icmalın təqdim edilməsində Azərbaycanın ilk ölkələrdən olduğunu vurğulayıb və buna görə minnətdarlığını ifadə edib.

Slovakiya Baş nazirinin investisiya və informasiyalaşdırma məsələləri üzrə müavini **Riçard Raşi** forumun əhəmiyyətini yüksək qiymətləndirərək bildirib ki, dayanıqlı inkişaf, ilk növbədə, bütün dövlətlərin siyasətlərində əsas istiqamətlərdən birini təşkil etməlidir. Bu məqsədə nail olunmasında cəmiyyətin bütün təbəqələri mühüm rol oynamalıdır. Bu baxımdan dövlət və özəl sektorla yanaşı, maraqlı tərəflərin geniş cəlb edilməsinin də əhəmiyyəti böyükdür.

Ölkəsinin təcrübəsindən danışan Riçard Raşi diqqətə çatdırıb ki, Slovakiyada Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması dövlət siyasətində prioritet istiqamətlərdən birini təşkil edir. Slovakiyada investisiya planları işlənərkən, dövlət büdcəsi formalaşdırılarkən bu məsələnin DİM ilə əlaqələndirilməsinə xüsusi diqqət yetirilir. DİM üzrə bütün öhdəliklər ortaq məqsəd olduğundan bununla bağlı gənclər arasında geniş maarifləndirmə işi aparılmalı, bu prosesdə onların iştirakına nail olunmalıdır.

Belarusun Milli Assambleya Şurasının sədr müavini **Marianna Şyotkina** bildirib ki, hazırda cəmiyyətlərin qarşısında duran bütün problemlərin həllində DİM mühüm rol oynayır. Lakin bu məqsədlərə necə nail olunması ilə bağlı müzakirələr daha geniş aparılmalı, bu yollar aydınlaşdırılmalıdır. Dayanıqlı inkişafda əsas məqam bugünkü nəslin ehtiyaclarını təmin edərkən gələcək nəsil üçün problem yaratmamaqdır. Bu baxımdan DİM-ə nail olunması yolları ətraflı müzakirə edilməli, əməkdaşlıq gücləndirilməlidir.

DİM-ə nail olunmasında özəl sektorun və vətəndaş cəmiyyətinin imkanlarından istifadə edilməsinin önəmini vurğulayan M.Şyotkina belə mühüm müzakirənin təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

BMT Baş katibinin köməkçisi **Rəşid Xalikov** Azərbaycan hökuməti ilə BMT arasında səmərəli əməkdaşlığa görə minnətdarlığını bildirib, DİM gündəliyinin məqsədinin mövcud ehtiyacları ödəmək, riskləri azaltmaq olduğunu deyib. R.Xalikov vurğulayıb ki, gündəlik ədalətli qloballaşmaya yönələn sənəddir. Bu gündəlik BMT sistemi və tərəfdaşlar üçün strateji istiqamətdə qarşılıqlı əməkdaşlığa şərait yaradır. Gündəlik inkişaf və humanitar istiqamətləri ölkə səviyyəsində bir araya gətirir. İnanırıq ki, bizim birgə nəticələrimiz insanların həyatında konkret, ölçülə bilən inkişafa və nailiyyətlərə gətirib çıxaracaq.

Baş katibin köməkçisi humanitar və inkişaf məqsədlərinə nail olunması üçün BMT tərəfindən rəhbər komitənin yaradıldığını diqqətə çatdırıb. Bildirib ki, məqsəd yerli təşkilatların rolunu artırmaq, beynəlxalq qurumların çəkisini azaltmaqdır. Çünki bu prosesdə müxtəlif QHT-lər, vətəndaş cəmiyyəti institutlarının daha fəal iştirakına şərait yaradılmalıdır.

BMT-nin İnkişaf Proqramının Avropa və MDB üzrə bürosunun rəhbərinin müavini **Rastislav Vrbenski** belə mühüm məsələlərin müzakirə olunduğu forumun təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Azərbaycanın DİM-i müvafiq sənədlərə daxil etməsinin böyük uğur olduğunu və ölkəmizin artıq ikinci icmalı təqdim etməyə hazırlaşdığını xüsusi vurğulayan R.Vrbenski respublikamızın bu baxımdan öncül ölkələrdən olduğunu vurğulayıb. Bakı prinsiplərinin artıq formalaşdığını deyən R.Vrbenski DİM-ə nail olunması istiqamətində dinamikanın yüksək olduğunu qeyd edib, bu baxımdan maliyyələşmə üsullarının da mühüm rol oynadığını diqqətə çatdırıb.

BMT Baş katibinin müavini, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi **Olqa Alqayerova** forum iştirakçılarına videomüraciətində DİM-ə həsr olunan tədbirin səmərəli müzakirələr aparmaq və müsbət təcrübələrlə tanışlıq baxımından mühüm imkan olduğunu deyib. Azərbaycanın DİM üzrə görülən işlərə dair ikinci icmal sənədini təqdim etməyə hazırlaşdığını vurğulayan O.Alqayerova ölkəmizin bu baxımdan ilk sıralarda yer aldığını söyləyib.

Dünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru **Tedros Adhanom** videomüraciətində bildirib ki, ötən il DST 47 ölkədə müxtəlif təhlükələrin aradan qaldırılması istiqamətində ciddi fəaliyyət göstərib. Buna baxmayaraq, dünya əhalisinin yarıdan çoxu hələ də kifayət qədər tibbi xidmətlərdən yararlana bilmir. Tibbi sığorta DİM-ə nail olunması baxımından çox əhəmiyyətlidir. Çünki səhiyyə insan inkişafının təməlidir.

Tedros Adhanom forumda səhiyyə məsələlərinin də müzakirə olunacağına əminliyini bildirib, tədbirin işinə uğurlar arzulayıb.

Sonra DİM üzrə seçilmiş "Gənc səfirlər" forum iştirakçılarına təqdim olunub və onlar mükafatlandırılıblar.

Çıxışlardan sonra qısa fasilədə BMT günü münasibətilə DİM üzrə mahnıların təqdimatı olub.

Qısa fasilədən sonra forum işini "Davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, tam və səmərəli məşğulluğu və hamı üçün layiqli əmək imkanlarını təşviq etmək" mövzusunda birinci sessiya ilə davam etdirib.

Sessiyanın moderatoru "TRT World"un xəbər müxbiri xanım **Maria Ramos** bildirib ki, tədbirdə dayanıqlı və inklüziv iqtisadi artımı təşviq etmək, hər kəs üçün tam, məhsuldar məşğulluq və layiqli iş, icra vasitələrini gücləndirmək, qlobal və regional tərəfdaşlığı yenidən canlandırmaq və DİM-in həyata keçirilməsində özəl şirkətlərin rolu məsələləri müzakirə olunacaq.

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri **Sahil Babayev** qeyd edib ki, DİM-in zəruriliyi hamı tərəfindən qəbul olunur. DİM-in üç əsas prinsipinin - inklüzivliyin təmin edilməsi, ətraf mühitin qorunması və iqtisadi artımın gücləndirilməsi olduğunu vurğulayan nazir ölkəmizdə DİM-ə nail olunması istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan hökuməti tərəfindən əhalinin məşğulluğu istiqamətində silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran nazir qanunvericiliyin təkmilləşdirildiyini, məşğulluqla bağlı yeni qanunun, əlilliklə bağlı bir sıra hüquqi aktların qəbul edildiyini bildirib. Sahil Babayev ölkəmizdə əmək bazarının ehtiyacları ilə insan resursları arasında təhlillər aparıldığını, əməyin mühafizəsi fondunun, ixtisaslı işçi qüvvəsinin yaradılması, peşə tədrisi və təhsili istiqamətində silsilə işlərin görüldüyünü, institusional potensialın genişləndirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, təkcə bu ilin doqquz ayında 100 mindən çox vətəndaşa peşəyönümlü dəstək, məsləhət, tədris və s. yardımı göstərilib. Özünüməşğulluq proqramının icrası məşğulluq imkanları məhdud olan şəxslərin əmək bazarında tam şəkildə iştirak etməsinə imkan yaradacaq.

Nazir bildirib ki, son 15 ildə Azərbaycanın əldə etdiyi uğurlar ölkəmizdəki əmək qüvvəsi olmadan həyata keçirilə bilməzdi. Bütün bu uğurlar Azərbaycanın əmək resurslarının peşəkarlığının göstəricisidir. Azərbaycan gənc bir ölkə kimi qarşıda duran çağırışlara hər zaman adekvat cavab verir. Bizim əmək bazarımıza hər il 100 minə yaxın yeni işçi qüvvəsi daxil olur. Buna görə də biz mövcud işsizlərin problemlərini həll etməklə yanaşı, əlavə yüz min şəxsə imkanlar yaratmalıyıq. Buna görə də Azərbaycan bu sahədə mütəmadi olaraq qazandığı uğurları daha da inkişaf etdirəcək.

Sahil Babayev xüsusi qeyd edib ki, Azərbaycan təkcə ölkəmizdə deyil, eyni zamanda, regionda məşğulluğun təmin olunmasına və iqtisadi artıma böyük töhfə verir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən transmilli layihələr bütün regionun iqtisadi artımına və məşğulluğuna ciddi dəstəkdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri **Ziyad Səmədzadə** bildirib ki, Azərbaycanın son 15 ildə əldə etdiyi uğurlar ölkəmizi DİM üzrə əsas hədəflərə nail olmağa yaxınlaşdırıb.

Ziyad Səmədzadə qeyd edib ki, DİM dünyanın yaxşı mənada oyun qaydalarının dəyişməsinə yönəlib. Dünya əvvəlki kimi idarə oluna, iqtisadi inkişaf proqnozlarını elan edə bilməz. DİM-in hədəflərinin hər birinin arxasında insan amili durur. Bu amil qloballaşan dünyada bazar iqtisadiyyatının hökmran olduğu şəraitdə heç də həmişə insanların rifahının yaxşılaşması ilə müşayiət olunmur. Hazırda dünyada böhranın, yoxsulluğun olmasının kökündə vaxtilə həyata keçirilən iqtisadi siyasətdə insan amilinin nəzərə alınmaması dayanır. DİM-ə nail olmaq insanların həyat səviyyəsinin, məşğulluqlarının artması, layiqli əməklə məşğul olması deməkdir. Buna görə də qloballaşan dünyada oyun qaydaları dəyişməlidir. Bu, DİM üçün tələb olunan maliyyələşmə mənbələrinə çıxış imkanlarının asanlaşması deməkdir.

Qloballaşmanın milli suverenliklərə təsirindən danışan Milli Məclisin komitə sədri bildirib ki, bu gün Azərbaycan dövlətinin əldə etdiyi uğurların əsasında müstəqil siyasət yürütməsi dayanır. Azərbaycan bir sıra xarici təzyiqlərə baxmayaraq, özünün təbii sərvətlərini özəlləşdirmədi, bir sıra layihələrin, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsində ciddi qətiyyət nümayiş etdirdi. Azərbaycanın milli mənafeləri ön plana çəkməsi, qonşu ölkələrlə sıx əməkdaşlığı bu layihənin uğurla başa çatdırılması ilə nəticələndi.

İqtisadi artımı təmin edən amillərin ön plana çəkilməsinin vacibliyini vurğulayan Ziyad Səmədzadə deyib ki, qloballaşan dünyada DİM-ə nail olmaq üçün dövlətin rolu obyektiv qiymətləndirilməlidir. Dövlət bu prosesdən kənarlaşarsa, həmin məqsədlərin heç birinin həyata keçirilməsi mümkün olmayacaq. Buna görə də DİM-ə çatmaq üçün hər bir ölkədə konsensus olmalıdır.

Rusiyanın Azərbaycandakı səfiri **Mixail Boçarnikov** ölkəsinin DİM-ə nail olunmasına, götürdüyü öhdəliklərin yerinə yetirilməsinə çalışdığını bildirib. Rusiyada iqlim dəyişikliyinin qarşısının alınması və dayanıqlı inkişaf komissiyası yaradılıb, bir sıra mühüm sənədlər qəbul olunub. Rusiyanın uzunmüddətli sosial-iqtisadi inkişaf proqramında ərzaq təhlükəsizliyi, ekoloji təhlükəsizlik məsələləri ilə yanaşı, texnoloji inkişaf və s. məqamlar da əksini tapıb.

"Ernst and Young" beynəlxalq audit şirkətinin iqlim dəyişiklikləri və xidmətlərin dayanıqlılığı (Aralıq dənizi regionu) üzrə tərəfdaşı **Rikkardo Giovannini** çıxışında DİM-ə nail olunmasında özəl sektorun fəaliyyətindən danışıb. Bildirib ki, bu prosesdə şirkətlər əvəzsiz rol oynayırlar. Mənfəət prinsipi üzrə işləmələrinə baxmayaraq, şirkətlər DİM-ə nail olunmasına mühüm töhfə verə bilərlər.

BMTİP/BƏT-in məşğulluq üzrə regional məsləhətçisi (Avropa və MDB üzrə) xanım **Vesna Dzuteska Bişeva** çıxışında inklüziv artım və inklüziv məşğulluq məsələlərinə toxunub. O, inklüzivliyin cəmiyyətdə iqtisadi artımla yanaşı, vətəndaşlar arasında gəlirlərin bərabər səviyyədə təmin olunmasına, iqtisadiyyatın şaxələndirilməsinə də mühüm təsir etdiyini bildirib. Qeyd edib ki, kiçik konseptual fərqlərdən asılı olmayaraq, artım və bərabərlik arasında tarazlığın təmin olunması əhalinin rifahına mühüm töhfə verir.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin direktoru **Vüqar Bayramov** Azərbaycanda DİM-in həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolundan və onun fəallığının artırılmasından danışıb. Bildirib ki, bu prosesdə iqtisadi artımın dayanıqlılığı və inklüzivliyi mühüm rol oynayır. Vətəndaş cəmiyyəti əsas maraqlı tərəflərdən biri kimi DİM-ə nail olunmasında yaxından iştirak etməlidir. O vurğulayıb ki, vətəndaş cəmiyyəti dövlət proqramlarının reallaşdırılmasının, eləcə də DİM-ə nail olunması istiqamətində görülən işlərin monitorinqini keçirə bilər.

Çıxışlardan sonra mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

Dayanıqlı İnkişafa dair Bakı Forumu oktyabrın 26-da işini sessiyalarla davam etdirəcək.

## Humanitar forum çərçivəsində Heydər Əliyev Mərkəzində innovativ məhsul və xidmətlər, startapçıların uğurlu tətbiqləri nümayiş olunur

VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Heydər Əliyev Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin innovativ məhsul və xidmətlərin, startapçıların uğurlu tətbiqlərinin nümayiş olunduğu pavilyonu da fəaliyyət göstərir.





AZƏRTAC xəbər verir ki, oktyabrın 25-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva pavilyonla tanış olub.

İnnovativ məhsul və xidmətlərin, startapçıların uğurlu tətbiqlərinin nümayiş olunduğu pavilyon "Robopark", "I2B İdeyadan Biznesə", "Startaplar" və "Kommersiyalaşdırılmış layihələr" zonalarından ibarətdir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə pavilyonla tanış olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verdi ki, ümumilikdə pavilyonda robotiks kursları, dronlar, küləklə işləyən cihazlar, xilasedici, rəngləri tanıyıb müvafiq qaydada ayıra bilən, müxtəlif əşyaların yerini təyin edən robotlar nümayiş olunur. Pavilyonun kommersiyalaşdırılmış layihələr bölməsində Azərbaycanın rəqəmsal mədəni irsinin də təbliğ olunduğu "Google Art & Culture" beynəlxalq rəqəmli incəsənət və mədəniyyət platforması fəaliyyət göstərir. Belə ki, yüzlərlə təşkilat, müxtəlif tədbirlər, obyektlər, eləcə də bir neçə Azərbaycan muzeyinin rəqəmli kontentləri bu platformada cəmləşib. Bölmədə ziyarətçilərin diqqətini çəkəcək "Virtual cərrahiyyə" də təqdim olunur. Bu layihə rəqəmli texnologiyaların tətbiqi vasitəsilə bərpaedici cərrahiyyədə yüksək funksional və estetik nəticələr əldə etməyə imkan verir. Sözügedən layihələrin hər biri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondundan qrant alıb və Yüksək Texnologiyalar Parkının rezidenti olan startap layihələridir.

Bundan başqa, pavilyonda "İdeyadan Biznesə" layihəsi çərçivəsində həm respublikanın ayrı-ayrı regionlarında, həm də Bakı şəhərində yerləşən ali təhsil ocaqlarından seçilən 3 qalib startapçı öz layihələrini təqdim edir. Bunlar "Xilaskar qolbaq", "Ağıllı ev" və "Virtual tur" layihələridir. "Xilaskar qolbaq" insan təzyiqində qeydə alınan problemlərlə bağlı yaxınlıqdakı tibb məntəqələrinə və ya sahə həkimlərinə məlumatların ötürülməsini təmin edir. "Ağıllı ev" məişət cihazlarının məsafədən idarə olunmasına hesablanıb. "Virtual tur" isə onlayn rejimdə turizm obyektlərinin müəyyən edilməsi, bronlaşdırılması üzrə tətbiqdir. Xaricdə təhsil alan startapçılar da nazirliyin pavilyonunda öz məhsullarını təqdim etmək şansı qazanıblar.

Diqqətə çatdırılıb ki, xaricdə təhsil alan startapçılar da nazirliyin pavilyonunda öz məhsullarını təqdim etmək şansı qazanıblar. Belə ki, Estoniyada magistr təhsili alan startapçıların "ZoomX" şirkəti görmə qabiliyyətinin balanslaşdırılmasına xidmət edən eynəklərini nümayiş etdirir.

Layihə nəticəsində mobil tətbiqetmə vasitəsilə idarə olunan və istifadəçiyə eynəyin nömrəsini (-6; +3 aralığında) öz görmə qabiliyyətinə uyğun tənzimləməyə imkan verən "ZoomX" dəyişən fokuslu dinamik eynək prototipidir. Həmçinin monitor vasitəsilə məkanları müşahidə edə bilən virtual reallıq (VR) eynəkləri də təqdim edilir.

Pavilyonun digər eksponatı - avtomobil sürücüləri üçün nəzərdə tutulan "Wake me Up" tətbiqi logistika, sərnişindaşıma və uzaq məsafə qət edən sürücülər üçün faydalıdır. Proqram təminatı ilə işləyən rahat və innovativ qurğu insanların planlaşdırılmamış yuxulamasının qarşısını alır. Belə ki, göz qapağının hərəkətinə əsaslanan qurğu insanın yatmış və yaxud oyaq olmasını müəyyən edir. Əgər göz qapağı üç saniyədən artıq qapalı olarsa, bu, o deməkdir ki, insan yatıb. Bunu müəyyən edən sensor dərhal xüsusi alqoritmlə işləyən emal qurğusuna məlumatı göndərir.

Sərgidə təqdim edilən "Camtouch" tətbiqi isə kompüterin "mouse"u vasitəsilə istənilən statik şəkili hərəkətə gətirir.

Sosial əhəmiyyətli "Braille teach" cihazı görmə qabiliyyəti məhdud şəxslərin barmaq toxunuşu ilə əlifbanı öyrənməsini asanlaşdırır.

Pavilyon "InnoExpo" adı altında "İnnovasiyalar həftəsi" çərçivəsində Heydər Əliyev Mərkəzində keçiriləcək tədbirlər zamanı da öz işini davam etdirəcək. Bu zaman sərgidə "Qlobal İnfluenser Günü"nün təşkilatçıları olan "Keepface DMCC" və "FA International Trade Events" tərəfindən innovativ startap layihələri və xidmətlər nümayiş olunacaq.

Qeyd edək ki, oktyabrın 26-30-da Heydər Əliyev Mərkəzində "Bilik İqtisadiyyatı - "Azərbaycanın İnnovasiya Yol Xəritəsi Layihəsinin təqdimatı", "İdeyadan Biznesə" startap turunun finalı, "Qlobal İnfluenserlər Günü", "AzInTelecom"dan təhlükəsiz bulud infrastrukturu" konfransları, "Baku Open Cyber Cup" kiberidman turniri, "Əqli mülkiyyət hüquqları" ilə bağlı seminar və "İKT karyera trendləri" konfransı keçiriləcək.

# VI Bakı Beynəlxalq Humanitar Forumu

## *Xorxe QANDİNİ:* "Uruqvay Azərbaycan ilə münasibətlərin inkişafında maraqlıdır"

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycanın Latın Amerikası ölkələri, o cümlədən Uruqvayla son illər inkişaf etməkdə olan əməkdaşlıq münasibətlərindən bəhs edib.

Azərbaycana ilk səfərindən məmnunluq bildirən Uruqvay Nümayəndələr Palatasının sədri beynəlxalq əhəmiyyət kəsb edən mövzuların, xüsusilə də mədəniyyətlərarası dialoq mövzusunun müzakirəsi baxımından Bakı Beynəlxalq Forumun əhəmiyyətini vurğulayıb. O, Uruqvayın Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu ifadə edib.

Tərəflər Azərbaycan və Uruqvay arasında əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildiriblər və iqtisadi sferada əməkdaşlıq imkanlarını müzakirə ediblər. İki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası dostluq qruplarının fəaliyyəti yüksək qiymətləndirilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında qarşı tərəfə məlumat verən nazir regionda davamlı sülh və əməkdaşlıq üçün erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarılmasının zəruriliyini vurğulayıb.

Görüş zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycan-Sloveniya əlaqələrinin perspektivləri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Sloveniya Milli Şurasının Sədri Aloyz Kovşka ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər iki ölkə arasında münasibətlərin cari səviyyəsini yüksək qiymətləndiriblər və enerji, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin zəruriliyini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov Sloveniya qanunverici orqanının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sərgilədiyi ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyinə və Sloveniya Milli Şurasının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi qərara görə həmsöhbətinə öz təşəkkürünü bildirib.

Həmçinin tərəflər Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr, xüsusilə "Cənub qaz dəhlizi" çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *BMT Baş katibinin müavini:* "Bu gün Azərbaycan donor ölkəsi qismində çıxış edir"

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində BMT Baş katibinin müavini Rəşid Xalikov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanda olmasından məmnunluğunu bildirən Rəşid Xalikov VI Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilatçılığına görə təşəkkürünü bildirib. Azərbaycanın bu gün donor ölkəsi qismində çıxış etdiyini vurğulayan BMT rəsmisi ölkəmizin humanitar yardım sahəsində fəaliyyətini yüksək qiymətləndirib və bu xüsusda, BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə, eləcə də İndoneziyada baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı Azərbaycan tərəfindən göstərilən yardımları qeyd edib.

Ölkəmizin BMT çərçivəsində həyata keçirilən humanitar layihələrdə fəal iştirak etdiyini bildirən nazir Elmar Məmmədyarov Azərbaycanın yardım alan ölkədən donor ölkəsinə çevirildiyini diqqətə çatdırıb. Bu xüsusda, Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) fəaliyyəti və həyata keçirdiyi humanitar və inkişafa yardım proqramları haqqında qarşı tərəfə məlumat verilib.

Tərəflər, həmçinin BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi ilə Azərbaycan arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparıblar.

## Azərbaycan-Meksika əlaqələri ilə bağlı fikir mübadiləsi aparılıb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər 2018-ci ilin dekabrında Bakıda keçiriləcək Gənc Parlamentarilərin V qlobal konfransının Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın daha da inkişafına təkan verəcəyinə əminliklərini ifadə ediblər. Sözügedən tədbir çərçivəsində dünyanın 178 ölkəsindən gənc parlamentarilərin Azərbaycanda gedən inkişaf proseslərini daha yaxından tanımaq imkanı əldə edəcəkləri xüsusilə qeyd olunub.

Söhbət zamanı Parlamentlərarası İttifaqın prezidenti olmaqla yanaşı, meksikalı deputat olan Qabriela Baron ilə Azərbaycan-Meksika ikitərəfli münasibətləri üzrə fikir mübadiləsi aparılıb. Münasibətlərin inkişafı üçün geniş potensialın mövcud olduğunu qeyd edən tərəflər qarşılıqlı yüksək səviyyəli səfər mübadiləsinin əməkdaşlıq əlaqələrinin daha da inkişafına təkan verəcəyini bildiriblər. Görüşdə eləcə də digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## *Misir Parlamenti sədrinin birinci müavini:* "Azərbaycan beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir"

"Azərbaycanın beynəlxalq səviyyədə möhtəşəm tədbirlərə uğurla evsahibliyi etməsi çox təqdirəlayiqdir. VI Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə Misir xalqı adından minnətdarlığımı bildirirəm."

Bu sözləri AZƏRTAC-a müsahibəsində humanitar forumda iştirak edən Misir Parlamenti sədrinin birinci müavini Əs-Seyyid Mahmud Əş-Şərif söyləyib. O, aktual məsələlərin müzakirəsi baxımından forumun əhəmiyyətini yüksək qiymətləndirib, ölkəsinin bu cür beynəlxalq tədbirlərdə iştirak etməkdə maraqlı olduğunu söyləyib.

Əs-Seyyid Mahmud Əş-Şərif deyib: "İkigünlük beynəlxalq tədbirdə müxtəlif dövlətlərin nümayəndələrinin iştirakı ilə qlobal problemlər müzakirə olunacaq, əhəmiyyətli mövzular ətrafında fikir mübadiləsi aparılacaq, vacib qərarlar qəbul olunacaq. Bütün bunlar dünyada müxtəlif sahələrin inkişafında əhəmiyyətli rol oynayacaq".

Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən qonaq Misirin Azərbaycanla sıx əlaqələri bundan sonra da davam etdirməkdə maraqlı olduğunu söyləyib. O, forumun mədəniyyətlərarası dialoqun inkişafına, xalqlarımız arasında əlaqələrin genişlənməsinə mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

## *Mixail QUSMAN:* "Bakı Beynəlxalq Humanitar Forumu getdikcə daha nüfuzlu və əlamətdar dünya miqyaslı hadisəyə çevrilir"

"Bakı Beynəlxalq Humanitar Forumu çox böyük bir hadisəyə çevrilib. Bu gün haqlı olaraq deyə bilərik ki, Bakı dünyanın humanitar paytaxtıdır." TAAS-ın baş direktorunun birinci müavini Mixail Qusman bu fikirləri VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC-a müsahibəsində söyləyib.

Mixail Qusmanın fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etməsi heç də təsadüfi deyildi. Heç də bütün ölkələrdə bu sahədə uğur qazanmaq mümkün olmur. Azərbaycan tarixən multikultural ölkədir. Burada həmişə tolerantlıq ab-havası hökm sürüb. Azərbaycan dünya mədəniyyətinin ən yaxşı nümunələri üçün daim açıq olub. Multikulturalizm Azərbaycana üzvi şəkildə xas olan cəhətdir, Azərbaycanda həyat tərzidir.

TAAS-ın baş direktorunun birinci müavini deyib ki, Bakı Beynəlxalq Humanitar Forumunun böyük gələcəyi var. Bu forum ilbəil daha nüfuzlu və əlamətdar dünya miqyaslı hadisəyə çevrilir.

## *UNESCO-nun xoşməramlı səfiri:* "Bakı Beynəlxalq Humanitar Forumunda dünyaya önəmli sülh və dostluq mesajları verilir"

"VI Bakı Beynəlxalq Humanitar Forumu yüksək səviyyədə təşkil olunub. Prezident İlham Əliyevin forumun açılışında söylədiyi nitq çox maraqlı idi. Xüsusilə, Azərbaycandakı iqtisadi inkişaf, tolerantlıq barədə maraqlı məlumatlar əldə etdik. Forumun Bakıda keçirilməsi Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından xüsusi əhəmiyyət kəsb edir."

Bu sözləri AZƏRTAC-a müsahibəsində Fransanın tanınmış heykəltəraşı və rəssamı, UNESCO-nun xoşməramlı səfiri, təşkilatın sülh üzrə rəssamı, mədəniyyət diplomatiyasının nümayəndəsi xanım Hedva Ser bildirib.

VI Bakı Beynəlxalq Humanitar Forumunun işini yüksək qiymətləndirən Hedva Ser qeyd edib ki, müxtəlif mədəniyyətlərin nümayəndələrini bir araya gətirən bu forumda dünyaya önəmli sülh və dostluq mesajları verilir. O, forumda səslənən ideyaların, təkliflərin önəmini qeyd edib.

Bakını sevdiyini söyləyən tanınmış memar burada tarixi binalarla yanaşı, möhtəşəm müasir tikililərin də olduğunu vurğuladı.



## *Olqa QOLODETS:* "Bakı Beynəlxalq Humanitar Forumunun miqyasını və əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir"

"Artıq Azərbaycan paytaxtında altıncı dəfədir keçirilən Bakı Beynəlxalq Humanitar Forumunun miqyasını və əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Biz bir çox beynəlxalq forumlarda iştirak edirik, lakin Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentlərinin təşəbbüsü ilə keçirilən Bakı forumu tamamilə unikal əhəmiyyətə malikdir. Axı, bizim gələcək nəsillərin gələcəyi insanların humanitar məsələlərə baxışından, sivilizasiyalar, mədəniyyətlər və dinlər arasında dialoqun inkişafından asılıdır."

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olan Rusiya Federasiyası hökumətinin sədr müavini Olqa Qolodets söyləyib. "Biz ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndiririk və bu münasibətlərin möhkəmlənməsi istiqamətində dövlət başçılarımız tərəfindən geniş tədbirlərin həyata keçirildiyini görürük. Rusiya Azərbaycanla qarşılıqlı faydalı əlaqələr qurulması, o cümlədən humanitar sahədə əməkdaşlıq istiqamətində böyük səylər göstərir. Belə sıx humanitar əlaqələrin mövcudluğu, onların inkişafı və genişlənməsi mehriban qonşuluq münasibətlərinin, iki xalqın mənafeyi naminə bir-birinə hörmətin bariz nümunəsidir. Biz, Rusiya tərəfi, humanitar foruma xüsusi diqqət yetiririk və burada çox böyük nümayəndə heyəti ilə təmsil olunuruq.

Forum çərçivəsində mənim bir sıra ziyarətlərim nəzərdə tutulub. Biz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında olduq və mən bu təhsil müəssisəsində aparılan tədris prosesinə, sizin çoxlu sayda istedadlı gənclərə və onlara dərs deyən peşəkar pedaqoqlara sadəcə, heyran oldum. İrəliyə doğru addımlar məhz ənənələrə böyük ehtiram və buna əsaslanan yaxşı, keyfiyyətli məktəb bazasında atılır. Biz qarşılıqlı faydalı əlaqələrin qurulması üçün bütün tədbirləri həyata keçirəcəyik, sizin istedadlı tələbələri İ.E.Repin adına Sankt-Peterburq Dövlət Akademik Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq Institutuna dəvət edəcəyik. Bununla yanaşı, burada ustad dərsləri keçirməyi, iki ölkənin incəsənət və humanitar sahələrdə əməkdaşlığının inkişafı naminə yaxşı əməkdaşlıq proqramı hazırlamağı nəzərdə tuturuq" - deyə Rusiya hökuməti sədrinin müavini əlavə edib.

Mədəniyyət və idman sahələrində Azərbaycan-Rusiya layihələrinin perspektivlərinə toxunan Olqa Qolodets qeyd edib ki, iki ölkə arasında çoxlu birgə layihələr həyata keçirilir. "İncəsənətə, mədəniyyətlərin qovuşmasının ərsəyə gətirdiyi layihələrə böyük diqqət yetirilir və biz onları davam etdirməliyik. Bu yaxınlarda Tretyakov qalereyasında iki ölkənin səyləri və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Abşeron ulduzları" sərgisini xüsusilə qeyd etməliyəm. Sərgiyə unikal sayda ziyarətçi gəlmişdi. Bu, möhtəşəm mədəniyyət layihəsidir. Həmçinin Böyük Teatrda Arif Məlikovun məşhur "Məhəbbət əfsanəsi" əsəri səhnələşdirilib. Əgər siz Moskvaya gəlsəniz, bu tamaşaya bilet tapa bilməyəcəksiniz, çünki onlar cəmi bir saat ərzində satılıb qurtarır. Biz həmçinin gənclərlə bağlı birgə proqramların həyata keçirilməsi sahəsində daha fəal əməkdaşlıq etməyi nəzərdə tuturuq. Məsələn, əməkdaşlığımız çərçivəsində Azərbaycandan 100 məktəblini Sankt-Peterburda təşkil olunacaq mədəniyyət proqramına dəvət etməyi planlaşdırırıq. Hesab edirik ki, bu tədbirlər çox mühümdür və Azərbaycan Prezidenti Rusiyanı gənclərin öz aralarında Asiya və Avropanın, o cümlədən Qafqazın gələcək inkişafını müzakirə edə bilməsi və mədəniyyətlərin kəsişmə nöqtəsini tapmaları üçün rusiyalıların gənclərlə bağlı xüsusi proqramlarda iştirak etməsi məsələsini birlikdə həll etməyə dəvət edib" -deyə Rusiya Federasiyası hökumətinin sədr müavini sözlərinə yekun vurub.

## *Laura SÜLEYMAN:* "Humanitar Forum problemlərin həllinin, inkişafın yollarının müzakirə edilməsi üçün mühüm platformadır"

"Bakı Beynəlxalq Humanitar Forumu bütün dünya üçün böyük əhəmiyyət daşıyır. Altıncı dəfədir keçirilən forumda humanitar sahə üzrə müxtəlif əhəmiyyətli mövzular müzakirə edilir. Humanitar forumun əhəmiyyəti ondan ibarətdir ki, burada media ilə bağlı mühüm məsələlərin müzakirəsi də diqqət mərkəzində olur. Dünyanı yalnız humanizm qoruya və xilas edə bilər. Bu forum problemlərin həllinin, inkişafın yollarının müzakirə edilməsi üçün mühüm platformadır."

Bu fikirləri AZƏRTAC-a müsahibəsində humanitar forumda iştirak edən Livanın NNA agentliyinin direktoru xanım Laura Süleyman söyləyib.

Azərbaycanda humanitar əməkdaşlığa dair bir sıra tədbirlərin keçirildiyini deyən qonaq humanitar forumda iştirakından məmnunluğunu bildirib. O, forumun AZƏRTAC tərəfindən təşkil edilən "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyasında cəmiyyətin yanlış məlumatlandırılmasının ağır fəsadları, bunun dünyada sülh və sabitlik üçün yaratdığı təhlükələr barədə müzakirələrin aparılacağını söyləyib. Xanım Laura Süleyman müasir dövrdə belə mövzulara diqqət yetirilməsinin önəmini vurğulayıb.

## *Halit EREN:* "Bakı Beynəlxalq Humanitar Forumu aktual problemlərin müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb edir"

"Artıq altıncı dəfədir ki, təşkil edilən Bakı Beynəlxalq Humanitar Forumu mədəniyyətlərarası dialoqa böyük töhfə verir. Forumda müzakirə edilən mövzular dövrümüzün aktual problemlərini əhatə edir və burada onların həlli istiqamətində vacib fikir mübadiləsi aparılır."

Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı olan İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru Halit Eren deyib.

Halit Eren bildirib ki, forum dünyanın bir çox ölkələrindən mütəxəssisləri, dövlət və hökumət rəsmilərini, ictimai-siyasi xadimləri, elm adamlarını, beynəlxalq təşkilatların təmsilçilərini bir araya gətirib. Aktual problemlərin həlli, dünyada yaşanan humanitar böhranların aradan qaldırılması istiqamətində yolların araşdırılması üçün belə platformaların təşkili olduqca mühüm əhəmiyyət kəsb edir. Bu cür beynəlxalq miqyaslı tədbirlər ölkələr və xalqlar arasında əlaqələri daha da möhkəmləndirir.

## *Kalle LAANET:* "Bakı Beynəlxalq Humanitar Forumu təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün vacib tədbirdir"

"İlk dəfədir ki, Bakı Beynəlxalq Humanitar Forumuna qatılıram. Bu forum haqqında əvvəllər məlumatım az idi. Lakin bu dəfə şəxsən iştirak etməklə forumun təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün nə qədər vacib bir tədbir olduğunu gördüm. Burada çox önəmli mövzular müzakirə olunur."

Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Estoniya Parlamentinin vitse-spikeri Kalle Laanet söyləyib.

Kalle Laanet bildirib ki, VI Bakı Beynəlxalq Humanitar Forumuna 90-dan çox ölkədən nümayəndələr qatılıblar. Bu, o deməkdir ki, müzakirə etdiyimiz bütün mövzular həmin ölkələrə çatdırılacaq. "Mən forum çərçivəsində AZƏRTAC tərəfindən təşkil edilən işçi sessiyada yanlış məlumatlandırma siyasəti haqqında danışacağam. Biz rəqəmsal dünyada yaşayırıq. Kim daha çevik olarsa, o da qalib olacaq. Bunun üçün isə bizə strategiya lazımdır" - deyə o bildirib.

Parlament sədrinin müavini deyib ki, Estoniya və Azərbaycan kimi kiçik dövlətlər dünyaya mesaj vermək üçün imkan axtarırlar. Bu forum mesajların dünyaya çatdırılması üçün həmin imkanlardan biridir.

# "ISESCO ASAN mükafatı" təsis olunub

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə ISESCO arasında Birgə Əməkdaşlıq Proqramı imzalanıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri çıxış ediblər.

Ülvi Mehdiyev Birgə Əməkdaşlıq proqramının mahiyyəti haqqında məlumat verərək bildirib ki, ikitərəfli əməkdaşlığın əsası keçən il noyabrın 10-da Anlaşma Memorandumunun imzalanması ilə başlanıb. Yeni imzalanacaq sənəd ISESCO-nun 2019-2021-ci illərdə üzv ölkələrdə sektorial idarəetmənin təkmiləşdirilməsi və inkişaf etdirilməsi məqsədi daşıyır. Həmçinin "ASAN xidmət" və ISESCO tərəfdaşlığını əks etdirən İnkişaf naminə idarəetmə beynəlxalq təşəbbüsünün irəli sürülməsi, şirkətlərin biznes inkişafı və idarəetmənin yüksəldilməsi məqsədilə xüsusi "ASAN xidmət" məhsullarının formalaşdırılması da proqramda nəzərdə tutulub. Agentliyin sədri "ISESCO ASAN mükafatı"nın təsis edildiyi barədə məlumat verərək deyib ki, onu münsiflər heyətinin rəyinə əsasən, üzv dövlətlərdə innovasiyaları əks etdirən təcrübələr üçün təqdim edəcəklər.

ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri "ASAN xidmət"in bir Azərbaycan brendi olduğunu qeyd edərək, Birgə Əməkdaşlıq Proqramından sonra onun intellektual məhsul kimi digər dövlətlərə ixrac olunmasının asanlaşacağını deyib. Sonra Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri sənədi imzalayıblar.

İmzalanma mərasimindən sonra jurnalistlərin sualları cavablandırılıb.

*ISESCO-nun baş direktoru:*

# "Azərbaycan sülhün, sabitliyin mərkəzidir"

"IV Bakı Beynəlxalq Humanitar Forumunda müasir dünyamız üçün çox vacib olan məsələlər müzakirə edilir. Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir.



Azərbaycan sülh, təhlükəsizlik məsələlərində mühüm işlər həyata keçirib. Prezident İlham Əliyev dünya miqyaslı liderdir. O, ölkəsinin inkişafı üçün mütərəqqi addımlar atır. Mən 2004-cü ildən buraya gəlirəm və bütün bu proseslərin şahidiyəm. Sürətlə inkişaf edən Azərbaycan sülhün, sabitliyin mərkəzidir."

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri bildirib.

Baş direktor Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlığın qurulduğunu qeyd edib, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini bildirib.

# D.Trampdan İlham Əliyevə növbəti dəstək

## İlham Əliyevlə daha sıx işbirliyi məramını bir daha bəyan edən ABŞ Azərbaycanla münasibətlərin strateji əhəmiyyətini yüksək dəyərləndirir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev bu il iyulun 8-də Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında iki ölkə arasında olan münasibətləri dəyərləndirərkən bu məsələyə toxunaraq demişdi ki, ABŞ ilə Azərbaycanın əlaqələri yeni mərhələyə yüksəlib: "Amerika Prezidenti cənab Donald Tramp aprel-may aylarında mənə üç məktub ünvanlamışdır. Seçkilərlə, ondan sonra Xalq Cümhuriyyətinin 100 illiyi və "Cənub qaz dəhlizi"nin rəsmi açılışı ilə bağlı göndərilən məktublar Amerika hökumətinin Azərbaycana olan münasibətini, hörmətini göstərir. Məktublarda çox dəyərli sözlər ifadə edilmişdir və biz çox şadıq ki, bu gün Amerika-Azərbaycan əlaqələri öz əsl mahiyyətini əks etdirir. Əminəm ki, gələcək illərdə bu əlaqələr daha da möhkəmlənəcək".

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp dövlət başçısına ünvanladığı məktubda vurğulayırdı ki, Amerika və Azərbaycan xalqları üçün qarşılıqlı maraq doğuran bir çox sahələrdə İlham Əliyevlə birgə işləmək əzmindədir: "Biz Sizinlə birlikdə terrorçuluğun məğlub edilməsində, yeni iş yerlərinin yaradılmasında və Avropanın enerji təhlükəsizliyinin yaxşılaşdırılmasında tərəqqi əldə edə bilərik. Korrupsiyaya qarşı mübarizədə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində irəliləyiş bu səylərə töhfə verəcək", - deyə Donald Trampın məktubunda qeyd edilirdi.

Oktyabrın 24-də ölkəmizdə səfərdə olan ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlər də bir daha təsdiq edir ki, ABŞ-Azərbaycan münasibətləri strateji əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevlə keçirdiyi görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan C.Bolton Azərbaycanın terrorizmə qarşı mübarizə çərçivəsində Əfqanıstandakı əməliyyatlara verdiyi töhfəsinin yüksək qiymətləndirildiyini qeyd edib. Müşavir Azərbaycan Prezidenti ilə ABŞ-Azərbaycan əməkdaşlıq əlaqələrinin müxtəlif aspektləri, dünya enerji bazarında ölkəmizin rolu, terrorizmə, insan alverinə, narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə, insan haqları, habelə regionda cərəyan edən siyasi və iqtisadi proseslər, region ölkələri ilə münasibətlər və digər məsələlər ətrafında müzakirələr aparıb.

ABŞ-Azərbaycan münasibətlərinin daha da yaxınlaşmasını təsdiqləyən faktlara nəzər yetirsək görərik ki, bu ölkənin bir çox şirkətləri uzun illərdir investor və podratçı qismində Azərbaycanda enerji və qeyri-enerji sektorlarında uğurlu fəaliyyət göstərir.

Hazırda Azərbaycanda sənaye, tikinti, rabitə, bank və s. sahələrdə 240 ABŞ şirkəti fəaliyyət göstərir. ABŞ Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Bu ilin yanvar-iyun aylarında ölkələrimiz arasında ticarət dövriyyəsi 476,1 milyon dollar təşkil edib. İndiyədək ABŞ tərəfindən Azərbaycan iqtisadiyyatına 13 milyard dollardan çox investisiya qoyulub ki, bunun da 1 milyard dollardan çoxu qeyri-neft sektoruna yönəldilib.

Energetika sahəsində Azərbaycan ilə ABŞ arasında yüksək səviyyədə əməkdaşlıq həyata keçirilir ki, bunun da nəticəsində nəhəng qlobal layihələr reallaşır. Bu da, öz növbəsində, regional inkişafa töhfəsini verir.

Bu layihələr sırasında "Cənub qaz dəhlizi" böyük önəm daşıyır. 40 milyard dollar həcmində və Avropanın ən böyük infrastruktur layihəsi olan "Cənub qaz dəhlizi"nin tikintisi başa çatmaq üzrədir və Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə və regional sabitliyə öz töhfəsini verəcək.

Bundan başqa, Azərbaycan Qətiyyətli Dəstək missiyasına da öz töhfəsini verməkdədir. Belə ki, ölkəmiz Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir və bu yaxınlarda əməliyyatlarda iştirak edən hərbçilərimizin sayı 120 nəfərə qədər artırılıb. Bu da Qətiyyətli Dəstək missiyasına Azərbaycanın verdiyi töhfənin yaxşı göstəricisidir. Onu da vurğulayaq ki, Azərbaycan bu əməliyyatlara mühüm nəqliyyat və logistik dəstəyi də verir.

Görünən odur ki, ABŞ hökuməti Azərbaycanla enerji sahəsində, eləcə də başqa istiqamətlərdə, o cümlədən beynəlxalq terrorizm, insan alverinə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək əzmindədir. ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən milli dövlətçilik kursunun dönməzliyi ilə əlaqədardır. Bu iki dövlətin strateji müttəfiqliyinin getdikcə yaxşılaşması, əməkdaşlığının genişlənməsi və əlaqələrinin möhkəmlənməsi bütövlükdə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***


BP Azəri Mərkəzi Şərqi (AMŞ) layihəsinin operatoru kimi bildirir ki, AMŞ layihəsinin Ətraf Mühitə və Sosial Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantı ilə əlaqədar ictimaiyyətlə görüş keçiriləcək.

bp

BP nəzərdə tutulan AMŞ üzrə ƏMSSTQ sənədini müzakirə etmək üçün bütün maraqlı tərəfləri bu açıq görüşdə iştirak etməyə dəvət edir. İctimaiyyətlə görüşlərin təfərrüatları aşağıda təqdim olunur:

**HOLIDAY INN mehmanxanası (Kövkəb xanım Səfərəliyeva küçəsi 5 Bakı, Azərbaycan AZ 1010), Bakı-2 iclas zalı**

**Çərşənbə, 31 oktyabr 2018-ci il**
**saat 10:00-dan 13:00-dək**

Görüşdə BP tərəfindən təqdimatlar veriləcək və auditoriya üçün suallar verməyə və şərhlər bildirməyə imkan yaradılacaq.

**11 sentyabr tarixindən etibarən AMŞ üzrə ƏMSSTQ sənədlərinin nüsxələri və rəy formaları ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda yerləşdirilib:**

- BP-nin Bakıda yerləşən Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi, Neftçilər prospekti 153
- Ümid qəsəbəsi, 294 nömrəli orta məktəb
- Ümid qəsəbəsi, 7 nömrəli orta məktəb
- Səngəçal qəsəbəsində yerləşən dövlət kitabxanası, Qaradağ rayonu, M.A.Sabir küçəsi 1, 5 nömrəli mərkəzi kitabxana
- Sahil qəsəbəsində yerləşən dövlət kitabxanası, E. Quliyev küçəsi, 2 nömrəli mərkəzi kitabxana
- M.F. Axundov adına Milli Kitabxana, Xaqani küçəsi 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, B. Ağayev küçəsi 100a

Bundan əlavə, Azərbaycan və ingilis dillərində sənədin tam layihə variantı və qısa xülasəsi BP-nin veb səhifəsində (www.bp.com/caspian) yerləşdirilib.

BP şirkəti ƏMSSTQ sənədinin layihə variantına dair bütün şərhləri alqışlayır. Şərhlərinizi www.bp.com/caspian ünvanlı veb səhifəmizə daxil olmaqla və esiafeedback@bp.com ünvanına elektron məktub göndərməklə təqdim edə bilərsiniz.

Əlavə məlumat üçün BP-nin Qaydalar və icazələrin alınması üzrə məsləhətçisi Səadət Qafarova ilə əlaqə saxlaya bilərsiniz: (012) 499 43 29/0552259013, e-poçt ünvanı: esiafeedback@bp.com


# Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüş olub

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən komandanın təbliğatı üçün oktyabrın 25-də "Zəfər günləri" adlı tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə və Xəzər İsayev, komitənin baş katibinin müavini Azər Əliyev və idman federasiyalarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarından bəhs edən videoçarx nümayiş olunub.

Çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb və atletlərimizin beynəlxalq arenada çıxışını yüksək qiymətləndirib. Qeyd edib ki, medal qazana bilməyən digər idmançılarımız da əzmkarlıqla mübarizə apardılar. Atletlərimiz və tennisçilərimiz də çox yaxşı çıxış etdilər. Bu dəfə qazanılan 7 medalın hər biri fərqli idman növü üzrədir. İndiyədək belə nəticə olmayıb. Bu məqam Azərbaycanda idmanın inkişafından, yüksək səviyyədə olmasından xəbər verir. "Gimnastımızın qarışıq komandanın tərkibində qızıl medal qazanmasını xüsusi qeyd edərdim. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya təşəkkürümü bildirirəm. Bütün idmansevərləri təbrik edirəm", - deyə o əlavə edib.

Sonra "Buenos-Ayres-2018"də iştirak edən idmançılarımıza olimpiya diplomları təqdim olunub.



Olimpiya komandamızın olimpiadadakı çıxışından bəhs edən videoçarxın nümayişindən sonra "Buenos-Ayres-2018"in fəxri kürsüsündə yer alan idmançılara olimpiya diplomu və xüsusi mükafat verilib.

Tədbir bədii hissə ilə davam edib.

On yeddi idmançı ilə olimpiadaya yollanan milli komandamız 2-si qızıl, 1-i gümüş və 3-ü bürünc olmaqla 6 medal qazanıb. Qızıl medalları Azərbaycanın aktivinə cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) yazdırıblar. Ağırlıqqaldırma yarışında çıxış edən Tarmenxan Babayev (85 kq) olimpiadanın gümüş medalına sahib olub. Bürünc medallara isə taekvondoçu Cavad Ağayev (63 kq), boksçu Nurlan Səfərov (60 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) layiq görülüblər. Bədii gimnastımız Yelizaveta Luzanın olimpiadada qarışıq komandanın tərkibində qazandığı qızıl medal millimizin aktivinə yazılmayıb. Beynəlxalq Olimpiya Komitəsinin qərarına əsasən onun medalı ümumi sıralamada komandamızın hesabında göstərilməyib. Beləliklə, Azərbaycan milli komandası olimpiadanın medal sıralamasında 33-34-cü yerləri bölüşüb.

Qeyd edək ki, "Bakı-2015" ilk Avropa Oyunları və "Bakı-2017" IV İslam Həmrəylik Oyunlarından sonra MOK artıq üçüncü dəfədir ki, "Zəfər günləri"ni təşkil edir.

# Fransa təmsilçilərinin hərəkətlərinə görə məsuliyyət daşımalıdır

*Əvvəli 1-ci səh.*

Onlar indi də alət olaraq qalırlar. Amma yenə də nəyəsə nail ola bilmirlər. "Erməni soyqırımı"nın dünyada tanınmasına dəstək qazanmaq üçün Fransadakı erməni icması "fədakarlıq" nümayiş etdirərək ümummilli və yerli seçkilər zamanı siyasətçilərin və siyasi təşkilatların seçkiqabağı təşviqat kampaniyalarına sponsorluq etmək missiyasını məmnuniyyətlə həyata keçirir. Türkiyə hökuməti bu tipli fransız-erməni əməkdaşlığına elə bir əhəmiyyət vermir, çünki tarixi təcrübə göstərir ki, əməkdaşlığın yeganə məqsədi bu və ya digər siyasətçinin, yaxud siyasi təşkilatın kampanıiyanı maliyyələşdirmək üçün erməni icmasından mümkün qədər çox pul qoparmaq və seçici səsi almaqdır. Seçkilər başa çatdıqdan sonra isə erməni seçicilərinə verilmiş vədlər sürətlə unudulur. Növbəti seçkilər çatar-çatmaz hər şey yenidən təkrarlanır.

Görünür, fransız siyasətçilərinin ermənilərdən alət kimi istifadə etmələri onları o qədər məmnun etmişdir ki, şəxsi siyasi məqsədləri üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də faydalanmağı qərarlaşdırmışlar. Əlbəttə, hər hansı siyasətçi seçiciləri tərəfinə çəkmək üçün müxtəlif vasitələrə əl ata bilər, amma bir şərtlə ki, bu fəaliyyət qanunvericiliyə zidd olmamalıdır. Lakin fransız siyasətçiləri, deyəsən, özlərinə o qədər aludə olublar ki, qanunu saymağı yaddan çıxarıblar. Belə olmasaydı, Fransanın ayrı-ayrı yaşayış məntəqələrinin merləri və bələdiyyə başçıları Azərbaycan Respubikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsini və digər ərazilərini su yoluna çevirməzdilər. Təkcə ötən bir ay ərzində Fransanın dörd bələdiyyəsinin (Alforvil, Valans, Sent-Etyen və Arnuvil) başçıları işğal edilmiş ərazilərimizə səfər etmişlər. Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən və erməni lobbisinin təsiri altında olan Fransa Milli Assambleyasının sabiq deputatı Fransua Roşbluanın, habelə Fransada fəaliyyət göstərən erməni separatçıları ilə "dostluq dərnəyi"nin digər üzvlərinin belə səfərlərə qoşulması onların sifarişli xarakter daşıdığını açıq-aşkar nümayiş etdirir.

Fransa bələdiyyələrinin başçıları və onların dəmtutanları bilməmiş deyillər ki, onların Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərləri beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də Azərbaycan qanunlarını kobud şəkildə pozmaq və Ermənistanın gücdən istifadə etməklə işğal etdiyi ərazilərimizdə yaratdığı separatçı rejimə xidmət etmək deməkdir.

Fransa bələdiyyə başçıları müstəqil dövlətin işğal olunmuş ərazilərinə səfər edərkən hədlərini o qədər aşıblar ki, mənəvi-etik çərçivədən kənara çıxaraq separatçı rejimin hərbi təcavüz və qanlı etnik təmizləmənin nəticəsi olmasına belə göz yumublar. Fransadan Qarabağa gəlmiş çağırılmamış qonaqların işğaldan əvvəl azərbaycanlıların yaşadığı Şuşa və Laçın şəhərlərinin hazırkı qondarma yerli hakimiyyətləri ilə "bəyannamə"lər imzalaması insanlığa qarşı cinayət sayılan etnik təmizləmə siyasətinə dəstək verilməsi mənasına gəlir.

Fransanın yerli özünüidarəetmə orqanları rəhbərlərinin bu cür təxribatçı əməlləri Bakı və Paris arasında imzalanmış sazişlərin ruhu ilə, eləcə də Fransanın milli qanunvericiliyi ilə bir araya sığmır. Belə ki, Fransanın xarici işlər və Avropa məsələləri üzrə naziri və daxili işlər naziri tərəfindən bu il mayın 24-də yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi üzrə imzalanmış təlimat bu qurumları Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır və Fransa tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı şəkildə müqavilələr bağlamaq, səfərlər həyata keçirmək və birgə tədbirlər təşkil etməyi qadağan edir. Fransa Konstitusiyasının 73-cü maddəsi və Yerli Özünüidarəetmə Qurumlarının Ümumi Kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq qəbul edilmiş və qüvvədə olan bu təlimat məcburi xarakter daşıyır.

Çox təəssüf ki, məlum olmayan səbəblərdən Fransa hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələsinə münasibətdə bu sənədin müddəalarının dərhal və qeyd-şərtsiz həyata keçirilməsi üçün müvafiq addımların atılması istiqamətində qətiyyət göstərmir. Halbuki bir normal dövlət kimi Fransa təmsilçilərinin hərəkətlərinə görə məsuliyyət daşımalı və qanunu pozan vətəndaşları barədə tədbir görməlidir.

Eyni zamanda Fransa yerli özünüidarəetmə orqanlarının qanunsuz hərəkətləri Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli prosesinə yardım etmir, Fransanın vasitəçi nüfuzuna ciddi xələl gətirir və ona etimadın ciddi şəkildə sarsılmasına xidmət edir.

Bir məqamı da qeyd etmək lazımdır ki, Fransa Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağdakı separatçı rejimi tanımadığı barədə verdiyi bəyanat qənaətbəxş sayıla bilməz. Belə ki, Fransa nəinki separatçılığı tanımamalı, həm də BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq Ermənistan qoşunlarının Azərbaycanın işğal altında olan ərazilərindən çıxarılmasını tələb etməlidir.

Yeri gəlmişkən, özünü mühacir adlandıran bəzi Azərbaycan vətəndaşları Fransanın ərazisində yerləşərək ölkəmizdə terrora və zorakılığa çağıran bəyanatlarla çıxış edirlər. Lakin Fransa hökuməti bu bədniyyətli şəxslərin fəaliyyətinin qarşısını almaq üçün heç bir hüquqi tədbir görmür.

Azərbaycan Fransa ilə əlaqələrinə xüsusi diqqət yetirir və ikitərəfli əməkdaşlığın genişləndirilməsi naminə əlindən gələni əsirgəmir. Fransız şirkətləri ölkəmizdə dövlət sifarişi ilə həyata keçirilən çoxsaylı layihələrdə iştirak edir. Bu layihələrin dəyəri 2 milyard avroya yaxındır. Amma bunun müqabilində Fransanın ikitərəfli əməkdaşlıq, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində tutduğu mövqe məqbul sayıla bilməz. Ona görə də Fransa Azərbaycana münasibətdə bu cür mövqeyini sərgiləməkdə davam etdirsə, Azərbaycan hökuməti Fransa şirkətləri ilə əməkdaşlığa yenidən baxa bilər.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***



# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI III DÖVLƏT PROQRAMI



## Sərhəd kəndlərində

# Həyat axarınca gedir

Ermənistanla həmsərhəd olan Qazax rayonunun sərhəd kəndlərində bu gün də gərginlik səngimir. Lakin sakinlər buna alışdıqları üçün narahatlıq keçirmir, gündəlik məişət qayğıları ilə yaşayırlar.





Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşova sərhəd kəndlərinə getmək istəyimizi bildirəndə dedi ki, bu yaxınlarda Məzəm və Quşçu Ayrım kəndlərində olan 95 evin qarşısına istinad divarı çəkdirmişik. Əvvəllər sakinlər gərginlik içərisində yaşayırdılar. Onlar nəinki otlaq sahələrinə, əkin yerlərinə çıxa bilir, hətta evlərində rahat yaşaya bilmirdilər. Bu günlərdə həmin kəndlərə yenə baş çəkdik, əhali ilə görüşüb söhbət etdik. Hamı ölkə rəhbərinə minnətdarlıq etdi. Dedilər ki, düşmən gülləsi onları qorxuda bilməz.

...Rayon mərkəzindən 28 kilometr məsafədə yerləşən Məzəm və Quşçu Ayrım kəndləri düşmənin beş addımlığındadır. Dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində sərhəd kəndlərinə gedən yol yenidən qurulmuş, yol boyu yaşayış məntəqələrinin ünvanı olan lövhələr vurulmuş, su keçidlərində kiçik körpülər salınmış, işıqlandırma qurğuları quraşdırılmışdır.

Bələdçimiz, rayon icra hakimiyyətinin məsul işçisi Sərdar Orucov yolda ərazini göstərərək dedi ki, sol tərəfdə gördüyünüz əkin sahələri ermənilərə, sağ tərəfdəki əkin sahələri azərbaycanlılara məxsusdur. Lakin ermənilər bu ərazilərin əkilib-becərilməsində istifadə olunan suyu azərbaycanlılara məxsus gölə buraxmadıqları üçün bizim əhali torpaqlardan səmərəli istifadə edə bilmir.

Məzəm kəndi ilə Quşçu Ayrım kəndi eyni ərazi nümayəndəliyinə daxildir. Aralarında cəmi 9 kilometr məsafə var. Məzəmin 370, Quşçu Ayrımın 1087 nəfər əhalisi var. Məzəm kəndi Ermənistanla 11 kilometr, Quşçu Ayrım kəndi 9 kilometr həmsərhəddir. Hər iki kənddə sakinlərin əsas məşğuliyyətləri əkinçilik və heyvandarlıqdır. Əkin sahəsi 585 hektardır. Sakinlər hər il sahələrdən bol məhsul götürürlər. Keçən il 170,1 ton taxıl götürmüş, hər hektardan məhsuldarlığı orta hesabla 36,2 sentnerə çatdırmışlar. Bu ilin göstəriciləri də yüksək olub. 88 hektar sahədə buğda əkən sakinlər orta hesabla hər hektardan 36,6 sentner buğda biçmişlər.







Heyvandarlıq sahəsində də uğurlu göstəricilərə nail olunmuşdur. Keçən il iribuynuzlu mal-qaranın baş sayı 790 olduğu halda, cari ildə bu rəqəm 800 başa çatdırılmışdır. Xırdabuynuzlu heyvanların da baş sayında artım qeydə alınmışdır. İndi kəndlərdə 4970 baş qoyun və keçi var. Bu da keçən illə müqayisədə 110 baş çoxdur.

Kəndlərdə arıçılığa maraq da artıb. Dövlət başçısının sərəncamına əsasən hər arı ailəsinə 10 manat subsidiyanın verilməsindən ruhlanan kənd sakinləri arı ailələrinin sayını xeyli çoxaldıblar.

Biz kənddə olanda tam sakitlik idi. Məzəm kəndinin mərkəzi hissəsindəki böyük çinar ağacının altında bir neçə kənd ağsaqqalı oturub söhbət edirdi. Yaxınlaşıb salamlaşdıq. Bizə də oturmağa yer göstərdilər. Söhbətə kənd ağsaqqalı Süleyman Süleymanov başladı. Dedi ki, bir oğul, iki qız böyüdüb. Oğlu hərbçidir. Başqa yerdə xidmət etməsinə baxmayaraq, ailəsi Məzəmdə yaşayır. Süleyman kişi də uzun illər kəndin müdafiəsində olub. Ailəsi heç nədən korluq çəkmir. Qapısında mal-qarası, toyuq-cücəsi, xeyli arı ailəsi var.

Söhbət əsnasında "Allah Prezidentimizin canına sağlıq versin, - dedi. - 1990-cı illəri bugünlə müqayisə edəndə çox əmin-amanlıqdır. Ermənilər tez-tez kəndi atəşə tuturdular. Nəticədə uşaqlarımız təhlükə ilə üzləşirdi. Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov kəndimizə gəlib bizimlə görüş keçirəndə vəziyyəti danışdıq. Həm Məzəmi, həm də Quşçu Ayrım kəndini gəzib istinad divarı çəkilməsinə ehtiyac duyulan evlərin siyahısını hazırlatdı. Bir neçə ay ərzində 95 evin qarşısında hündürlüyü 3 metrə yaxın olan müdafiə divarı çəkildi. Kəndlərdəki sosial binaların - məktəb, tibb və polis məntəqələrinin, poçt binasının da təhlükəsizliyi təmin edildi. İndi çox rahatıq. Gündəlik həyatımızla məşğuluq. Dolanışığımız da pis deyil. Rayon rəhbərliyi tez-tez kəndə baş çəkir. Bu günlərdə kəndə gələndə icra başçısından əkin sahələrinin suvarılması üçün yaranan su probleminin həllini xahiş etdik. Çox çəkmədi ki, bir qrup mütəxəssis gəlib məsələni araşdırdı. Məlum oldu ki, Məzəm gölündən su çəkən nasos sıradan çıxıb. Problem qısa vaxtda həll edildi. Kəndə elektrik enerjisinin dayanıqlı olması üçün hazırda SİB kabel xətti çəkilir".

Quşçu Ayrım kəndində də sakinlər dövlət səviyyəsində onlara göstərilən hərtərəfli qayğıdan razılıq etdilər. Kəndin işıq, qaz, su, yol sarıdan problemi yoxdur. Kənd məktəbi üçün müasir bina da inşa edilib. Məktəbin direktoru Cəbrail Osmanov dedi ki, gözəl məktəb binası tikilib. Tədrisin keyfiyyətlə aparılması üçün bütün şəraitimiz var. Bu yaxınlarda müəllim və şagirdlərin təhlükəsizliyi üçün məktəbin qarşısına istinad divarı çəkilib.

Məzəm kəndinin sakini Bəhruz Süleymanov 18 il polisdə xidmət edib. Xidmət dövrünün çox hissəsi Məzəm kəndinin müdafiəsində keçib. Torpaqlarımızın toxunulmazlığı uğrunda gedən müharibədə qardaşı Şahin Süleymanov şəhid olub. Həmin dövrdə Azərbaycan Ordusunda topçu olub. Onun şücaətindən indi də danışırlar.

Bəhruz Süleymanovun 8 baş mal-qarası, 12 arı ailəsi var. Keçən il 100 kiloqramdan çox bal götürüb. Deyir ki, balın keyfiyyəti yüksək olduğundan qapıda satılır. Bundan başqa, 30 sota yaxın meyvə bağı var. Hər il olduğu kimi, bu il də bağdan xeyli gəlir əldə etmişdir.

Kənddə ən çox arı saxlayan sakinlərdən biri də Məmməd Əliyevdir. Onun həyətində 32 arı ailəsi var. Arıçılığın inkişafına göstərilən dəstəkdən ruhlanan Məmməd arı yeşiklərinin sayını artırmaq fikrindədir.

Kənd sakini Muxtar Məmmədovla isə otlaq sahəsində rastlaşdıq. Çoxlu sayda mal-qara, qoyun-quzu otaran Muxtar dedi ki, bunlar kənd camaatınındır. Növbə ilə otarırıq. Sürüdə özünün iki inəyi və 10 qoyunu var. İnşaatçıdır, kənd sakinləri müraciət edəndə hörgü və suvaq işləri də görür.

Beləcə, Qazaxın sərhəd kəndlərində insanlar gündəlik iş-gücləri ilə məşğul olur, həyat öz axarınca gedir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şabran üzümü adla deyilir



Şabranda son illər aparılan abadlıq-quruculuq işləri nəticəsində rayonun siması tamamilə dəyişir. Yeni müəssisələr, rahat yollar, müasir infrastruktur rayonun ucqar dağ kəndlərini belə əhatə edir. Eyni zamanda kənd təsərrüfatı sahəsində əldə edilən uğurlar da çoxdur.

Bu gün Şabranın iqtisadiyyatında üzümçülük xüsusi yer tutur. Sovet dönəmində bu sahə inkişaf etmiş, hektarlarla yeni bağlar salınmışdı. Həmin dövrdə Şabran bağlarından yığılan tonlarla üzüm yerli istehsal müəssisələri ilə yanaşı, keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə də göndərilirdi. Amma məlum səbəblərdən 90-cı illərin əvvəllərində bu sahə tamamilə dağıdıldı. Üzüm bağlarının yerində göz dağlayan mənzərə yarandı.

Üzümçülüyə diqqət yenidən artıb. Bununla bağlı qəbul olunmuş dövlət proqramı bu sahəni kənd təsərrüfatının prioritet sahəsinə çevirib. Şabranda üzüm bağlarının həcmi 398 hektara çatıb.

Rayonda üzümlə məşğul olan ixtisaslaşmış iki təsərrüfat fəaliyyət göstərir. Ağbaş kəndindəki 121 hektarda yeni üzüm sortları yetişdirilir. Gəndob qəsəbəsində isə 125 hektar üzüm bağı salınıb. Burada üzümçülüklə məşğul olan "Dostluq" və "Turac" təsərrüfatları var. Gəndobda həmçinin 12 min tonluq saxlama anbarı tikilib. Bağlardan dərilən üzüm həmin anbarlara daşınır.

Bunlardan əlavə, fərdi təsərrüfatlarda da üzüm becərilir. Həmin təsərrüfatların məhsulları Rusiya Federasiyasına və Qazaxıstana göndərilir. Kiçik təsərrüfatlarda da üzüm yetişdirilir.

Hazırda rayonda hələ bar verməyən on hektarlarla üzüm plantasiyaları da var. Bu hesaba gələn il üzüm bağlarının həcminin 410 hektara çatacağı gözlənilir. Həmçinin Ağbaş, Aygünlü, Dəvəçi, Gəndob kəndlərində yeni təsərrüfatların yaradılacağı nəzərdə tutulub.

***Akif ƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Bol fındıq yetişdirməyin şərti sadədir



Azərbaycanda qeyri-neft sektoru üzrə ixracyönümlü məhsullar arasında fındıq xüsusilə seçilir. Son illər bu sahəyə dövlət dəstəyinin artırılması istiqamətində müxtəlif tədbirlər görülür. Keçən il avqust ayının 4-də Qaxda Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində bu məsələ xüsusi olaraq qabardılmışdı. Dövlət başçısı müşavirədə növbəti bir neçə il ərzində fındıq bağlarının sahəsinin 80 min hektara çatdırılmasının real olduğunu bildirmişdi.

Tədbirdə həmçinin fındıq ixracının artırılması üçün görüləcək işlərdən danışılmışdı. Bildirilmişdi ki, ixrac sahəsində birbaşa müqavilələr bağlanmalıdır. Bundan əlavə, ixrac olunan fındığın çeşidinin artırılmasına, məhsulun paketlənməsinə başlanmasının vacibliyi vurğulanmışdır.

Həmin müşavirədə qarşıya qoyulmuş vəzifələr artıq icra olunur. Elə keçən ilin sentyabr ayında "WorldFood Moscow" Beynəlxalq Ərzaq Sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində öz təbii və keyfiyyətli məhsulları ilə ziyarətçilərin və sərgi təşkilatçılarının diqqətini cəlb edən Zaqatala rayonunun "Azərstar" şirkəti 2017-ci ilin məhsulu nominasiyası" üzrə qızıl medala layiq görüldü.

Bu işdə elmi-tədqiqat institutlarının mütəxəssisləri də öz töhfələrini verirlər. Bu baxımdan Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zaqatala Bağçılıq Dayaq Məntəqəsi daha çox fərqlənir. Məntəqənin direktoru Rəşad İbrahimov deyir ki, təsərrüfatın 62,75 hektar torpaq sahəsi var. 1,5 hektarda tinglik sahəsi yaradılıb. Burada 5 min qoz və 10 min fındıq tingi basdırılıb. Bundan əlavə, fərqli üsullarla 4,5 hektarda bağ salınıb. Həmçinin İtaliyadan gətirilmiş "Cinfoni" sortlu 30 ting də sahəyə vurulub. 20 hektarda taxıl, 5 hektarda yonca əkilib. 12 hektar məhsuldar fındıq bağından bu il 17 ton 300 kiloqram fındıq toplanıb.

Müsahibimizin sözlərinə görə, hazırda rayon ərazisində 76 sort fındıq becərilir. Onların hər biri ayrı-ayrılıqda məhsuldarlığına görə fərqlənsə də, "Ata-baba" sortu daha sərfəlidir. Üstünlük onun yağlılığında və bol məhsul verməsindədir. Bu sort həmçinin xəstəlik və zərərvericilərə, quraqlığa, şaxtaya qarşı dözümlüdür, onun tərkibi, zəngin pöhrəvermə qabiliyyəti yüksəkdir. Eyni zamanda hər il bar verir.

Öyrəndik ki, bu il rayonda fındığın məhsuldarlığı hava şəraiti ilə əlaqədar bir qədər az olub. Bununla belə, məhsulun keyfiyyət göstəriciləri əvvəlki ildəkindən xeyli yüksəkdir.

Son illər fındıqda müşahidə olunan xəstəliklərin aradan qaldırılması üçün Zaqatalada təsis olunmuş "Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin rəhbərliyi ilə görüşlər keçirilir. Problemin həlli istiqamətində müzakirələr aparılır. Ümumiyyətlə, bu qurum fındıqçılığın inkişafına yardım etmək, fındıq istehsalı və emalı sahəsində yeni texnologiyaların tətbiqinə, təbii resursların səmərəli istifadəsinə dəstək vermək, fındıqçılıqla bağlı maarifləndirmə işi aparmaq məqsədilə yaradılıb.

R.İbrahimov dedi ki, fermerlərlə, fərdi təsərrüfat sahibləri ilə də sıx əlaqələri var. Narahatlıq yaradan, məhsuldarlığa təsir edən məqamlarla bağlı müraciət edənlərə lazımi tövsiyələr verilir.

Müsahibimiz qeyd etdi ki, fındıq ağaclarının məhsuldar olması üçün vacib məqamlardan biri əkin sxeminə nəzarət etmək və budamanı düzgün aparmaqdır. Budama vaxtında aparılmadıqda ağacların əkin sahəsi daralır və onların qidalanma imkanları azalır. Ona görə də aqrotexniki tədbirlərə mütləq düzgün nəzarət olunmalıdır. Havanın sirkulyasiyası, tozlanmanın getməsi, günəş şüalarının bitkiyə hərtərəfli düşməsi də vacib şərtlərdir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Mingəçevir Sənaye Parkı "Made in Azerbaijan" markası ilə beynəlxalq bazara çıxır



Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev qazanılmış nailiyyətləri daha da möhkəmləndirmək üçün iqtisadi resurslardan, mütərəqqi texnologiyalardan, əmək ehtiyatlarından səmərəli istifadə etmək zərurətini vurğulamış, qeyri-neft sektorunun uğurlu nəticələrindən söz açanda Mingəçevir Sənaye Parkı barədə demişdir: "Bu parkda 2 böyük iplik fabriki işləyir. Orada 750 insan işlə təmin olunub. Orada işləyənlər əsasən qadınlardır. Bu iplik fabriklərinə 80 milyon dollar sərmayə qoyulub. Bu, bizim ixrac imkanlarımızı genişləndirir və biz mahlıcı orada ipə çevirərək artıq daha da valyutatutumlu məhsul ixrac edirik. Bu prosesin davamı olmalıdır ki, biz artıq hazır məhsula da nail ola bilək".



Mingəçevir Sənaye Parkı ilk addımlarını çox inamla atır. 2018-ci ilin fevral ayında fəaliyyətə başlayan Mingəçevir Tekstil MMC-nin hələlik 2 iplik fabriki işə düşüb. Fabriklərin ümumi dəyəri 144 milyon manatdır. İplik fabriklərinin qurulmasında İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kredit imkanlarından da istifadə edilmişdir. Müasir tələblərə cavab verən ən son texnologiyalar əsasında yaradılmış bu fabriklər Almaniya, İsverçə, Türkiyə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən gətirilən avadanlıqlarla təchiz olunmuşdur. Fabriklərdə 10 min ton "Rinq", 10 min ton isə "Open End" üsulu ilə müxtəlif cür iplik istehsalı nəzərdə tutulub.






Sənaye parkının direktoru, gənc mütəxəssis Mehman Hüseynov söhbət zamanı dedi:

- Prezident İlham Əliyevin ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək məqsədilə imzaladığı sənədlər, verdiyi tapşırıq və tövsiyələr, sahibkarlara böyük və davamlı dövlət qayğısı qazanılan uğurların əsas şərtidir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının üçüncüsünün də icrası başa çatmaq üzrədir. "Mingəçevir Tekstil"də istehsal edilən yüksəkkeyfiyyətli pambıq ipliyi "Made in Azerbaijan" markası ilə artıq beynəlxalq bazara çıxarılır. Türkiyə, Rusiya şirkətləri ilə uğurlu ticarət əlaqələri qurmuşuq. Çin sənayeçiləri ilə işgüzar danışıqlar aparırıq. Əminik ki, yaxın günlərdə Çinə ilk iplik karvanı yola salacağıq.

Mingəçevir Sənaye Parkı ilk addımlarını atır. Qarşıda görüləsi işlər daha çoxdur. Sənaye parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrik fəaliyyət göstərəcəkdir. Bu məqsədlə 150-200 milyon ABŞ dolları həcmində investisiya qoyulacağı, 5.500-dən çox yeni iş yerinin açılacağı nəzərdə tutulub.

İnsan resursları departamentinin direktoru Habil Salmanovla birlikdə parkın ayrı-ayrı sahələrini gəzib fabriklərdə iş prosesi ilə tanış olduq. Hər yerdə səliqə-sahman, işlərin səmərəli təşkili diqqət çəkirdi. Texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

Nofəl Salmanov fabrikin qayğılarından söz düşəndə dedi:

- Əsas qayğımız kadr ehtiyatı yaratmaqla bağlıdır. Xüsusi hazırlıq keçmədən fabrikdəki yeni nəsil avadanlıqları idarə etmək qeyri-mümkündür. Hansı xarici şirkətlərdən avadanlıqlar almışıqsa, onlarla əvvəlcədən razılaşmamız olub. Həmin şirkətlər öz mütəxəssislərini göndərir, onlar da burada işə götürülənlərə yeni dəzgahlarda işləməyi öyrədirlər. Bacarıqlı kadrlar hazırlamaq üçün Gəncə Texnologiya Universiteti ilə də müqavilə bağlamışıq. Orada bizim istəyimizlə yeni kafedra yaradılmışdır. Tələbələrin istehsalat təcrübəsini bizim fabrikdə keçəcəkləri nəzərdə tutulub.

Fabrikdə Türkiyədən gələn təcrübəli mütəxəssislər də çalışır. Onlardan birinin - İbrahim Kalaylının Türkiyə iplik sənayesində 30 ildən çox təcrübəsi var. Mingəçevir Sənaye Parkının bünövrəsi qoyulandan buradadır. Azərbaycanlı qızla ailə qurub. Ayişənur Səlvər adlı bir qızları var.

Fabrik müdiri İbrahim Kalaylı təcrübəsi, bilik və bacarığı, başlıcası hər kəsdə xoş ovqat yaradan səmimiyyəti ilə kollektivin hörmətini qazanmışdır. Öz təcrübəsini də gənclərə həvəslə öyrədir.

Üç növbə işləyən fabrikdə çalışanlar qayğı ilə əhatə olunublar. Hər növbədə işçilərə bir dəfə fabrikin hesabına yemək verilir. Burada həkim məntəqəsi də var.

Bir sözlə, "Mingəçevir tekstil" hələ ilk addımlarını atır. Həftələr, aylar ötdükcə bu addım daha möhkəm olur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Elm xadimləri

# Şərəfli ziyalı ömrü

**Azərbaycan ziyalılarının yaradıcılıq tarixi qədim və zəngindir. Həmin ziyalılar nəslinin davamçıları bu gün də var və onlar fəaliyyətlərini qürurla davam etdirirlər. Belə ziyalılardan biri də torpaqşünas-ekoloq, coğrafiya elmləri doktoru, professor Telman Əbdulhəmid oğlu Xəlilovdur.**

T.Xəlilov 1938-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini 1955-ci ildə Göyçay rayonunda başa vurduqdan sonra həmin ildən də Sabunçu rayonunun 12-ci neft mədənində operator vəzifəsində işləməyə başlamışdır.

1962-ci ildə Bakı Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsində coğrafiyaçı-bioloq ixtisasına yiyələnmiş və təyinatını AMEA-nın Coğrafiya İnstitutuna almışdır. 1962-ci ilin noyabrında ordu sıralarına çağırılmış və xüsusi kurs keçərək zabit rütbəsi almışdır. 1964-cü ildə ordudan tərxis olunmuşdur.

Əvvəlcə AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda işləməyə başlayır, həm də fəaliyyətini aspiranturada davam etdirir. Aspiranturanı başa vurduqdan sonra çox maraqlı, lakin böyük əmək tələb edən işlərdə çalışır. Tədqiqatları əməktutumlu olduğu üçün onları mürəkkəb çöl şəraitində həyata keçirməli olur. Onun həyatının ən önəmli illəri ondan ibarət olmuşdur ki, alim aspiranturada oxuduğu illərdə və ondan sonrakı dövrdə AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda bir çox qabaqcıl elm xadimləri - akademiklər H.Ə.Əliyevlə, V.R.Valabuyev, müxbir üzvlər M.E.Salayevlə, M.R.Abduyevlə və bir çox görkəmli alimlərlə yaxın münasibətdə olmuş, onların elmi yaradıcılığından və məsləhətlərindən bəhrələnmişdir. Adları çəkilən alimlərin yaratdığı elmi ideyalar professor T.Xəlilovun sonrakı həyat və fəaliyyətində də öz əksini tapmışdır. Alim Azərbaycan torpaqlarının genetik əlamətlərini öyrənməklə bir çox xüsusiyyətlərini tədqiq etməli olmuşdur. Mənşəyi, kimyəvi elementlərin miqrasiyası, bioloji dövranı və s. dəyərli araşdırmaları nəticəsində torpaqların irimiqyaslı təhlilinə və xəritələşdirilməsinə yönələn qiymətli məlumatlar verirdi. Bu tədqiqatlar Azərbaycanın müxtəlif təbii zonalarında bəzən il boyu davam etdiyindən təbiətin sərtliyi ilə də üzləşməli olurdu. Sellər, dumanlar, yüksək dağların mürəkkəb relyefi onun çöl şəraitində fəaliyyətini dayandıra bilməmişdir. Alimin çoxtərəfli fəaliyyəti nəticəsində 1973-cü ildə "Zəyəmçay hövzəsində dağ-bozqır və kserefil meşə torpaqlarında bioloji dövran və kimyəvi elementlərin miqrasiyası" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Alınan nəticələrlə kifayətlənməyərək daha geniş tədqiqatlar aparmağı qarşısına məqsəd qoymuşdur. O, Kiçik Qafqazın şimal-şərq yamaclarında dağ-bozqır kserefil meşə torpaqlarında kimyəvi elementlərin miqrasiyası və bioloji dövranı mövzusunda fəaliyyətini davam etdirmişdir. Tədqiqatlarda landşaft-geokimyəvi üsula xüsusi önəm vermiş və digər həmkarları ilə birlikdə torpaqla bağlı qanunauyğunluqları izah etməyə çalışmışdır. Onunla söhbətlərimizdən aydın olur ki, alimdə o dövrdə tədqiqatçı psixologiyası formalaşmağa başlayır və xələflərinin yolunu layiqincə davam etdirməli olurdu.

Telman Xəlilovu eyni zamanda yaxşı ictimaiyyətçi, insanlarla səmimi ünsiyyəti olan ziyalı kimi də tanıyırlar. Ona görə də onun AMEA-nın Alimlər Şurasının üzvü seçilməsi də təsadüfi deyildi.

T.Xəlilov hazırlıqlı tədqiqatçı olduğundan biliklərini torpaqların tətbiqi sahələri ilə də əlaqələndirməyi professionallıqla bacarırdı. O, 1974-1994-cü illərdə Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda baş elmi işçi, laboratoriya müdiri vəzifələrində işləmişdir. Həmin institutda düzən ərazilərdə torpaqların meliorasiyasına dair geniş tədqiqatlar aparmağa başlamışdır. Eyni zamanda meliorasiya olunan torpaqlardan istifadə edilməsinin mütərəqqi üsullarının hazırlanmasında da aparıcı mütəxəssis kimi fəaliyyət göstərmişdir. Apardığı tədqiqatları və məzmunlu məqalələri onu nəinki Azərbaycanda, həm də postsovet məkanında həmkarları içərisində nüfuzlu torpaqşünas alim kimi tanıtmışdır.

Ona görə də 1978-ci ildən başlayaraq keçmiş SSRİ-nin müvafiq nazirliyi tərəfindən müqavilələrə əsasən ilk dəfə torpaqşünas-ekspert kimi Yaxın Şərqin iri dövlətlərindən biri olan Suriya Ərəb Respublikasına dəvət olunur. Suriyada Hələb və Qərbi Məskənə torpaqlarının baş suvarma planının yerinə yetirilməsi istiqamətində torpaqların fiziki xassələri, şorlaşması, torpaq qatının qalınlığı, şorlaşma xəritələrinin tətbiqi və s. ilə yanaşı, onların pozulmasına qarşı tədbirlər planının hazırlanmasında aparıcı mütəxəssis və qrup rəhbəri kimi fəaliyyət göstərmişdir.

Suriyaya ikinci səfərdə (1983-1986) onun həm elmi potensialı, həm də ictimai işləri xeyli genişlənir. Müqavilədə ilk növbədə mütəxəssis metodiki şuranın sədri, sovet dövlətinin Hələb şəhərindəki Baş Konsulluğunda metodiki şuranın sədr müavini kimi fəaliyyət göstərir. O, zəhməti, şəxsi keyfiyyəti ilə həmkarlarının hörmətini qazanır. Sovet səfirliyinin fəxri fərmanı ilə təltif olunur. Suriyada olarkən imkan daxilində ölkəni gəzir, onun daxili və xarici siyasəti, sənayesi, kənd təsərrüfatı, adət və ənənələri ilə maraqlanır, məlumatlar toplayır, bu qədim ölkənin keçmişi və bugünü ilə maraqlanır. Azərbaycan şairi İ.Nəsiminin evini və məzarını dəfələrlə ziyarət edir. O, Azərbaycanı bu ölkədə layiqincə təmsil edir.

Qeyd edək ki, Suriya Ərəb Respublikası daxili ixtilafların, çəkişmələrin, qarşıdurmaların hakim olduğu Yaxın Şərq ölkəsidir və Telman Xəlilov orada işlədiyi müddətdə qarşıdurmaların müharibəyə çevrildiyi yerdə işləməli olmuşdur. Onun söylədiklərinə görə, 1980-ci ildə atışmalar yaşadığı binaların ətrafında gedirdi. Üç ay "ev dustağı" olmaqla yanaşı, hər an hücum təhlükəsi altında yaşamış, onların yaşadığı binanı 50 nəfər xüsusi təyinatlı əsgər qorumuş və bir neçə ay Hələb şəhəri dövlət nəzarətindən çıxmışdır. Buna baxmayaraq, Telman müəllim böyük təəssüratlarla, gərgin şəraitdə sərbəst iş aparmaq bacarığını nümayiş et-



dirmiş və 1986-cı ilin axırlarında vətənə qayıtmışdır.

1994-cü ildə tanınmış alim Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Baş elm və təhsil idarəsinə işə dəvət olunur. Bir neçə elmi tədqiqat institutunun kuratoru olur və elmi şuranın üzvü seçilir. 1995-ci ildə Avropa Şurasının nəzdində olan "Təsis" firması tərəfindən təşkil olunmuş rəhbər işçilər üçün 5 aylıq ixtisaslaşma kursunu bitirir.

Telman Xəlilov xarici ölkələrdə torpaqşünaslıq elmini layiqincə təmsil edir. 1970-ci ildə Polşada və 1973-cü ildə ADR-də Azərbaycandan gedən alimlərin nümayəndələrindən biri olur. 1989-cu ildə Novosibirsk şəhərində sosialist ölkələri torpaqşünaslarının VIII qurultayında maraqlı məruzə ilə çıxış edir. 1996-cı ildə İran İslam Respublikasında Azərbaycan alimlərindən biri kimi respublikamızı təmsil edir.

Telman Xəlilov 1996-cı ildən BDU-nun Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə (indiki coğrafi ekologiya) kafedrasında dosent vəzifəsində işləməyə başlamışdır. Həmin dövrdən ekologiya və ətraf mühiti mühafizə, qlobal ekologiya və başqa bir neçə seçmə fənlərdən mühazirələr oxumaqla yanaşı, kafedrada elmi tədqiqat işlərində fəallıq göstərmişdir.

Onun torpaqların tədqiqi, meliorasiyası və s. sahələrdə apardığı təcrübələr BDU-nun Coğrafi ekologiya kafedrasında formalaşan elmi məktəbin fəaliyyəti ilə əlaqələndirilmişdir.

2006-cı ildə Telman Xəlilov "Arid zonaların suvarılan torpaqlarının genetik xüsusiyyətləri, müasir torpaq-ekoloji səciyyəsi və meliorativ rayonlaşdırılması" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək coğrafi və geoloji ixtisas üzrə elmlər doktoru alimlik dərəcəsi, 2012-ci ildə professor diplomlarını almışdır. Uzun illər Kür-Araz ovalığı və Suriya Ərəb Respublikasının şimal əyalətində tədqiqatlar apararaq, hər iki regionun və digər ölkələrlə analoq təşkil edən torpaqların genetik xüsusiyyətlərini, müasir meliorativ vəziyyətinin müqayisəli ekocoğrafi səciyyəsinin təhlilini vermişdir.

Tanınmış alim 130-dan çox elmi əsər və məqalənin, o cümlədən 6 kitabın müəllifidir. T.Xəlilov 2010-cu ildən BDU-da yeni yaradılan Ekologiya və torpaqşünaslıq fakültəsinin Elmi Şurasının üzvüdür. O, həmçinin AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutu nəzdində Müdafiə Şurasının, AMEA-nın Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Torpaq və su ehtiyatlarının idarə edilməsi və ətraf mühitin mühafizəsi problemləri üzrə Elmi Şuranın, Azərbaycan Torpaqşünaslar Cəmiyyətinin üzvüdür. Yazdığı əsərlər içərisində "Suriya Ərəb Respublikasının təbii şəraiti və torpaq ekoloji səciyyəsi" kitabı, "Biosferin mühafizəsi" monoqrafiyası, "Ekologiya və ətraf mühitin mühafizəsinin əsasları" dərsliyi və "Qlobal ekoloji problemlər" (dərs vəsaiti) kitabları mütəxəssislərin və geniş oxucu kütləsinin böyük marağına səbəb olmuşdur.

Elmi-pedaqoji və ictimai fəaliyyətini nəzərə alaraq Telman müəllim işlədiyi müəssisələrin rəhbərliyi tərəfindən dəfələrlə medal, fəxri fərman və diplomlarla mükafatlandırılmışdır. 80 yaşında olmasına baxmayaraq, işinin öhdəsindən layiqincə gəlir. Şərəfli ömür yolu keçən professor Telman Xəlilova alimliklə müəllimliyin vəhdət təşkil etdiyi bir ziyalı ömrü nəsib olmuşdur.

***Məhərrəm BABAYEV,***
***akademik***

***Şövqi GÖYÇAYLI,***
***BDU-nun professoru***

Milli qəhrəmanlarımız

# Varislik borcu

**Səfiyar Bərdədə doğulub. Atası Abuzər kişinin halal çörəyi ilə ərsəyə çatıb. O qədər arzuları, istəkləri vardı ki... Amma hamısı yarımçıq qaldı. Zalım düşmən ona macal vermədi. Cəmi 24 il yaşadı. Atası Abuzər kişi demişkən, nə yatdı ki, nə yuxu görə...**



Bu yerlər ona o qədər doğma idi ki... Zabitlər kursunda oxuyanda da girəvə tapan kimi Bərdəyə dönürdü. Təkcə atasına, anasına baş çəkməyə yox, həm də bu yerlərə olan doğma sevgisinə görə. O qədər gövdəli olmasa da, daxilən zəngin və cəsarətli idi. Xocalının işğalından cəmi bir həftə keçəndən sonra Bərdədə yaradılan könüllülər batalyonuna qoşuldu. Atasından, anasından xeyir-dua alıb dedi ki, böyüdüyüm Bərdəyə o vaxt dönəcəyəm ki, düşmən cavabsız qalmayacaq.

Səfiyar Behbudov düşmənlə döyüşə gedəndə cəmi 22 yaşı vardı. İlk döyüş yolu Tərtərdən başlayıb. Çətin əməliyyatlarda axıradək iştirak edib. Bu yerlərə yaxşı bələd olduğuna görə onu daha ciddi əməliyyatlara cəlb edibilər. Səfiyar bir qayda olaraq ümidləri doğrultduğuna görə dəfələrlə mükafatlara layiq görülüb. Amma özü deyirdi ki, bizim ən böyük mükafatımız elimizi, obamızı, torpaqlarımızı azad görməkdir... Gərək macal verməyək ki, düşmən bu yerlərdə at oynatsın...

Tərtər bölgəsində ağır döyüş əməliyyatları çox olub. O yerləri qorumaq üçün xeyli oğullar itirmişik. Elə Səfiyar da belə əməliyyatların çoxunda iştirak etmişdi. Ən ağır mövqelərdən hücuma qoşulmuşdu. Sərt döyüşlərin birində yaralansa da, geriyə dönməmişdi. Hər dəfə yaşına uyuşmayan hünər göstərmişdi. Döyüş dostları deyirdilər ki, əgər Səfiyar döyüşə qoşulubsa, düşmənin itkisi ən azı iki dəfə artıq olacaq. Az yaşı ilə böyük işlər görən Səfiyar düşmən üçün vahiməli döyüşçüyə çevrilmişdi. Komandirləri deyirdi ki, Səfiyar döyüş zamanı geriyə yol tanımır. Əgər döyüşə başladısa, sona qədər getməli idi. Bəzən komandirlərinin də geri çəkilmə əmrinə tabe olmurdu. O, həmişə irəliyə can atırdı. Ətrafında olan döyüş yoldaşları da onu belə tanıyırlar.

1992-ci ildə Səfiyarı Ağdam bölgəsinə göndərdilər. O yerlərdə ağır döyüş əməliyyatları səngimirdi. Ona görə də Tərtərdən Ağdama yeni qüvvələr göndərməli oldular. Onda Səfiyar könüllü olaraq döyüş yoldaşlarına qoşuldu. Qarabağın hər qarışı ona doğma idi. Deyirdi ki, Qarabağ torpağında düşmən hənirtisi eşitməyi qəbul edə bilmirəm. Bu yad səsləri doğma torpaqlarımızda kəsməliyik. Təkcə avtomat, pulemyot, mərmi səsi yox, elə bizim harayımız da düşməni çaşdırmalıdır. Səfiyarın əqidəsi, amalı belə idi...

Dostları Səfiyarın sonuncu döyüş əməliyyatını xatırlayırlar. Əslində komandirləri ona üç günlük istirahət hüququ vermişdilər. Ağır döyüşlər keçirmişdi. Amma bundan könüllü imtina etdi. Dedi ki, qarşıda bizim dincəlməyə vaxtımız çox olacaq. Bu gün isə mübarizə aparmaq vaxtıdır. Amma sonuncu döyüş əməliyyatı Ağdamda başa çatdı. Neçə yerdən yaralansa da, geriyə çəkilmək istəmirdi. Döyüşün ən ağır vaxtında dostlarının qucağında can verdi. Sonuncu sözü bu oldu ki, mən axıra qədər döyüşə bilmədim, amma inanıram ki, bu döyüşləri başa çatdıran etibarlı dostlarım var... Onu tanıyanlar, xatırlayanlar deyirlər ki, Səfiyarın qəhrəmanlığı, igidliyi yaşadığı ömrün çərçivəsinə sığmırdı. Həm də inadkarlığı vardı. Əgər qarşısına bir məqsəd qoydusa, geri çəkilmək niyyəti olmazdı. Artıq bir neçə ildə əsl hərbçi kimi formalaşmışdı. Özünütəsdiq üçün nə tələb olunurdusa, hər şeyə qadir idi.

Səfiyar Abuzər oğlu Behbudov 24 ili belə yaşadı. Abuzər kişi də belə oğul böyütdüyünə görə heç vaxt sıxılmırdı, Səfiyarın əməlləri ilə fəxr edirdi.

Bərdədə bir məktəb var. Səfiyar o məktəbdə təhsil alıb. Elə ilk mərdlik dərslərini də bu yerlərdə öyrənib. Bu gün o məktəbin qapısını açanlar yaxşı bilirlər ki, bu yerdə Səfiyar kimi oğul böyüyüb. Onun adını, əməllərini yaşatmaq yeni nəslin varislik borcudur.

Ona ailə qurmağa, bir ocağın çırağını yandırmağa müharibə macal vermədi. Səfiyarın gələcək arzularının çoxu müharibə səngərlərində qırıldı. Amma yeni nəsillər onun adını hörmətlə çəkir, yaşadığı ömrün mənasına yüksək dəyər verirlər.

Bu gün Səfiyarın adı ilə bağlı o qədər xatirələr yaşayır ki... Onun cəbhə gündəliyini də qiymətli saxlanış kimi qoruyurlar. Bu balaca dəftərçədə çox şeylər yazılıb. Macal tapanda ürəyindən keçənləri səliqəli xətti ilə ipə-sapa düzürdü. Həmin gündəlikdə oxuyruq: "Biz 1988-ci ilin ağır günlərini görmüşük. Onda sovet imperiyasına qarşı vuruşurduq. Daha doğrusu, mənim yaşıdlarım imperiya bostanına azadlıq toxumu səpirdilər. Əgər o toxumlar cücərirdisə, bu, bizim qələbəmiz idi. Özü də imperiya üzərində böyük qələbə! Bu gün bizim qarşımızdakı düşmən o illərlə müqayisədə çox zəifdir. Amma həndəvərindəki havadarlarına, müdafiəçilərinə güvənirlər. Ona görə də bizimlə üz-üzə dayanıblar. İnanırıq ki, özgə torpağını qoruyanlar sona qədər dözüm gətirə bilməyəcəklər. Bu yerlərin yurd sahibi də bizik, keçmişimizin varisləri də... Ona görə də sona qədər dözüm göstərəcəyik".

Səfiyarın cəbhə gündəliyində belə deyimlər çoxdur. Elə düşündüyü kimi də yazırdı. Və inanırdı ki, yazdıqları gec-tez həqiqət olacaq...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Müasir tipli məktəblərin sayı artır

**Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə dünya standartlarına uyğun müasir tipli məktəblərin sayı ildən-ilə artır. Ölkə başçısı bölgələrə səfəri zamanı mütəmadi olaraq məktəblərin tikintisi, əsaslı təmirdən sonra binaların vəziyyəti ilə maraqlanır, tövsiyə və tapşırıqlarını verir, ya da inşası başa çatmış müasir tipli məktəb binalarının açılışını edir. Bütün bunlar ölkədə təhsilin inkişafına dövlət səviyyəsində olan yüksək qayğıdan xəbər verir.**

Təkcə oktyabr ayının birinci yarısında Prezident İlham Əliyev bölgələrdə üç orta ümumtəhsil məktəbin - Quba rayonunun Alekseyevka, Ağcabədi rayonunun Salmanbəyli, Lənkəranın Şıxakəran, həmçinin Lerikin Qrand kəndlərində yeni ümumtəhsil məktəblərinin tikintisi barədə sərəncam imzalamışdır. Sərəncamlara əsasən Quba rayonunun Alekseyevka və Lənkəran rayonunun Şıxakəran kəndlərində tikiləcək məktəblərin hər biri üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Təhsil Nazirliyinə 2 milyon manat, Ağcabədi rayonunun Salmanbəyli kəndində və Lerik rayonunun Qrand kəndində inşa ediləcək yeni ümumtəhsil məktəblərinin tikintisi üçün hər birinə 1 milyon manat vəsait ayrılmışdır. Ümumiyyətlə, ölkəmizdə yeni məktəb binalarının tikintisi cari ilin əvvəlindən intensiv şəkildə davam etdirilir. Dövlət proqramları çərçivəsində son 15 il ərzində Bakıda və şəhərətrafı qəsəbələrdə, həmçinin respublikanın bölgələrində 3 mindən çox məktəb tikilib və ya əsaslı təmir edilib. Yeni təhsil müəssisələrinin inşası, yaxud əsaslı şəkildə yenidən qurulması sayəsində 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, o cümlədən birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı artıb.

Ölkəmizdə ötən il 133 yeni məktəb tikilib, 14-ü əsaslı təmir edilib, 500-ə yaxın təhsil ocağında isə cari təmir işləri aparılıb. Yeni məktəb binalarının inşası 2018-ci ildə də uğurla davam etdirilir, ölkə üzrə indiyədək 200-dən çox təhsil müəssisəsi tikilib və təmir olunub.

Yeni dərs ilinin ilk günündə Şəki rayonunun Baş Zəyzid kənd tam orta məktəbinin müəllim və şagirdləri ikiqat bayram sevinci yaşadılar. Belə ki, həmin gün 624 şagird yerlik yeni məktəb binası onların istifadəsinə verilmişdi. 2012-ci ildə bölgədə baş vermiş güclü zəlzələ zamanı qəzalı vəziyyətə düşən bu məktəb indiyədək uyğunlaşdırılmış binalarda fəaliyyət göstərirdi. Müasir standartlara uyğun inşa olunan üçmərtəbəli binada indi 25 sinif otağı, 6 fənn kabineti, laboratoriyalar, kompüter otağı, kitabxana, bufet, akt və idman zalları yerləşir. Cari ildə bu məktəbə 600-dən çox şagird cəlb olunub. Onların 67 nəfəri ilk dəfə məktəb partası arxasında əyləşib. Şagirdlərin təlim-tərbiyəsi ilə 102 müəllim məşğul olur.











Sabirabadın Yaxadəllək kənd tam orta məktəbi üçün tikilən yeni məktəb binası da cari ildə istifadəyə verilib. 360 şagird yerlik ikimərtəbəli məktəb binasında 16 sinif otağı, fənn kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kompüter otağı, kitabxana, akt və idman zalları, yeməkxana və digər yardımçı sahələr fəaliyyət göstərir. Təhsil ocağında havalandırma, soyutma və istilik sistemləri qurulub, su və elektrik xətləri çəkilib, həyətdə abadlıq işləri görülüb. Müasir tələblər əsasında tikilən binada tədris prosesini yüksək səviyyədə aparmaq üçün hər cür şərait yaradılıb.

İsmayıllı rayonunun Lahıc qəsəbəsi bu gün yeni dövrünü yaşayır. Bir vaxtlar lahıclıların arzusunda olduqları yeni məktəb binası artıq müəllim və şagirdlərin istifadəsindədir. 400 yerlik yeni təhsil ocağı Prezident İlham Əliyevin Lahıc məktəblilərinə, pedaqoji kollektivə, sakinlərə böyük hədiyyəsi olmuşdur. Təhsilin müasir standartlar səviyyəsində təşkili üçün hər cür şəraiti olan bu məktəb binasının açılışının Lahıc məktəbinin 100 illiyinin qeyd ediləcəyi 2018-ci ilə təsadüf etməsi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Dövlət başçısının ölkənin təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr qəzalı vəziyyətdə olan məktəbləri də əhatə edir. Son 15 ildə qəzalı vəziyyətdə olan məktəb binaları ya əsaslı təmir edilərək normal vəziyyətə gətirilib, ya da onların yerində təzə müasir tipli məktəb binaları tikilib. Dövlət başçısının qəza vəziyyətində olan ümumtəhsil məktəbləri üçün yeni binaların tikilməsi və bir çoxunda isə əsaslı təmir işlərinin aparılması barədə verdiyi sərəncamlara əsasən respublikamızda təhsil sisteminin ağrılı yerlərindən olan qəzalı məktəblər problemi tədricən həllini tapır. Xüsusilə regionlarda uşaq sayı az olan təhsil ocaqları üçün modul tipli məktəblərin quraşdırılıb istifadəyə verilməsi daim gündəmdədir. 2017-ci ildə respublikanın 40 rayonunda təxminən beş min şagirdi əhatə edən 100 modul tipli məktəb inşa edilib.

Quraşdırılması asan başa gələn modul tipli məktəblərin inşası 2018-ci ildə də davam etdirilir. Cari ildə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında 1332 şagirdlik 22, Lənkəran, Lerik və Astara rayonlarında 860 şagirdlik 16, Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında 824 şagird yerlik 12 məktəbin modul tipli inşası nəzərdə tutulub. İndiyədək respublikanın ucqar kəndlərində 137 belə məktəb quraşdırılıb. Ölkə ərazisində qəzalı məktəblərin sökülməsi və müasirlərinin tikintisi proqramı gələn il başa çatdırılacaq.

Bu il Cəlilabadın 3 kəndində yeni modul tipli məktəb istifadəyə verilib. Rayonun Fərzili kənd orta məktəbi üçün inşa edilmiş 56, Çinar kənd orta məktəbi üçün tikilmiş 80 və Kürdlər kənd tam orta məktəbi üçün inşa edilmiş 96 şagirdlik yeni məktəblər artıq müəllim və şagirdlərin istifadəsindədir. Ümumiyyətlə, Cəlilabadda son 15 ildə 30-dan çox məktəb binası tikilərək istifadəyə verilib.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərə müvafiq olaraq Astara rayonunun Siyatük kəndində inşa edilmiş 56 şagirdlik modul tipli yeni ibtidai məktəb binası cari ildə müəllim və şagirdlərin ixtiyarına verilib. İnşa edilən yeni təhsil ocağı 6 otaqdan ibarətdir. Xatırladaq ki, 15 ildə Astarada 40-dan çox yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Bu il Süvi kənd tam orta və Deqədi kənd ümumi orta məktəblərindən sonra üçüncü yeni məktəb binası istifadəyə verilib. Hazırda Burzubənd kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə başlanılıb, Doli və Şəmətük kənd ibtidai məktəblərinin yeni binasının tikintisi layihələndirilib.

Respublikamızın hər yerində olduğu kimi, Bərdə rayonunda da təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülür. Cari ildə rayonun Qaratəpə və Hacılar kəndlərində tikilmiş modul tipli məktəblər müəllim və şagirdlərin istifadəsinə verilib. Bərdədə təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, rayon üzrə ali məktəblərə qəbul olunan gənclərin sayı ildən-ilə artıb. Təkcə bu il rayonun orta ümumtəhsil məktəblərini bitirən 1159 nəfər məzundan 729 nəfəri ali məktəblərə sənəd verib, 533 nəfər ali, 213 nəfər isə orta-ixtisas məktəblərinə qəbul olunub.

Ölkəmizdə dövlətin təhsil siyasətinə Heydər Əliyev Fondu böyük dəstək göstərir. Fondun təhsil sahəsindəki layihələri çərçivəsində ölkəmizdə 400-dən çox məktəb binası inşa olunub. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi və bu layihə çərçivəsində görülən işlər təhsilimizə, gələcəyimizə göstərilən yüksək qayğının nəticəsidir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Kubanda təbii fəlakət ciddi fəsadlara səbəb olub

**Krasnodar diyarında tüğyan edən güclü qasırğa və leysan yağışlar daşqınlara, avtomobil körpüsünün dağılmasına və digər fəsadlara səbəb olmuşdur. Yüzlərlə adam təxliyə edilmişdir. Ölənlər, xəsarət alanlar və itkin düşənlər var. Bu barədə Rusiya KİV xəbər verir.**



Kubanın Tuapse və Apşeron rayonlarında, habelə Soçi şəhərinin Lazarevskoye rayonunda leysan yağmışdır. Burada bir neçə saata aylıq yağıntılar norması düşmüşdür. 27 yaşayış məntəqəsində 1600 ev su altında qalmışdır.

Cuqba-Soçi federal trasında daşqına görə Makopse çayı üzərindəki körpünün 20 metrlik hissəsi uçmuşdur. Hadisə nəticəsində zərərçəkən olmamışdır. Körpünün bərpasına əlverişsiz hava şəraiti maneçilik törədir.

Bundan əlavə, Aşe və Sovet-Kvace yaşayış məntəqələri rayonunda federal trasa sel gəlmişdir. Maryino, Naciqo, Kalej və Lıqotx rayonları ilə əlaqə kəsilmişdir. Yolun bərpası üçün azı iki gün vaxt tələb olunur.

Dəmir yolu hərəkəti də kəsilmişdir. Daşqına görə 31 sərnişin qatarı dayanmışdır. Rusiya Dəmir Yolu İdarəsindən bildirmişlər ki, infrastrukturun bərpası üçün 3 sutka vaxt lazımdır.

Krivenkovskoye kəndində sel iki pensiyaçını aparmışdır. Daha bir ahıl qadın itkin düşmüşdür. İki nəfər xəsarət almışdır.

Tuapse rayonunda və Soçidə qaz təminatı pozulmuşdur, bəzi rayonlarda içməli su tapılmır. 9 yaşayış məntəqəsi işıqsız qalmışdır.

Qasırğa faktiki olaraq Soçi şəhərinin ətraf regionla əlaqəsini kəsmişdir. Xəstəxananı və poliklinikanı su basmışdır. Beynəlxalq hava limanı işləsə də, avtomobil və dəmir yolu hərəkəti kəsilmişdir.

Rusiya Fövqəladə Hallar İdarəsinin rəhbərliyi sərnişinlərin daşınmasının təşkili barədə tapşırıq vermişdir. Subasmanın fəsadlarını 800-ə yaxın adam aradan qaldırır. Bunun üçün 200-dən çox texnikadan istifadə edilir.

Tuapse və Apşeron rayonlarında 500-ə yaxın adam təxliyə olunmuşdur. Bu iki rayonda fövqəladə vəziyyət rejimi tətbiq edilmiş, operativ xidmətlər gücləndirilmiş iş rejiminə keçirilmişdir. Bəzi yerlərdə suyun səviyyəsi 2 metrə çatır.

Xadıjensk rayonunda xilasedicilər 2 uşağı evin damından təxliyə etmişlər. Su basmış rayonlarda köməksiz qalan adamlar kiçik qayıqlarla təhlükəsiz yerlərə daşınır.

Sinoptiklərin proqnozuna əsasən, Krasnodar diyarında və Qara dəniz sahilində leysan yağışlar və güclü külək sabahadək davam edəcək.

---

*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti
## “Yaşıl Teatr” Bakı Konsert Kompleksi
## tədbirlərin keçirilməsinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

**Tender 4 (dörd) LOT üzrə keçirilir.**

**LOT-1** 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dövlət tədbiri
**LOT-2** Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərində yeni il tədbirləri
**LOT-3** Xarici ölkələrin bayraqlarının alınması
**LOT-4** İşğal olunmuş rayonların işğal günlərinin yad edilməsi ilə əlaqədar, xarici qonaqların Bakı şəhərinə gəlişi ilə əlaqədar əklillərin, qızılgüllərin alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı, 1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu; tel: 492-46-34.

**“KapitalBank”ın Səbail filialı**
**Kod: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**“Yaşıl Teatr” Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 26 noyabr 2018-ci il saat 17:00-a qədər “Yaşıl Teatr” Bakı Konsert Kompleksinə (ünvan: Bakı şəhəri, Sona Vəlixanlı küç., 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 27 noyabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

---

## Azərbaycan respublikasi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
## “Azərpoçt”MMC
### *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir:
**LOT 1. Şəbəkə Xidmət mərkəzləri və poçt şöbələrində reklam işlərinin satın alınması**
**LOT 2. Mebel avadanlıqlarının satın alınması**
**LOT 3. Elektron reklam məlumat daşıyıcı tabloların hazırlanması və quraşdırılması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyov 72 ünvanına təqdim etməlidirlər. (Telefon: 493-56-00)

**İştirak haqqı**

**LOT 1- 150 manat**
**LOT 2- 300 manat**
**LOT 3- 100 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ82AZPO99995381000420000125** |
| **VÖEN** | **9900037711** |
| **Bank:** | **Azərpoçt MMC** |
| **Kodu:** | **690001** |
| **VÖEN:** | **9900037711** |
| **M/H:** | **AZ76NABZ01350100000000094944** |
| **SWİFT:** | **AZPOAZ 22** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
10. *Digər sənədlər:*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28.11.2018-ci il tarixinə saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 07.12.2018-ci il tarixinə saat 18:00-a qədər Bakı şəhəri, Ü.Hacıbəyov 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10.12.2018-ci il tarixində saat 14:00-da Bakı şəhəri, Ü.Hacıbəyov 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Aİ jurnalistin qətlinə görə məsuliyyət daşıyanların tapılmasını istəyir



Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini bildirmişdir ki, Səudiyyə Ərəbistanı jurnalist Camal Qaşıqçının qətli ilə bağlı “günah keçisi” axtarır. Belçikanın paytaxtı Brüsseldə Kolumbiya Prezidenti İvan Duke və Avropa Komissiyasının başçısı Jan Klod Yunkerlə görüşün yekunlarına görə birgə mətbuat konfransı zamanı Avropa diplomatiyasının rəhbəri qeyd etmişdir ki, Aİ ölkələrinin Səudiyyə Ərəbistanı ilə ümumi münasibətləri mövcuddur. Mogerini vurğulamışdır ki, Aİ Ər-Riyadın növbəti addımlarından asılı olaraq Səudiyyə Ərəbistanı ilə bağlı ümumi mövqedən çıxış edəcək. Lakin indiyədək Ər-Riyad kifayət qədər məlumat təqdim etməmişdir. “Biz bu cinayətə görə məsuliyyət daşıyanları tanımaq istəyirik. Lakin bu o demək deyil ki, biz “günah keçisi” axtarırıq, yaxud qisas almağa çalışırıq” deyə Mogerini bildirmişdir.

Xatırladaq ki, səudiyyəli jurnalist, Amerikanın “Washington Post” qəzetinin icmalçısı Camal Qaşıqçı bu ayın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulluğuna daxil olduqdan sonra yoxa çıxmışdır. Oktyabrın 20-də Səudiyyə Ərəbistanı rəhbərliyi bildirmişdir ki, jurnalist “konsulluğun binasında baş vermiş dava nəticəsində dünyasını dəyişmişdir”.

## BMT: Myanmada müsəlmanların soyqırımı davam edir



Myanmanın Arakan ştatında rohinya müsəlmanlarının soyqırımı davam edir. İndiyədək on min nəfər öldürülmüşdür. Bu barədə jurnalistlərə BMT-nin Myanmadakı hadisələrin təhqiqatı üzrə müstəqil beynəlxalq missiyasının başçısı Mərzugi Darusman məlumat vermişdir. Onun dediyinə görə, aşkar faktlara baxmayaraq, Myanma hökuməti Arakan ştatının müsəlman əhalisinə qarşı soyqırımı törədilməsini təkzib edir. “Arakan ştatının əhalisinin zülmləri davam edir. Hazırda rohinya icması çox ciddi təzyiqə və məhdudiyyətlərə məruz qalır. Son bir neçə ildə heç nə dəyişməmişdir” deyə Darusman vurğulamışdır.

BMT nümayəndəsi Arakan ştatında vəziyyətin tənzimlənməsi üçün beynəlxalq birliyi təsirli tədbirlər görməyə çağırmışdır. O xəbərdarlıq etmişdir ki, Myanma hökuməti cəzalandırılmasa, zorakılıq davam edəcək.

Myanmanın şimalında yerləşən Arakan əyalətində müsəlmanlara hücumlar “silahlı terrorçularla mübarizə” pərdəsi altında həyata keçirilir. Regionda humanitar vəziyyət kəskin şəkildə pisləşmişdir.

1970-ci illərdən başlayaraq Myanmadakı rohinya müsəlmanları daim hücumlara və etnik təmizləmələrə məruz qalırlar. Sayı iki milyona çatan müsəlmanların 80 faizi qonşu ölkələrdə sığınacaq tapmışdır. BMT-nin məlumatına görə, təkcə Banqladeşə qaçan Arakan sakinlərinin sayı 700 mini ötmüşdür.

## Meksikanı “Uilla” qasırğası vurdu

Sakit okeanda formalaşmış “Uilla” qasırğası Meksika ərazisini vurmuşdur. İlk olaraq təbii fəlakətdən Sinaloa ştatı ziyan çəkmişdir. Hazırda tropik siklona Saffir-Simpson cədvəli üzrə beş mümkün səviyyədən üçüncüsü verilmişdir.

ABŞ-ın Qasırğaların Müşahidəsi üzrə Mərkəzindən verilən xəbərə görə, fəlakət zonasında küləyin maksimal sürəti saatda 75 kilometrədək zəifləmişdir. Bundan əvvəl Meksika Milli Mülki Müdafiə Xidmətinin başçısı Luis Felipe Puente təhlükəli rayonların sakinlərini mümkün qədər öz evlərindən çıxmamağa çağırmışdır.

Hökumət Nayarit və Sinaloa ştatlarındakı bir neçə bələdiyyədə fövqəladə vəziyyət elan etmişdir. Yüksək riskli rayonlardan 4 mindən çox adam təxliyə olunmuşdur. Turistlər və yerli sakinlər müvəqqəti mərkəzlərdə yerləşdirilmişlər.

---

*Təkrar*

## *Azərbaycan Respublikası Təhsil Nazirliyi*
## Lənkəran Dövlət Universiteti
### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1. Avadanlığın alınması**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvandan ala bilərlər.

**İştirak haqqı:**
**1 LOT üzrə 350 (üç yüz əlli) manat**

**Əlaqələndirici şəxs: Quliyev Vaqif Şahvərən oğlu**
**Telefon: (025) 2550025**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Lənkəran Dövlət Universiteti**
**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**“KapitalBank” ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50. Faks: (025) 255 27 86; www.lsu.edu.az;office@lsu.edu.az**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 noyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 noyabr 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## BİLDİRİŞ

13.09.2018-ci il tarixdə **Elektrik qurğuları və avtomobil ehtiyat hissələrinin satın alınması** məqsədilə elan edilmiş açıq tenderin LOT-2 (Mühərrik yağlarının satın alınması) üzrə təklif verən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəis müavini Məhərrəm Qafarov Azərbaycan Respublikası Maliyyə Nazirliyi Hərbi qurumların və hüquq mühafizə orqanlarının maliyyəsi şöbəsinin müdir müavini Muqdat İsmayılova anası

**FƏQUMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi “7 №-li Avtomobil Yollarının Yaşıllaşdırılması” MMC-nin direktoru Xəqani Novruzova atası

**MÜDƏHƏT NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini Zaman Novruzova atası

**MÜDƏHƏT NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi agentliyin əməkdaşı, professor Faiq İbadullayevə qardaşı

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8408
Sifariş 3124